AZƏRBAYCAN UĞRUNDA!

# HƏRBİ BİLİK

HƏRBİ ELMİ - NƏZƏRİ , PUBLİSİSTİK JURNAL

## SİLAHLI QÜVVƏLƏRİN 96-CI İLDÖNÜM TƏNTƏNƏSİ









"BU GÜN BİZİM ORDUMUZ İSTƏNİLƏN VƏZİFƏNİ İCRA EDƏ BİLƏR VƏ BUGÜNKÜ TƏLİMLƏR BUNU BİR DAHA NÜMAYİŞ ETDİRMİŞDİR"

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ,
ALİ BAŞ KOMANDANI
İlham ƏLİYEV

№ 3. 2014

# SİLAHLI QÜVVƏLƏRİN YARADILMASININ 96-CI İLDÖNÜMÜ GENİŞMİQYASLI TƏLİMLƏRİN KEÇİRİLMƏSİ İLƏ YADDA QALDI!







AZƏRBAYCAN UĞRUNDA!

# HƏRBİ BİLİK

HƏRBİ ELMİ-NƏZƏRİ, PUBLİSİSTİK JURNAL
№ 3 (129) MAY-İYUN 2014-CÜ İL

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Jurnalın əsası 1 sentyabr 1922-ci ildə qoyulmuşdur.
1993-cü ilin yanvarından yenidən nəşr edilir.

BAŞ REDAKTOR
Polkovnik-leytenant Zakir HÜSEYNOV

BAŞ REDAKTOR MÜAVİNİ, MƏSUL İCRAÇI
Mayor İsmayıl ABDULLAYEV

REDAKSİYA KOLLEGİYASI

E.CƏFƏROV, K.VƏLİYEV, Q.QARAYEV, R.TAHİROV, E.ORUCOV, N.ƏLİYEV,
İ.MAZANOV, R.ƏMİROV, A.KƏRİMOV, T.ƏSƏDOV, A.NƏBİYEV,
İ.MUSAYEV, M.EMİNOV.

## MÜNDƏRİCAT

### ▼ DÖYÜŞ HAZIRLIĞI

Tank müasir döyüşdə . . . . . 3
Odsaçanlar həmlə edir
N.Əliyev . . . . . 11
Hərbi topoqrafiyada tətbiq olunan koordinat sistemləri
R.Qasımov . . . . . 17
Kəşfiyyatçıların dağlarda fəaliyyət üçün hazırlanması
A.Cəlilov, X.Qasımov . . . . . 26

### ▼ SİLAH VƏ TEXNİKA

Robot texnikasının hərbi sahədə tətbiqinin əhəmiyyəti
H. Məmmədov, Y. Əmənov, Y. Talıbov . . . . . 31

### ▼ HƏRBİ NƏZƏRİYYƏ

Riyazi modellərin hərb sahəsində tətbiqinin bəzi məsələləri
E. Həşimov . . . . . 42

▼ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK

Təhlükəsizliyə qarşı təhdid və risklərin beynəlxalq münasibətlər sisteminə təsiri
B. Allahverdiyev ........................................ 51

▼ MƏHKƏMƏ TƏBABƏTİ

Cinayət işlərinin açılmasında tüklərin əhəmiyyəti
F. Məmmədov ........................................ 57

▼ HƏRBİ HÜQUQ

Silahlı Qüvvələrimizdə qanunçuluğun təmin edilməsi ordumuzun inkişafına böyük təkan verir
Z. Hüseynov ........................................ 64

▼ TRANSMİLLİ TƏHDİDLƏR

Transmilli təhdidlər və çağırışlar
Z. Yusifli ........................................ 74

▼ HƏRB TARİXİMİZDƏN

XVIII yüzilliyin axırlarında İrəvan xanlığının siyasi vəziyyəti
E. Qarayev ........................................ 83

▼ ERMƏNİ CİNAYƏTLƏRİNİN İZİ İLƏ

Erməni məsələsi və erməni terroru: mahiyyəti, eyniliyi
Qafar Çaxmaqlı ........................................ 90

▼ HƏKİM MƏSLƏHƏTİ

Günəş yanıqları, günvurmalar, qar korluğu, istilikvurmalar
R. Əhmədov ........................................ 100

▼ HƏRB VƏ SİYASƏT

İranın Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesində siyasəti
R.Əmrahov ........................................ 108

"Hərbi bilik" jurnalı elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

# TANK MÜASİR DÖYÜŞDƏ

Döyüş – düşmənin məhv edilməsi və yaxud əsir götürülməsi ilə nəticələnən qələbə qazanma vasitəsidir. Qələbəyə nail olmaq üçün döyüş əsas vasitə hesab edilir. O, adi və kütləvi qırğın silahlarının tətbiqi ilə aparıla bilər. Müasir ümumqoşun döyüşü qoşunların yüksəksürətli hərəkəti ilə səciyyələnir. Ona qəflətən və dəyişən taktiki şəraitdə bölmələrin cəsarətli və həlledici fəaliyyət göstərməsini təmin edən tank və piyadaların döyüş maşınlarının, zirehli transpartyorların yüksəkkeçidlik imkanlarını, xüsusi təyinatlı müxtəlif maşınların effektiv xüsusiyyətlərini də əlavə etsək mənzərə tam aydın olar. Müasir döyüş sənəti bütün mövcud imkanlardan istifadə etməklə kütləvi qırğın silahlarını daşıyan vasitələri aşkarlamağı və dərhal məhv etməyi, düşmən tərəfindən tətbiq edilmiş kütləvi qırğın silahlarından mühafizəni və onun tətbiqi şəraitində döyüş bacarığının olmasını təmin etməyi tələb edir. Bu tapşırıqların yerinə yetirilməsində əsas üstünlük tanka verilir. Çünki yuxarıdakı tapşırıqları yerinə yetirmək üçün manevrli, effektiv və intensiv atəşətutma tələb olunur. Tankın atış imkanlarının effektli tətbiq edilməsi üçün onun ekipajı döyüş sahəsini müşahidə etmək, hədəfləri aşkar etmək, nisbətən mühümlərini təyin etmək, onu tək-tək atəşlə və taqımın cəmləşdirilmiş atəşi ilə məhv etmək üzrə səriştəsini çöl-səhra məşğələləri və təlimlərdə təkmilləşdirməlidir. Döyüş aparılan ərazidə hərəkətdə və qısa dayanmalarla düşmənə atəş açmaq üçün bütün əlverişli ərazilərdən istifadə edilməlidir. Özünü büruzə verməmək şərti ilə gizlicə düşmənin cinah və arxasına çıxmaq üçün ekipaj yer örtüyünə uyğun fəaliyyət göstərməyi öyrənməlidir. Məsələn, təpə, kiçik yüksəklik tankın həssas hissələrini düşmənin tank əleyhinə vasitələrinin atəşindən və kütləvi qırğın silahları ilə məhv edilmədən sığortalaya bilir; kolluq və kiçik meşəliklər tank əleyhinə idarə edilən raketlərin atəşindən qoruyur; təpələr manevrin gizlicə keçirilməsinə əlverişli şərait yaradır və s.

Düşmənə atəşlə təsiretmə dayandırıldığı təqdirdə, qarşı tərəfin atəş təşəbbüsünü ələ keçirəcəyi imkanının yaranacağını daim yadda saxlamaq lazımdır. Ekipajın bütün heyət üzvləri ustalıq və bacarıq göstərdiyi halda tank vahiməli döyüş maşını hesab edilir. Əgər sürücü-mexanik maşını inamsız və bacarıqsız idarə edirsə, onda o, döyüş sahəsində asanlıqla düşmən atəşinə tuş gəlir, hədəfə çevrilir və yaxud maneələrin dəf edilməsi zamanı ilişib qalır. Əgər top tuşlayıcısı inamlı fəaliyyət göstərməzsə, atəş tempi aşağı düşəcək və az effektli olacaq, buna görə də bu və yaxud digər düşmən hədəfi məhv edilməyəcək, nəticədə hücum edən bölmələrimiz tələfata uğrayacaqdır.

Döyüşdə ekipaj üzvləri tərəfindən yerinə yetiriləcək əksər üsul və fəndlər, təkcə taktiki hazırlıq məşğələlərində deyil, eləcə də, digər fənlərin tədrisi zamanı da öyrənilir. Məsələn, silahlarla atəşaparma qaydaları, hədəflərin müşahidəsi və məsafələrin təyin edilməsi – atəş hazırlığı məşğələlərində; texnikanın istismar edilməsi – texniki hazırlıq məşğələlərində; marşın keçirilməsi, döyüş düzülüşündə fəaliyyətlər və digər fəndlər – sürmə məşğələlərində; səngərin təchiz edilməsi və maskalanması, mühəndis maneələrinin dəf edilməsi, donmuş torpağın və möhkəm süxurların partladılması və digər suallar – mühəndis hazırlığı məşğələlərində; "Maşınların –Yanına" komandasını yerinə yetirmək, maşınlarda hərəkət və yerləşmə fəaliyyəti – sıra hazırlığı məşğələlərində; ərazidə xəritə və xəritəsiz oriyentirləşmənin təsbiti – hərbi topoqrafiya məşğələlərində; yaralanma, qanaxma, müxtəlif dərəcəli yanıqların ilkin müalicəsinin həyata keçirilməsi, zəhərlənmə, yaralı yoldaşın tankdan çıxarılması, təxliyyə edilməsi və sair – hərbi tibb hazırlığı məşğələlərində məşq edilir.

Tədris edilən fənlər üzrə keçirilən məşğələlərdə hərbi qulluqçular tərəfindən üsul və fəndlərin öyrənilməsi üçün onlar adətən taktiki şəraitdən asılı olmayaraq məşq etdirilir. Beləliklə, hər bir çavuş və əsgər üsul və fəndlərin yerinə yetirilməsini, hansı şəraitdə və necə tətbiq edilməsini bilib-bilməməsindən asılı olmayaraq təcrübə qazanır, göstərilənlərin taktiki hazırlıq məşğələlərində məharətlə tətbiq edilməsi bacarığına yiyələnir. Qısası, tank – qrup silahıdır. Onun ekipajı ancaq birgə qüvvə tətbiq etməklə, mənəvi-fiziki keyfiyyətlərdən tam istifadə edərək gərgin döyüş aparmaqla, sarsılmazlığını büruzə verməməklə, kişilik, cəsarət, təşəbbüs, hərbi hiylə və qalibiyyət iradəsi göstərməklə müvəffəqiyyətə nail ola bilər.

Aşağıdakı hər üç ekipaj üzvü qarşılıqlı birgə fəaliyyət göstərərək sadalanan bacarıqları nümayiş etdirməlidir:

1. Tank komandiri – döyüşdə ekipajı məharətlə idarə etmək, ona dəqiq tapşırıqlar qoymaq, döyüşdə ərazidən bacarıqla istifadə etmək, müşahidə aparmaq, top və pulemyot atəşləri ilə məhv etmək üçün nisbətən mühüm hədəfləri təyin etmək, radio danışıqlar aparmaq;

2. Top tuşlayıcısı – aşkar edilmiş hədəfləri birinci atəşlə məhv etmək, atışın aparılmasını tankın hərəkətinə uyğunlaşdırmaq, tanıma əlamətlərinə görə hədəfləri qısa zamanda axtarıb tapmaq və atış üçün ilkin məlumatları təyin etmək;

3. Sürücü-mexanik – texnikanın nisbətən yüksək texniki imkanlarından istifadə əmsallarına uyğun olaraq maşını, maneələri, əngəlləri və dağıntıları dəf-etmə qaydalarına uyğunlaşdıraraq hərəkət etdirmək, döyüş düzülüşündə kənara çıxmalara yol verməmək və atışın aparılması üçün əlverişli şərait yaratmaq, tank əleyhinə vasitələrin düzünə tuşlama atəşindən tankı qorumaq üçün ərazi xüsusiyyətlərindən istifadə etmək.

Ekipajın tərkibinin daxili vəzifədə bir-birini əvəzləməsi xüsusi əhəmiyyətlidir. Məsələn, tank komandiri sürücü-mexaniki və top tuşlayıcısını, top tuşlayıcısı isə tank komandirini əvəzləməyi bacarmalıdır və ehtiyac olduqda tankı yaxınlıqda yerləşən daldalanacağa aparmalıdır. Belə məşqlər keçirməklə heyət üzvləri püxtələşməlidir.

Müasir döyüşdə düşmən adi silahlardan başqa şəxsi heyəti məhvetmə qabiliyyətində olan, tənəffüs orqanlarına, dəriyə və gözə təsir göstərən kimyəvi silahların tətbiqinə yol verə bilər. Üstəlik, indi yandırıcı məhlullardan geniş istifadə etmək imkanları mövcuddur. Bütün bunlar hərbi qulluqçulara güclü mənəvi-psixoloji təsir göstərir. Göründüyü kimi, özünü buna hazırlamaq, mənəvi-psixoloji gərginliyi dəf etmək və düşmənin kütləvi qırğın silahlarından qorunma bacarığını artırmaq hər bir hərbi qulluqçunun vəzifəsidir.

Müasir döyüşdə komandirlərin, çavuş və əsgərlərin cəsarət və məharət göstərməsi çox vacibdir. Əksər hallarda döyüş tapşırığının yerinə yetirilməsi ərəfəsində elə şərait yarana bilər ki, həmin vəziyyətdə göstərilən fəaliyyət üsulu əhəmiyyətsiz ola bilər. Yaranmış təhlükə, qarşıya çıxması ehtimal edilməyən maneələr, döyüş yoldaşının sıradan çıxması, qəflətən peyda olan hədəf heyət üzvlərindən təşəbbüs və sərbəst fəaliyyət göstərməyi tələb edir. Ancaq təşəbbüs ağıllı olmalı, tapşırıqların düzgün başa düşülməsinə əsaslanmalı və onun nisbətən yüksək səviyyədə yerinə yetirilməsinə yönəldilməlidir. Hər hansı bir hazırlıqsız fəaliyyətlə öz üzərinə cavabdehlik götürüb döyüşdə düşmən üzərində qələbə qazanmaq mümkün deyil.

Bir anlıq Böyük Vətən müharibəsinin nəticələrinə nəzər yetirək. 1943-cü ilin 7 iyulunda kiçik leytenant A.Berejnoyun ekipajı kəşfiyyat tapşırığını yerinə yetirdikdən sonra öz yoldaşlarının yanına qayıdırdı. Açıq əraziyə çıxan zaman tank komandiri Berejnoy düşmənin dörd ədəd ağır tankının yol ilə hərəkətini aşkar edir. O, düşmənlə qarşılaşmadan yayına və marşrutu dəyişməklə öz hərbi hissəsinin yerləşdiyi yerə gedə bilərdi, ancaq kiçik leytenant bunu etmədi. Tank komandiri pusqu quraraq düşmən tanklarını məhv etməyi qərarlaşdırdı. Ağıllı təşəbbüs, "hərbi hiyləgərlik", eləcə də, ekipajın döyüş ustalığı nəticəsində düşmənin dörd ədəd tankı məhv edildi, kəşfiyyat məlumatları isə vaxtında tabor komandirinə məruzə edildi.

Hər bir ekipaj düşmənin mütəşəkkil fəaliyyətini pozaraq, onun döyüş qabiliyyətini zəiflədən və az qüvvə ilə ona ciddi tələfat verməyə imkan verən qəfillik hərəkəti göstərməyə çalışmalıdır. **Qəfilliyə gizli, cəld və sərt hərəkətlər göstərməklə nail olunur.** Bu, əksər hallarda ekipajın təşəbbüskarlığından, müntəzəm və həlledici hərəkətindən asılıdır. Tabeliyində olanların bacarıqla idarə edilməsi, düşmənin vaxtında aşkar olunması və məhvi, tankın atəş gücü və keçid imkanlarından istifadə edilməsi, tankın zirehlərlə qorunması, qonşu tankla və digər bölmələrlə qarşılıqlı əlaqənin bacarıqla tətbiqi – müasir döyüşdə müvəffəqiyyətin rəhnidir.

Düşmənin vaxtında aşkar edilməsi döyüş sahəsinin fasiləsiz müşahidəsi ilə ərsəyə gəlir və hədəfgöstərmə siqnalları ilə qoşunlara bildirilir. Tankın müşahidə cihazlarının imkanları nəzərə alınmaqla heyət üzvləri üçün müşahidə sektorları təyin edilir. Belə ki, 3 nəfərlik ekipajdan: nişançı operatordan- qüllənin fırladılmaması şərti ilə öz müşahidə qurğusundan qabağı, sürücü-mexanikdən – ancaq qabağı, tank komandirindən isə dairəvi müşahidə tələb edilir.

Müşahidə ancaq o vaxt nəticə verir ki, tankın ekipaj üzvləri bütün aşkar edilənlər barəsində dərhal tank komandirinə məruzə etsin. Bu, qərarın vaxtında qəbul edilməsi üçün zəruridir. Öz-özlüyündə belə təsəvvür edək ki, kəşfiyyat dozoru tərkibində fəaliyyət göstərən tank əks-həmlə keçirməyə hazırlaşan düşməni vaxtında aşkar etmədi. Belə bir vəziyyətdə düşmənin fəaliyyəti bizim qoşunlar üçün gözlənilməz ola bilər və tabor komandiri artilleriya üçün hədəfləri göstərə və aviasiyanı çağıra bilməz. Bütün bunlar qoşunlarımızın hücum tempinin aşağı düşməsinə və yaxud pozulmasına gətirib çıxara bilər. Tankın ekipajı döyüş tapşırığını raket, aviasiya zərbələri və artilleriya atəşinin təsirindən, eləcə də, qonşu tankların irəliləməsindən istifadə edərək həyata keçirməlidir. Heyət üzvləri topdan, pulemyotdan atəş açaraq irəliyə doğru sürətlə hərəkət etməklə, lazım gələn anda traldan istifadə etməklə tapşırığı davam etdirməlidir. Hücum çox sürətli olmalıdır.

Tank topundan atəşin məqsədi tank və digər zirehli maşınlara, düşmənin atəş vasitələrinə və canlı qüvvəsinə tələfat vermək, onun müdafiə qurğularını dağıtmaqdır. Düşmən piyadalarının, atəş vasitələri hesablarının və avtomobil texnikasının məhv edilməsi üçün pulemyotdan atəş tətbiq edilir. Zenit pulemyotundan isə alçaqdan uçan hava hədəflərinə, yerə enməkdə olan hava desantına, lazım gəldikdə isə yerüstü hədəflərə atəş açılır. Bundan başqa canlı qüvvə, atəş vasitələri və sadə müdafiə qurğuları tankın tralları ilə məhv edilir. Ön zirehini qoruma üsullarını, ərazi şərtləri və uyğun hərəkət sürətini bacarıqla tətbiq etməni diqqətə almaq ekipajın düşmənin atəş vasitələri və canlı qüvvəsinin məhv etməsi imkanlarını nəzərə çarpacaq dərəcədə artırır.

Tankların bir-biri və digər bölmələrlə qarşılıqlı əlaqəsi onların atəş dəstəyini və atəş üstünlüyünü təmin edir. Bunun üçün tankın ekipajı qonşu (əlavə verilmiş) bölmələrin tapşırıqlarını, ümumi oriyentirləri və hədəfgöstərmə qaydalarını bilməli, onlarla əlaqədə olmalıdır. Döyüşdə fasiləsiz və sıx qarşılıqlı əlaqənin vacibliyi ilə birgə hər bir döyüşçü təşəbbüskar və bacarıqlı olmalı, öz döyüş texnikasını və silahlarını müvəffəqiyyət əldə edilməsi yolunda səmərəli istifadə etməlidir.

Məsələn, Belqrad (keçmiş Yuqoslaviya) yaxınlığında gedən döyüşdə həmlə zamanı düşmənin tank əleyhinə idarəedilən raket batareyası atəşini bizim tank bölüyünə cəmləşdirdi. Tank komandiri kiçik leytenant V.H.Epişkin ərazini qiymətləndirdi və vəziyyətdən istifadə edərək sürücü-mexanikə əmr etdi

ki, tankı 150 metr arxaya aparsın. Bundan sonra onlar dərənin içi ilə hərəkət edərək batareyanın atəş mövqeyini sağdan keçib, sürətlə hərəkət edərək birbaşa atəş aparmaqla atəş və trallarla batareyanı susdurdular. Belə bir vəziyyətdə ekipaj nəinki igidlik göstərdi, hətta əyani surətdə göstərdi ki, cəbhədən atəş açan tanklarla qarşılıqlı əlaqə ilə döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etmək olar.

**Tank və bölmələr arasında birgə fəaliyyətin əhəmiyyətini atəş və hərəkətin ahəngdarlığı artırır.** Mahiyyət ondan ibarətdir ki, öz sonrakı atəşini daha effektli etmək məqsədilə ayrı-ayrı tanklar cəld irəli hərəkət etmək üçün digər tankların atəşindən yararlanır. Belə manevr yaranmış şəraitdən əlverişli istifadə etmək və yaxud yaranmış təhlükəyə qarşı əks-təsir tədbiri görmək üçün tətbiq edilir. Tankların müxtəlif daldalanacaqlardan və yer örtüyündən bacarıqla istifadə edərək döyüş sahəsində mütəşəkkil, cəld və gizli hərəkət etməsi, özünün, dəstəkçi və himayə edən bölmələrin atəşləri ilə tamamlanır. Manevr, düşmənə nisbətdə əlverişli vəziyyət tutmaq və onu şiddətli atəşlərlə məhv etmək imkanı əldə etmək və yaxud onun arxasına və cinahına çıxmaq məqsədilə keçirilir.

**Şəraitdən və düşməndə açıq cinahın (cinahların) mövcud olmasından asılı olaraq hücumda, qarşı-qarşıya döyüşdə və müdafiədə əks-həmlənin keçirilməsi zamanı tətbiq edilən iki cür manevr göstərə bilərik: dövrələmə və yaxud yandan ötüb-keçmə.**

**Dövrələmə** (sxem1) düşmənə arxadan və cinahdan zərbə endirmək məqsədilə tətbiq edilir. Yandan zərbə endirən tank və yaxud bölmə, hücum edən və yaxud düşmənin fəaliyyətlərini cəbhədən buxovlayan bölmənin (tankın) birbaşa atəşləri ilə təmasda fəaliyyət göstərir. Bu o deməkdir ki, onlar bir-birilərinə atəş dəstəyi ilə kömək göstərə bilərlər.




***SXEM 1.* DÖVRƏLƏMƏ**

**Yandan ötüb-keçmə** (sxem 2) düşmənin cinahında və yaxud arxasının uzaq dərinliyində keçirilən manevr hesab edilir və adətən gücləndirilmiş tərkibli bölmələrlə yerinə yetirilir. Dövrələmədən fərqli olaraq yandan ötüb-keçmə cəbhədə fəaliyyət göstərən və dövrələməni yerinə yetirən bölmələrin atəş əlaqələri ilə təmasda olmadan yerinə yetirilir. Onların qarşılıqlı fəaliyyət taktikası mütləq gözlənilməlidir. Başqa sözlə, cəbhədən hücum edən bölmələr öz fəal hərəkətləri ilə düşmənin əl-qolunu bağlamalı, yandan ötüb-keçən və düşmən qüvvələrinin arxasına çıxmanı yerinə yetirən bölməyə (bölmələrə) qarşı düşmənin hər hansı bir fəaliyyətini pozmalı, onların əlverişli vəziyyəti bildirən siqnalından sonra qətiyyətlə düşmənə həmlə etməlidirlər.




*SXEM 2.* **YANDAN ÖTÜB-KEÇMƏ**

**Hərəkətlə manevrdən (döyüş düzülüşündən) əlavə, atəşlə manevretmə, onun qısa zamanda bir hədəfdə cəmləşdirilməsi və tanklar (bölmələr) arasında bərabər bölüşdürülməsi, bir hədəfdən digər hədəfə keçirilməsi, hədəflərin susdurulması və məhv edilməsi tətbiq edilir.** Döyüşdə manevr hərəkətlərinin atəşlə təsiretmə ilə bacarıqla birləşdirilməsi, hətta düşmənin qüvvə və vasitələr sayının üstün olmasından asılı olmayaraq döyüş tapşırığını lazımınca yerinə yetirməyə imkan verir.

Döyüş üçün bölmələr döyüş düzülüşü alır. Şəraitə uyğun olaraq burada hər bir tankın yerini taqım komandiri təyin edir. Döyüş düzülüşü qarşıda duran döyüşün niyyətinə hesablanmalı və döyüşün əvvəlindən sonuna qədər bütün tanklardan atəşin eyni zamanda aparılmasını, daxili qarşılıqlı əlaqənin saxlanılmasını, digər qoşun növləri və qonşularla belə əlaqənin formalaşdırılmasını, döyüşün gedişində idarəetmə və bölmələrin (tankın) manevrinin əlverişli olmasını və ərazidən daha yaxşı istifadə edilməsini təmin etməlidir.

Ərazidən asılı olaraq tanklar arasındakı məsafə taqım komandiri tərəfindən

100 metrə qədər təsbit edilir. Tərkibində 3 tank olan taqımın döyüş düzülüşündə taqım komandirinin tankı, adətən mərkəzdə, ikinci tank – sağda, üçüncü tank – solda olur. Belə düzülüş idarəetmənin əlverişli olmasını və tank ekipajlarının taqım komandirinin fəaliyyətlərini müşahidə etməsini təmin edir.

Hər bir komandir döyüşdə öz bölməsini inamla və bacarıqla idarə etməyə borcludur. Tank komandiri ekipajın fəaliyyətlərini (tankdan atış və hərəkət) tankda olan danışma qurğusu və komandir idarəetmə sisteminin köməyi ilə, birbaşa təmasda, səslə və şərti siqnallarla (işarələrlə) idarə etməlidir. Sonuncu idarəetmə növü adətən ekipajın uzlaşmasının gedişində işlənilir.

Tankda olan rabitə vasitələri daima saz vəziyyətdə olmalı, tank komandiri və digər komandirlərlə, eləcə də, həmin tezlikdə işləyən digər bölmələrin rabitə qurğuları ilə rabitənin fasiləsiz saxlanılması təmin edilməlidir. Ani olsa belə rabitənin kəsilməsi yolverilməzdir.

Ekipaj tankdan kənarda yerləşdiyi zaman idarəetmə; görərək xəbərləşmə (bayraq, fişəng və s.), səs (sirena, tankın siqnalı, gilizə və yaxud traka zərbələr və s.), işıq siqnalları(müxtəlif işıq növləri ilə təchiz edilmiş cib fənərləri), hətta səslənərək komanda verməklə həyata keçirilir.

Hava düşməni, radioaktiv, kimyəvi və yaxud bioloji zəhərlənmə barəsində şəxsi heyətin xəbərdar edilməsi yuxarı komandanlıq tərəfindən təyin edilmiş və daima qüvvədə olan vahid siqnallarla həyata keçirilir. Bu siqnalları bütün şəxsi heyət bilməlidir. Tank komandiri bu siqnallara görə ekipajın fəaliyyət qaydasını təyin etməli və ona uyğun komandalar verməlidir. Məsələn, hava düşməni barəsində siqnal verildikdə tank komandiri «MAŞINA», «YERLƏRİNİZƏ» komandaları verə bilər və ekipaj cəld hərəkətlərlə həmin komandanı yerinə yetirməlidir. Kimyəvi zəhərlənmə barəsində siqnal verildikdə hamı qoruyucu maskaları geyinir, lyuku və jalyuzi bağlayır (tankda kollektiv qoruma sistemi işə salınır).

Rabitə qurğusu ilə danışarkən məxfiliyə ciddi riayət edilməlidir. Tank komandiri ancaq qəbul rejimində işləyir və komandirin çağırışlarına cavab verir. Ötürmə rejimində işləməyə ancaq istisna hallarda icazə verilir. Məsələn, bölmələrin fəaliyyətinə təhlükə yaradan mühüm hədəflər aşkar edilməsi ilə bərabər hədəf göstərməni yerinə yetirmək üçün digər imkanlar olmadıqda; tank dozor tankı vəzifəsində fəaliyyət göstərərkən düşmənlə qəflətən qarşılaşdıqda. Taqımda bütün komandalar radio ilə açıq mətnlə ötürülür. Komandaların verilməsi vaxtı tanklar şərti adlarla çağırılır, ərazidə yerləşən məntəqələrin adları oriyentirlərə uyğun olaraq şərti adlarla göstərilir. Məsələn, «Durna”, mən – “Kəpəzəm”, oriyentir üç, səngərdə tank, məhv edin». Cavab: «Mən-“Durna”yam başa düşdüm”. Mərkəzləşdirilmiş komandaları verdikdə (bütün tanklar üçün) mərkəzi “çağırış” adı təyin edilir, belə komandaların ötürülməsi zamanı onun məzmunu iki dəfə təkrar edilir, məsələn: «Qalxan”, mən-

"Kəpəzəm", atəşi Bozdağ yüksəkliyinə cəmləşdirin, atəşi Bozdağ yüksəkliyinə cəmləşdirin".

Mərkəzləşdirilmiş komandaya cavab verilmir.

Rabitənin dayanıqlı, qarşılıqlı əlaqənin daima və fasiləsiz saxlanılması ilkin olaraq bu rabitəni təmin edən tank komandirindən asılıdır.

***(Bu məqalə Əməliyyat Baş İdarəsinin zabitləri tərəfindən internet materialları əsasında işlənib hazırlanmışdır).***

---

## XARİCİ ORDULARDA

### YENİ PARAŞÜT

**Xarici mətbuat məlumatlarına əsaslanaraq demək olar ki, Rusiyada hava-desant qoşunları üçün "Listik" adlı yeni paraşüt yaradılmışdır. "Listik"in sınaqları çoxdan aparılırdı. Paraşütü istehsal edən elmi-tədqiqatlar institutunun baş direktor müavini Nazarenkonun sözlərinə görə keçən il sınaqlar müqəvvalarla aparılmışdısa, bu il əsl paraşütçülər tərəfindən yoxlamadan keçirilir. "Listik" paraşütçüyə tullanma zamanı havada fırlanmağa, küləyə qarşı düşməyə, küləkli havada təhlükəsiz enməyə kömək edir.**

**Paraşüt dəstinə əsas və ehtiyat paraşüt, ərzaq və sursatlar qablaşdırılmış sinəyə asılan konteyner daxildir. Nazarenkonun sözlərinə görə "Listik" hazırda silahlanmada olan D-10 markalı paraşütdən qat-qat yüngüldür. Onu da demək yerinə düşər ki, D-10 140 kq yükə, yeni paraşüt isə 165 kq yükə hesablanmışdır. Hal-hazırda Rusiya SQ-də D-6, D-10 markalı paraşütlərdən istifadə edilməkdədir. Ordu rəhbərliyi isə paraşütləri xaricdən almaq niyyətindədir.**

**ETİ baş direktorunun müavini Nazarenko ölkədə istehsal edilən paraşütlərin Rusiya istehsalı təyyarələrə uyğun olduğu halda xaricdən alınacaq paraşütlərin belə uyğunluğu olmadığını qeyd edir. Əldə edilən məlumatlara görə D-6 paraşütünün qübbəsi 83 m², D-10 paraşütünün isə 100 m² təşkil edir. "Yeni paraşüt"ün TTX-si haqqında heç bir əlavə məlumat verilmir.**

# ODSAÇANLAR HƏMLƏ EDİR

**Polkovnik Nizami ƏLİYEV**

**HƏRBİ TƏHSİL VƏ TƏDRİS İDARƏSİ**

***Taktiki-sıra məşğələləri (TSM) taktiki-xüsusi hazırlıq üzrə tədrisin ən effektiv formasıdır. Bu məşğələlər taktiki-xüsusi məşqlər və təlimlərdən öncə keçirilir, təlimlər hazırlıq məqsədi güdür. Bu məşğələlərdə bölmələr taktiki fəndlərin yerinə yetirilməsini və müxtəlif döyüş növlərində fəaliyyət üsullarını ardıcıl olaraq məşq edirlər. Komandirlər isə tapşırığın qoyulması və komandaların verilməsi üzrə təcrübə qazanır, bölmələrin idarə edilməsində öz bacarıq və vərdişlərini təkmilləşdirirlər.***

Odsaçan bölməsinin taktiki fəndləri və fəaliyyət üsullarını daha dolğun şəkildə izləyə biləcəyimiz "Reaktiv odsaçan bölməsi hücumda" məqaləsində taktiki-sıra məşğələsinin bir nümunəsi ilə rastlaşırıq. Bununla yuxarıda sadalananları diqqətinizə çatdırmaq fikrindəyik.

**"Reaktiv odsaçan bölməsi hücumda" – taktiki-sıra məşğələsi**

**Dərsin məqsədi:**

1. Hücumda taqım və manqa komandirlərinin idarəetmə vərdişlərini təkmilləşdirmək.
2. Gündüz vaxtı müdafiə olunan düşmən üzərinə hücum zamanı bölmələrin uzlaşmış fəaliyyətlərinə nail olmaq.
3. Hücum döyüşündə şəxsi heyətdə yüksək mənəvi və psixoloji keyfiyyətləri formalaşdırmaq.

**Anlayışlar, suallar:**

1. Döyüş düzülüşünə açılma, həmlə xəttinə hərəkət və düşmənin ön xətt dayaq məntəqəsinə həmlə.
2. Motoatıcı bölmələr düşmən müdafiəsinin dərinliyində hücumu davam etdirdikdə, ələ keçirilmiş həddə möhkəmləndikdə və düşmənin əks-həmləsini dəf etdikdə odsaçanların fəaliyyəti.

Sonrakı tapşırıqların icrasına hazırlıq vaxtı-4 saat

## MƏŞĞƏLƏNİN KEÇİRİLMƏ METODU

Bu məşğələnin münasib avadanlığı olan taktiki-xüsusi tədris sahəsində keçirilməsi daha məqsədəuyğundur. Təyin olunmuş vaxtda, məşğələnin başlanmasından öncə, bölük komandiri dərsə cəlb olunan şəxsi heyəti, silahları və texnikanın hazırlığını yoxlayır. Aşkar olunmuş nöqsanlar aradan qaldırıldıqdan sonra bölmə təlim sahəsinə hərəkət edir. Hərəkət yaradılmış taktiki şəraitdə yerinə yetirilir. Misal üçün, "Reaktiv odsaçan bölməsi filan saatdan fi-



RPO – REAKTİV PİYADA ODSAÇANIN ÜMUMİ GÖRÜNÜŞÜ

lan vaxtadək hücum edən bölmələrin gücləndirilməsi üçün 2-ci motoatıcı briqada komandirinin sərəncamına keçir.

Bölmə Ceyrankeçməz marşrutu üzrə marş keçirərək saat 11-də cəmləşmə rayonunda cəmləşsin.

İlkin çıxış məntəqəsi saat 9-da keçilsin. Kolonun düzülüş qaydası; 2-ci taqım – 1-ci taqım – 3-cü taqım, hərəkət sürəti 25 km/saat və maşınlararası məsafə 20 m, hərəkətə başlamağa hazırolma vaxtı – 08.50. Mənim yerim 1-ci taqım".

Bundan sonra bölük komandiri qarşılıqlı əlaqəni təşkil edir, idarəetmə və xəbərdaretmə siqnallarını müəyyən edir, bölmənin fəaliyyətinin təmin edilməsi üzrə göstəriş verir. Öz müavininə kolonu düzmək əmri verir, kolon düzüldükdən sonra "Maşınların – YANINA", "HƏR KƏS ÖZ YERİNƏ" komandası səslənir, şəxsi heyətin maşınlara cəld və düzgün minmələri, maşınlarda öz yerlərini mütəşəkkil tutmaları məşq etdirilir. Taqım və manqa komandirləri bölmə komandirinin əmrini təkrarlayır və tabeliklərində olanların fəaliyyətlərinə rəhbərlik edirlər.

Şəxsi heyətin maşınlara cəld və düzgün minmələrinə nail olunduqdan sonra, bölmə komandiri "Mühərriki – İŞƏ SAL" və "Hərəkətə – BAŞLA" komandasını (siqnalını) verir və məşğələnin başlanması üçün bölməni ilkin rayona çıxarır.

Bölmə rayona çıxarkən şəxsi heyətin idarəetmə və xəbərdaretmə siqnalları üzrə məşq etdirilməsi məqsədəuyğundur.

Bölmə ilkin rayona çatdıqdan sonra bölmə komandiri taqımların yerləşmə yerini, müşahidə və mühafizənin təşkilini müəyyən edir, təyin olunmuş yer-

lərdə maşınların və şəxsi heyətin yerləşdirilməsinə əmr verir. Ərazinin mühafizə və maskalanma xüsusiyyətləri nəzərə alınaraq, taqım komandirləri və şəxsi heyətə maşınların düzgün yerləşdirilməsi və maskalanması öyrədilir.

**Döyüş düzülüşünə açılma, həmləyəkeçmə həddinə hərəkət, düşmənin ön xətt dayaq məntəqəsinə həmlə**

İlkin rayonda bölmə komandiri bölməni düzür, mövzunu, dərsin məqsədlərini, birinci sualı və onun elementlər üzrə izah ardıcıllığını elan edir. Ardıcıllıq bu cür müəyyənləşdirilməlidir: döyüş düzülüşünə açılma; həmləyəkeçmə həddinə hərəkət; düşmən müdafiəsinin ön xəttinə həmlə. Bundan sonra bölmə komandiri məşğələ iştirakçılarını taktiki şəraitlə tanış edir. O, iki taqımı motoatıcı taqım rolunda fəaliyyət üçün təyin edə bilər. Məşğələ zamanı taqımlar növbə ilə dəyişdirilir. Bölmə komandiri motoatıcı tabor komandiri rolunda döyüş tapşırığı verərək təlim çalışmasını məşq edir.

"Oriyentirlər: birinci – tək ağac – 500 m; ikinci – təpəcik – 900 m; üçüncü (əsas) – ferma; dördüncü – yaşıl təpə – 3400 m. 2-ci motoatıçı tabor (RPO – reaktiv piyada odsaçanlar taqımı, dəstəyinə verilmiş hücum cəbhəsi önündə, düşmənin motoatıcı bölüyə qədər qüvvəsi, yüksəklik – 207,4, yumru təpə, yol əyrisi – dayaq məntəqəsində müdafiə olunur, onun atəş vasitələri aşkar olunmuşdur – yüksəklik – 207,4-də TƏQ-9, yumru təpədə – tank səngərdə, yaşıl talalı təpəcikdə – iriçaplı pulemyot.

2-ci motoatıcı tabor briqadanın 1-ci eşelonunda hücum gerçəkləşdirir, hərəkətdən düşmənin 11-ci motoatıcı briqadasının 4-cü taborunun 2-ci bölüyünün (göstərir) üzərinə hücuma keçərək, "sıx meşə-cənuba 500 m, yumru təpə" həddini ələ keçirir, daha sonra "yol əyrisi, yüksəklik 207,4" həddini ələ keçirərək hücumu "yüksəklik 207,4, ferma" istiqamətində davam etdirir.

Tabor əsas səyləri "yumru təpə, ferma" istiqamətində cəmləşdirir. 2 bölük (RPO taqımı ilə birgə fəaliyyət göstərən) düşmənin yumru təpədə aşkar olunmuş tankını, yüksəklik 207,4-də aşkar edilmiş SPQ-9-nu və canlı qüvvəsini məhv etməlidir.

Reaktiv piyada odsaçanlar taqımının tapşırığı: "Motoatıcı bölük döyüş düzülüşündə fəaliyyət göstərir, düşmənin üzərinə hərəkətdən həmləyə keçərək, motoatıcı bölmələrin irəliləməsinə maneəçilik törədən düşmənin canlı qüvvəsini və atəş vasitələrini odsaçanların və atıcı silahların atəşilə məhv etməli.

Hücuma keçməyə hazırolma vaxtı 07.50, həmləyəkeçmə – təyin olunmuş siqnal üzrə. Mənim yerim 1-ci taqım, əlaqənin saxlanması qaydası – rabitə vasitəsilə. Döyüş əmrini verdikdən sonra bölük komandiri qarşılıqlı əlaqəni təşkil edir, idarəetmə və xəbərdaretmə siqnallarını müəyyənləşdirir, döyüş fəaliyyətlərinin təmin olunması üzrə göstərişlər verir. Taqım komandirlərinə tapşırıqları şəxsi heyətə çatdırmağı əmr edir.

Tabor komandirindən tapşırıq alan taqım komandirləri taqımlarda bununla bağlı məşqlər keçirməlidir (bayraqlarla siqnalvermə və siqnallar üzrə fəaliy-

yətgöstərmə, odsaçma hədlərinin tutulması və RPO-nun döyüşə hazırlanması normativlərinin icrası).

Taktiki-sıra məşğələsində ikinci və üçüncü sualların işlənməsi zamanı, bölük komandiri üçün bütün bölmələrin fəaliyyətlərini nəzarətdə saxlamaq və müşahidə etmək çətin ola bilər, bu səbəbdən belə məşğələlərə başqa bölmələrin və ya tabor qərargahı zabitlərinin kömək məqsədilə cəlb edilməsi məqsədəuyğundur.

Taqım komandirləri tapşırığı manqa komandirlərinə, onlarsa şəxsi heyətə çatdırırlar.

Bölmənin şəxsi heyəti tapşırığı alıb özü üçün aydınlaşdırdıqdan sonra bölmə komandiri həmlə həddinə hərəkətə başlamaq siqnalı verir. O, bölmələri ardıcıl olaraq taqım kolonları və manqalar xəttinə necə çatmağı və döyüş xəttində necə açılmağı məşq etdirir. Öncə "piyadanın maşında yerləşməsinə uyğun" qurama təlim, daha sonra isə maşınlar xəttinə yaxınlaşma, maşınlara minmə və yerləşmə məşqləri keçirilir. Bu zaman nəzarətçi zabit, bölük komandirinin komandalarının taqım komandirləri tərəfindən səlis təkrarlanmasına və tabelikdəkilərin fəaliyyətlərini nizamlaya bilib-bilməmələrinə, şəxsi heyətin çevik və dəqiq olaraq açılma xətlərinə açılmalarına, maşından enmələrinə və döyüş düzülüşünə açılmalarına nəzarət edir.

Həmlə həddinə çıxıqda bölmə komandiri həmləyə keçmək siqnalını verir, həmçinin taqımları mina-partlayış sahələrini işarələnmiş keçidlərlə və sıçrayışla dəf etməyi, bundan sonra müdafiənin ön xəttinə həmləni məşq etdirir. Bölmə komandiri əsgərlərin eyni anda müdafiənin ön xəttinə çıxmamalarına nail olmalıdır. Əsgərlər döyüş sahəsini müşayiət edir, hədəf aşkarlandıqda məruzə edirlər, atıcı silahlardan atəş açırlar, odsaçma məsafəsinə çatdıqda - RPO-dan atəş açırlar, bu zaman motoatıcılarla sıx əlaqədə olurlar.

Taqım və manqa komandirləri odsaçanlara düşmənə necə yaxınlaşmağı, atəş mövqelərini düzgün seçməyi, odsaçmaya hazırlanmağı, örtülü və açıq hədəflərə odsaçanla atəş açmağı və cütlük şəklində fəaliyyət göstərməyi məşq keçirlər.

Bölmə komandiri taqım komandirləri və odsaçanların fəaliyyətlərinə nəzarət edir, əks-istiqamətdə təkrar məşq keçməklə bölmənin dəqiq və əlaqəli hərəkət etməsinə nail olur, təlimin gedişini təhlil edir.

Düşmənin ön xətdə dayaq məntəqəsini ələ keçirdikdən sonra, bölmə komandiri şərti siqnalla yamsılama qrupunu düşmənin müdafiəsinin dərinliyinə, əks-həmlə həddinə göndərir.

**Düşmən müdafiəsinin dərinliyində motoatıcı bölmələrin hücumu davam etdirmələri, ələ keçirilmiş həddə möhkəmlənmə və düşmənin əks-həmləsinin dəf edilməsi zamanı odsaçanların fəaliyyəti**

Mövzuya aid sualları elan etdikdən sonra, bölmə komandiri öyrədilənlərə izah edir ki, odsaçanlar dərinlikdə düşməni dayaq məntəqələrində məhv etdikdə və onun əks-həmləsini dəf etdikdə motoatıcılarla birgə fəaliyyət göstərirlər. Bu zaman odsaçanların fəaliyyətləri ön xətdəki dayaq məntəqələrindəki fəaliyyətlə eynidir. Düşmənin əks-həmləsini dəf edərkən odsaçan bölməsi motoatıcı bölmənin düzülüşünə daxil olur və onların komandirinin əmrilə əks-həmlənin dəf edilməsində iştirak edir.

Əgər odsaçan bölmə bizim qoşunların ələ keçirdikləri səngərlərdə, sığınacaqlarda və əlaqə yollarında qalan düşmənin məhv edilməsində istifadə edilirsə, o zaman odsaçanlar motoatıcılarla birgə fəaliyyət göstərir və onlar səngər və əlaqə yolları ilə irəliləyərək, müxtəlif sığınacaq və qurğularda qalan düşməni odsaçanlarla məhv edirlər.

Daha sonra bölmə komandiri təlim sualının elementlər üzrə işlənilmə ardıcıllığını müəyyənləşdirir. Həmin anlayışlara aid etmək olar: səngərlər və əlaqə yollarında qalan düşmənin məhv edilməsində bölmənin fəaliyyəti; geri çəkilən düşmənin təqib edilməsi üçün manqaların yığılması və təqib zamanı fəaliyyətləri; əks-həmlənin dəf edilməsi üçün açılma; əks-həmlə edən düşmənin məhv edilməsı.

Birinci dərs elementinin məşqi üçün bölmə komandiri belə bir taktiki şərait yaradır:

“2-ci motoatıcı tabor ön xəttdə düşmənin dayaq məntəqələrini ələ keçirib, hücumu yaşıl təpə istiqamətində davam etdirir.

1-ci motoatıcı taqımın sol cinahında, dayaq məntəqəsində düşmən müqaviməti davam etdirir.

1-ci motoatıcı bölük odsaçan taqımı ilə motoatıcı tabor komandirindən səngər yolları və sığınacaqlarda qalan düşmənin məhv edilməsi tapşırığını alıb”.

Komandir tapşırıq verdikdən sonra hər hansı bir manqa üzərində motoatıcılarla birlikdə manqanın həmlə edilən obyektə irəliləməsi və orada qalan düşmənin məhv edilməsi qaydalarını göstərir, bu fəaliyyətlərin dəqiq yerinə yetirilməsini məşq etdirir.

İcra olunan hərəkətlərin düzgün və səlis yerinə yetirilməsinə əmin olduqdan sonra bölmə komandiri bölməni toplayır və şərti geri çəkilən düşmənin təqib edilməsi məqsədilə maşında yerlərini tutmanı və hərəkətləri öyrədir.

İkinci çalışma zamanı komandir bölmələrin döyüş düzülüşündən döyüşqabağı düzülüşə keçmələrinə, döyüşqabağı düzülüşə keçən zaman düzgün və çevik hərəkətlər etmələrinə diqqət yetirir. Taqım komandirlərinə bölməsinin döyüş düzülüşündən yığılmasını, manqaların maşınlarda yerləşdirilməsini, taqım kolonlar xəttinə yığıldıqda, düşməni maşınlarda təqib etdikdə dəqiq komandaların verilməsini öyrədir.

Odsaçanlar təyin olunmuş həddə çatdıqda, məşğələ rəhbəri yamsılama komandası ilə əks-həmlə həddinə çıxmağı və düşmənin atəş hədəflərini göstərməyi əmr edir. Eyni zamanda taqım komandirinə şəxsi heyətin itkiləri üzrə göstəriş verir. Daha sonra motoatıcı bölmə komandiri rolunda düşmənin əks-həmləsinin dəf edilməsi həddinə çıxmağa və həddin tutulmasına göstəriş verir. Taqım komandirlərinə bölmələrinin döyüşqabağı və daha sonra döyüş düzülüşünə açılma zamanı tabelikdəkiləri necə idarə etmək lazım gəldiyini öyrədir. Şəxsi heyətə maşından enmə, həmlə həddinə hərəkət, təyin olunmuş həddəki atəş mövqelərinin tutulması və atəş hazırlığı üzrə fəaliyyətləri məşq etdirir.

Təyin olunmuş siqnalla “zabit yamsılama qrupu”na düşmənin əks-həmləsinin başlanmasını bildirir, odsaçan taqımın əks-həmlə edən düşmənə atıcı silahlardan, ən vacib hədəflərə isə RPO-dan atəş açmağı məşq etdirir.

Əks-həmləni bütün atəş növləri ilə dəf etdikdən sonra motoatıcı bölmələrin tərkibindəki odsaçan taqımları mütəşəkkil surətdə həmləyə keçir və əks-həmlə edən düşməni məhv edirlər. Bununla da ikinci tədris sualının tədrisi yekunlaşır.

**SONRAKI TAPŞIRIQLARIN İCRASINA HAZIRLIQ**

Üçüncü tədris sualı bölmələrin aşağıdakı elementləri icra etməsilə kombinasiya edilir: bölmələrin döyüş sursatı və silahdoldurma məntəqəsinə hərəkəti; odsaçanların doldurulması və döyüş sursatının alınması; odsaçma mövqelərinə qayıtması.

Dərsin suallarını və elementlər üzrə onun işlənilməsi ardıcıllığını elan etdikdən sonra bölmə komandiri iştirakçılara izah edir ki, digər tapşırıqların yerinə yetirilməsinə hazırlıq zamanı bölmənin şəxsi heyəti motoatıcı bölmə komandirinin icazəsi ilə döyüş sursatı və silahdoldurma məntəqəsində sursatları alır və odsaçanları doldururlar. Bu fəaliyyət tək-tək və ya manqa tərkibində yerinə yetirilir.

Bundan sonra rəhbər döyüş sursatı və doldurma məntəqəsinin yerini göstərir, məntəqəyə hərəkətin qaydasını və ardıcıllığı müəyyənləşdirir, məntəqəyə gizlin hərəkəti, döyüş sursatının alınmasını və odsaçanların doldurulması işlərinin aparılmasını, daha sonra atəş mövqelərinə gizlin qayıtma yollarını məşq etdirir.

Bütün manqalar döyüş sursatı və doldurma məntəqəsində məşq etdikdən sonra bölmə komandiri bölməni düzərək məşğələnin təhlilini keçirir. Hərbi hissəyə qayıtma tapşırığını verir. Hərəkət marşrutu boyu şəxsi heyəti idarəetmə və xəbərdaretmə siqnalları üzrə məşq etdirir.

# HƏRBİ TOPOQRAFİYADA TƏTBİQ OLUNAN KOORDİNAT SİSTEMLƏRİ

**Polkovnik-leytenant Rişad QASIMOV**

**SİLAHLI QÜVVƏLƏRİN TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ**

Ərazi və ya xəritə üzərində hər hansı bir nöqtənin yerini təyin etmək üçün koordinat sistemlərindən istifadə olunur.

Bu sistemlərdə nöqtənin yerləşdiyi yeri göstərən bucaq, yaxud xətti kəmiyyətlər isə koordinatlar adlanır.

Əsas koordinat sistemləri aşağıdakılardır:

1. Coğrafi koordinat sistemi.
2. Düzbucaqlı koordinat sistemi.
3. Qütbi(Polyar) koordinat sistemi.
4. Bipolyar koordinat sistemi.

Koordinatlardan əsasən aşagıdakı işləri görmək üçün istifadə olunur:

a. Yer səthində hər hansı bir nöqtənin və yaxud bölgənin yerinin təyinində;
b. Xəritə üzərində nöqtənin yerinin təyinində;
c. Koordinatları məlum olan nöqtələrin xəritə üzərinə köçürülməsində;
d. Koordinatları məlum olan nöqtələr arasındakı məsafələrin və istiqamət bucaqlarının təyinində.

### COĞRAFİ KOORDİNAT SİSTEMİ

Coğrafi koordinat sistemlərinin elementləri coğrafi en və coğrafi uzunluq dairəsindən ibarətdir. London şəhəri yaxınlığındakı Qrinviç rəsədxanasından keçən meridian başlanğıc meridian və ya sıfır meridianı kimi qəbul edilmişdir (şəkil 1).




***ŞƏKİL 1.*** **COĞRAFİ KOORDİNATLAR**

Yer səthində verilmiş nöqtədən (P) keçən şaquli xətlə ekvator müstəvisi arasında qalan bucağa coğrafi en dairəsi ($\varphi$) deyilir.

Başlanğıc meridian müstəvisi ilə verilmiş nöqtədən (P) keçən meridian müstəvisi arasında qalan ikiüzlü bucaq coğrafi uzunluq dairəsi ($\lambda$) adlanır.

Yer səthində en və uzunluq dairələri astronomik müşahidələrə əsasən, xəritədə və qlobusda isə meridian və paralel qövslərinin uzunluğunu ölçməklə təyin olunur.

**EKVATOR**. Yerin oxuna perpendikulyar olan böyük dairənin çevrəsinə ekvator deyilir. Ekvator ən böyük paraleldir. O, yerin şimal və cənub yarımkürələrinə bölünür.

**PARALEL**. Ekvator müstəvisinə paralel olan kiçik dairələrin çevrəsinə paralel deyilir. Yaxud yer ellipsoidi qütb oxu ətrafında fırlanarkən onun səthində hər bir nöqtə bir çevrə cızır ki, buna da paralel deyilir. Meridian və paralellər yer səthində əsas koordinat xətləri adlanır.

Ekvatorla verilmiş nöqtədən keçən paralel arasında qalan meridian qövsünün uzunluğu coğrafi en dairəsini göstərir. Coğrafi en dairəsinin qiyməti ekvatordan başlayaraq qütblərə doğru 0-90$^0$ arasında dəyişir. Nöqtə şimal yarımkürəsində olduqda onun coğrafi en dairəsinin dərəcə qiymətindən sonra şimal en dairəsi, cənub yarımkürəsində olduqda isə cənub en dairəsi yazılır. Sıfır meridianı ilə verilmiş nöqtədən keçən meridian arasında qalan paralel (və ya ekvator) qövsünün uzunluğu coğrafi uzunluq dairəsi kimi xəritədə ölçülür. Onun qiyməti sıfır meridianından başlayaraq şərqə və qərbə doğru 0°-180° arasında dəyişilir. Nöqtə şərq yarımkürəsində olduqda onun coğrafi uzunluq dairəsinin yanında, şərq-qərb yarımkürəsində olduqda isə qərb uzunluq dairəsi yazılır.

### COĞRAFİ KOORDİNATLARIN TƏYİN EDİLMƏSİ

Məlum olduğu kimi topoqrafik xəritələrin vərəqlərinin şərq və qərb çərçivələri meridianlar, şimal və cənub çərçivələri isə paralellərdir. Çərçivələrin künclərinin koordinatları bütün vərəqlərdə yazılır. Məsələn, 2-ci şəkildə vərəqin şərq tərəfinin (meridianın) uzunluğu 31$^0$ 37'30", qərb tərəfinin uzunluğu 31$^0$ 30', şimal tərəfinin (paralelin) enliyi 50$^0$ 30', cənub tərəfin isə – 50$^0$25'-yə bərabərdir. Xəritə üzərində coğrafi koordinatları təyin etmək üçün bütün vərəqlərdə əlavə dəqiqə çərçivəsi mövcuddur. Bu çərçivələrdə meridian və paralellər dəqiqələrə bölünmüş, dəqiqələr isə nöqtələr vasitəsilə hər biri 10" olan 6 bərabər hissəyə bölünmüşdür (şəkil 2).

Coğrafi koordinatlara görə nöqtəni, məsələn, M nöqtəsini xəritəyə köçürmək üçün aşağıdakı qaydada hərəkət etmək lazımdır.

M nöqtəsinin koordinatları $\varphi$ = 50$^0$28'20", $\lambda$ = 31$^0$33'03" olarsa, sol və sağ çərçivələrdə 50$^0$25' enliyindən şimala doğru 03'20" enliyi tapılır və bu nöq-

tələrdən en dairəsi 50⁰28'20" olan paralel keçirilir. Sonra şimal və cənub çərçivələrdə 31⁰30' uzunluğundan 03'03"şərqə doğru uzunluq tapılır və bu nöqtələrdən uzunluq dairəsi 31⁰33'3" olan meridian keçirilir. Bu meridian və paralelin kəsişməsində M nöqtəsi alınır.

Coğrafi koordinatlardan, adətən məsafələr uzaq olduqda – hərbi dəniz donanmasında, hava hücumundan müdafiə, aviasiya və raket qoşunlarında istifadə edilir.




*ŞƏKİL 2.*

**DÜZBUCAQLI KOORDİNAT SİSTEMİ**

Qaussun proyeksiyasında yer səthi nöqtələrinin düzbucaqlı koordinatlarını təyin etmək üçün hər zonada müstəvi düzbucaqlı koordinatlar sistemi qurulur.

Koordinat başlanğıcının qərbə tərəf 500 km sürüşdürülməsinin səbəbi nədir?




Bu sistemdə zonanın ox meridianı, absis oxu – X, ekvator, ordinat oxu –Y, ekvatorla ox meridianının kəsişdiyi O nöqtəsi isə koordinat başlanğıcı qəbul edilmişdir. Nöqtələrin absisləri ekvatordan şimala müsbət, cənuba isə mənfi olur. Ərazi şimal yarımkürəsində yerləşdiyi üçün bütün nöqtələrin absisləri (X) müsbət qiymətə malikdir. Nöqtələrin ox meridianından qərbdə və şərqdə yerləşməsindən asılı olaraq ordinatlar (Y) həm mənfi, həm də müsbət ola bilər: şərqdəki nöqtələr müsbət, qərbdəki nöqtələr isə mənfi qiymətə malik olur. Bütün ordinatların müsbət olması üçün hər zonada koordinat başlanğıcının "O" ordinatlarını şərti olaraq + 500 km qəbul edirlər, yəni Y0 = + 500 km. Bu o deməkdir ki, koordinat başlanğıcı ekvator üzrə 500 km qərbə sürüşdürülərək, O nöqtəsində fərz olunur. Bu qayda ilə alınmış ordinatlara dəyişdirilmiş ordinatlar deyilir.



Məlumdur ki, ox meridianı ilə zonanın kənar meridianı arasındakı məsafə zonanın ən geniş yerində - ekvatorda 330 km-dən azca artıqdır (111,3 km · 3 = 333,9 km). Şərti koordinat başlanğıcı O ilə ox meridianı arasındakı məsafənin yuvarlaq olması xatirinə həmin məsafə 500 km götürülmüşdür. Beləliklə, hər bir zona daxilində bütün koordinatlar müsbət olacaqdır. Ox meridianından şərqdəki ordinatlar 500 km-dən çox, qərbdəkilər isə 500 km-dən az olacaqdır. Fərz edək ki, hər hansı iki nöqtənin koordinatlarına görə vəziyyəti müəyyən edilmişdir:

$$\mathbf{X_A = 6066,\ 250\ km \qquad Y_A = 611,\ 550\ km}$$
$$\mathbf{X_B = 6066,\ 250\ km \qquad Y_B = 352,\ 425\ km}$$

Bu o deməkdir ki, ekvatordan hər iki nöqtəyə kimi olan məsafə, yəni, X = 6066, 250 km-dir. A nöqtəsinin ox meridianından 611, 550 - 500,00 = + 111, 550 km şərqdə, B nöqtəsi isə 352, 425-500,00 = -147, 575 km qərbdə yerləşmişdir. Lakin koordinatları həmin ədədlərə bərabər olan nöqtələr hər bir zonada ola bilər. Bunların yerlərini dəqiqləşdirmək üçün ordinatların qarşısında zonanın nömrəsi yazılır. Fərz edək ki, bizim nöqtələr 4-cü zonadadır. Onda A və B nöqtələrinin ordinatları tam şəkildə belə yazılır:

$$\mathbf{Y_A = 4611,\ 550\ km \qquad Y_B = 4352,\ 425\ km}$$

Absislər isə dəyişdirilməmiş qalır. Bu mülahizələrə görə həmin koordinat sisteminə düzbucaqlı koordinatların zonal sistemi deyilir.

**KOORDİNAT ŞƏBƏKƏSİ**

Topoqrafik xəritələrdən istifadə etdikdə hər hansı bir nöqtənin vəziyyətini düzbucaqlı koordinatların zonal sistemində tez təyin etmək üçün müasir topoqrafik xəritələrdə koordinat şəbəkəsi cızılır. Koordinat şəbəkəsi ox meridianına və ekvatora paralel olan xətlərin kəsişməsindən əmələ gəlir. Absis oxuna (X) paralel olan xətlərə koordinat şəbəkəsinin şaquli xətləri, ordinat oxuna (Y) paralel olan xətlərə isə üfüqi xətlər deyilir. Koordinat şəbəkəsi xətlərinin arasında olan məsafə yer üzərində tam kilometrlər əmələ gətirdiyindən, onlara kilometr şəbəkəsi də deyirlər.

Xəritədə kilometr xətləri elə cızılır ki, onların arasındakı məsafə 2 sm-dən az olmasın. Kilometr şəbəkəsi xəritədə kvadratlar şəbəkəsi əmələ gətirir. Xəritələrdə belə kvadratların tərəfləri üçün miqyasa görə aşağıdakı ölçülər qəbul edilmişdir:

1:10000 miqyaslı xəritədə 10 sm, yerdə 1 km;
1:25000 miqyaslı xəritədə 4 sm, yerdə 1 km;

1:50000 miqyaslı xəritədə 2 sm, yerdə 1 km;
1:100000 miqyaslı xəritədə 2 sm, yerdə 2 km;
1:200000 miqyaslı xəritədə 2 sm, yerdə 4 km.

### NÖQTƏNİN DÜZBUCAQLI KOORDİNATLARININ TƏYİN OLUNMASI

Hədəfi dəqiq nişan almaq üçün kvadratlar xəyalən 4 və ya 9 hissəyə bölünür və həmin hissələr hərf və rəqəmlərlə işarələnir (şəkil 3).




***ŞƏKİL 3.*** **HƏDƏFİN XƏRİTƏDƏ YERİNİ GÖSTƏRMƏK ÜÇÜN KVADRATIN HİSSƏLƏRƏ BÖLÜNMƏSİ**

Hədəfi göstərmək üçün əvvəl kvadratın nömrəsi göstərilir, sonra isə ona hədəfin kvadrat daxilində mövqeyini göstərən hərf və ya rəqəm əlavə olunur. Məsələn, şəkildə M hərfi ilə işarə olunmuş hədəfin künc koordinatı belə yazılır: kvadrat 7614 - 4, hədəf M.

Obyektin topoqrafik xəritə üzərində yerini təxmini olaraq göstərmək üçün onun yerləşdiyi kvadratı göstərmək kifayətdir. Bunun üçün kvadratın cənub - qərb küncündən keçən üfüqi və şaquli kilometr xətlərinin ucunda yazılan rəqəmləri (əvvəl absisi, sonra ordinatı) oxumaq lazımdır. Məsələn, şəkil 4-də təsvir olunan tək daşın vəziyyətini göstərmək üçün belə yazırlar: “Tək daş” (7415). Belə koordinatlara **ixtisar edilmiş koordinatlar** deyilir.




***ŞƏKİL 4.*** **XƏRİTƏ ÜZƏRİNDƏ DÜZBUCAQLI KOORDİNATLARIN TƏYİNİ**

Obyektin vəziyyətini daha dəqiq göstərmək üçün isə onun koordinatlarını təyin edirlər. Fərz edək ki, bizə A nöqtəsinin koordinatlarını təyin etmək lazımdır ( şəkil 4). Bunun üçün A nöqtəsindən onun yerləşdiyi kvadratın cənub və qərb tərəflərinə perpendikulyarlar endirirlər. Perpendikulyarların (m və n) uzunluğunu xətkeş ilə ölçüb miqyasa əsasən onların yer üzərindəki uzunluğunu tapırlar “m”= 2,24 sm (yerdə 560 m); “n”= 1,64 sm (yerdə 410 m) alınmışdır. Sonra “m” və ”n” parçalarının uzunluğu A nöqtəsinin yerləşdiyi kvadratın cənub-qərb küncündən keçən üfüqi və şaquli kilometr xətlərinin ucunda yazılmış rəqəmlərlə toplanılır. Beləliklə, A nöqtəsinin absis (X) və ordinatlarının (Y) qiyməti aşağıdakı kimi alınır:

X= 74 km +560 m = 74560 m,
Y = 15 km + 410 m = 15410 m.

Adətən, koordinatların sağında metr göstərilmir. A nöqtəsinin bu qayda ilə tapılmış koordinatlarına onun qısa koordinatları deyilir. Çünki biz kilometr xətlərinin ucunda yazılmış son iki rəqəmdən (74 və 15) istifadə etdik. Nöqtənin tam koordinatlarını yazmaq üçün kilometr xətlərinin ekvatordan və ox meridianından olan məsafəsini tam yazmaq lazımdır. A nöqtəsinin yerləşdiyi

kvadratın cənub-qərb küncünün tam koordinatları X = 6074000,Y = 4315000 olduğu üçün nöqtənin tam koordinatları

X (m) = 6074560,
Y (n) = 4315410 olacaqdır.

Düzbucaqlı koordinatlarına görə nöqtənin xəritəyə köçürülməsi.

Tutaq ki, bizə koordinatları X = 6074930 və Y = 4316825 olan B nöqtəsini xəritəyə köçürmək lazımdır (şəkil 4). Koordinatlardan görünür ki, B nöqtəsi 7416 kvadratında yerləşir. Nöqtənin absisindən 6074 çıxaraq alınmış 930 metr kvadratın sol və sağ tərəfində aşağıdan yuxarıya doğru xəritənin miqyasına görə ölçülür və düz xətlə birləşdirilir. Ordinatın qiymətindən 4316 çıxaraq alınmış 825 m bu xəttin üzərində soldan sağa doğru xəritənin miqyasına uyğun ölçülür və qeyd edilir. Beləliklə, koordinatları verilmiş nöqtə xəritə üzərinə köçürülmüş olur.

**QÜTBİ KOORDİNAT SİSTEMİ**

Qütbi koordinat sistemində hər hansı "A" nöqtəsinin vəziyyəti iki koordinatla: radius – vektor "D" və vəziyyət bucağı "$\alpha$" ilə təyin edilə bilər (şəkil 5). "OP" – qütb oxu, "O" – koordinat başlanğıcı adlanır. Bu sistemdə vəziyyət bucağı "$\alpha$" qütb oxundan başlayaraq saat əqrəbinin hərəkəti istiqamətində radius – vektora qədər ölçülür. Qütb oxu müstəvi üzərində ixtiyari vəziyyət ala bilər, lakin əksər halda bu ox "O" nöqtəsindən keçən meridian istiqaməti ilə uyğun gəlir.



*ŞƏKİL 5.* **QÜTBİ KOORDİNAT SİSTEMİ**

**BİPOLYAR KOORDİNAT SİSTEMİ**

Bipolyar – ikiqütblü deməkdir. Bu koordinat sistemində nöqtənin (obyektin) yeri iki bucaq, yaxud iki xətti kəmiyyətlə təyin olunur. Məsələn, xəritədə yaxud ərazidə olan C hədəfini göstərmək lazımdır. Bunun üçün başlanğıc olaraq iki nöqtə ( A, B) seçib, onlar arasındakı məsafəni (buna bazis deyirlər) ölçürlər. Sonra A və B nöqtələrindən hədəfə olan maqnit azimutları və ya direksion bucaqlar $\alpha_1 \alpha_2$ ölçülür. Hədəfin yerini, həmçinin bazis xəttindən ölçülən $\beta_1$ və $\beta_2$ bucaqlarına, yaxud qütblərdən ölçülən $D_1$ və $D_2$ məsafələrinə görə də təyin etmək olar (şəkil 6).




***ŞƏKİL 6.*** **BİPOLYAR KOORDİNAT SİSTEMİ**

Bipolyar koordinat sistemi hədəf göstərmədə, minalanmış sahələrin sərhədlərinin təyin edilməsində və s. tətbiq edilir.

## ƏDƏBİYYAT

1. Məmmədov Q.Ş., Əhmədov İ.H. Hərbi topoqrafiyanın və geodeziyanın əsasları. Bakı, 2004

2. Говорухин А.М., Коваленко А.Н. Справочник по военной топографии. Москва, Военное издательство, 1980

# KƏŞFİYYATÇILARIN DAĞLARDA FƏALİYYƏT ÜÇÜN HAZIRLANMASI

**Polkovnik-leytenant Araz CƏLİLOV, mayor Xavər QASIMOV**

**SİLAHLI QÜVVƏLƏRİN TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ**

***Dağlıq ərazi qoşunların hərəkəti və fəaliyyətini çətinləşdirən məhdudiyyətli, dərə-təpəli yerlərin ən mürəkkəb tipidir. Relyefin hədsiz dərəcədə dərə-təpəli olması çoxlu "ölü sahələr", məhdudiyyətli və keçilməz ərazilər yaradır, səmtləşməni, müşahidəni və yerdəyişməni çətinləşdirir. Dağ-səhralıq yerlər isə suyun, bitki örtüyünün və yanacağın az olması, yaxud tamamilə olmaması ilə səciyyələnir.***

Dağlarda hərəkət etmək üçün dağ yollarından və cığırlardan istifadə edilir. Bu, qüvvəyə qənaət etməyə və kəşfiyyatın qarşısında duran vəzifələri daha qısa müddətdə yerinə yetirməyə imkan verir. Lakin düşmən arxasındakı yollarda hərəkət heç də təhlükəsiz deyil, buna görə də yalnız məcburiyyət qarşısında qaldıqda həmin yollardan istifadə etmək lazımdır. Dağlardakı dolambac, sərt eniş-yoxuşlu yollarda çoxlu döngələr, mürəkkəb hissələr olur. Qış vaxtı dağ yollarında qar yığınlarının əmələ gəlməsi və yolların buz bağlaması səbəbindən onları keçmək çətinləşir, yayda isə yağışlardan sonra yollar palçıqlı olur. Bu isə yoxuş və enişlərdə hərəkəti xeyli çətinləşdirir.

Dağlarda kəşfiyyat tapşırıqlarını yerinə yetirməyə hazırlaşarkən qarşıdakı əməliyyat rayonunun ərazisini, yaylaqların sərtlik dərəcəsini, oradakı sıldırımların, uçurumların, çala-çuxurların, daşlı, qayalı, qarlı sahələrin, buzlaqların yerlərini xəritə (sxemlər və təsvirlər) üzrə diqqətlə öyrənmək, hərəkət marşrutunun keçəcəyi və düşmənlə rastlaşmaq ehtimalı olan yollar şəbəkəsinin vəziyyətini, keçidlərin, terrasların, dağ çökəklərinin və aşırımların yerini müəyyənləşdirmək lazımdır.

Dağlıq bölgələrdə əməliyyat zamanı daş töküntülər, qar və buz uçqunları, sel suları ilə əlaqədar ciddi təbii təhlükələr əmələ gələ bilər. Dağ süxurlarının təbii proseslər nəticəsində parçalanması, yaxud ehtiyatsız hərəkətdən yuvarlanan ayrı-ayrı daşların təsiri çoxlu sayda başqa daşların da yuvarlanmasına gətirib çıxarır ki, nəticəsində axıb tökülən daşlar böyük daş uçqunları törədir.

Daş axınlarının sürətlə şütüdüyü navalçaların gen yerləri xüsusilə təhlükəlidir. Terras (yer səthinin bir-birinin üstündə yerləşən üfüqi və ya bir qədər meyilli çıxıntı hissəsi) və meydançalarda toz və çınqıl olması, qarın (qumun) üstündə ilişib qalmış daşlar, yamacın ətəyində üstü torpaq və bitki ilə örtülmə-



miş xeyli daş olması həmin yerdə tez-tez daş uçqunlarının baş verməsinin əlamətləridir.

Qar uçqunları – yamacdan böyük sürətlə aşağı tökülən qar kütləleridir. Sərtliyi 200-dən çox, bəzən isə mailliyi daha az olan, ağac və kol bitməyən, çıxıntılı qayaları olmayan yamaclarda qar uçqunu təhlükəsi var. Bu baxımdan navalçalar daha qorxuludur. Baş verəcək qar uçqununun əlamətləri bunlardır: yamacda qarın miqdarının kəskin surətdə artması; temperatur aşağı olduğu halda quru qar yağması; hava istiləşərkən qarın tərkibindəki suyun hədsiz artması. Qar uçqunu bu səbəblərdən törəyə bilər: uçqun təhlükəsi olan sahələrdən adamların, yaxud heyvanların keçməsi; atəş, partlayış və yaxud bərk qışqırtılar nəticəsində yaranan səs dalğaları; qarı bir yamacdan başqa yamaca sovuran külək. Güclü qar yağandan sonrakı ilk iki-üç gündə qar uçqunu törənməsi ehtimalı daha böyükdür.

Buz uçqunları temperaturun kəskin dəyişməsi, güclü külək və atmosfer yağıntıları nəticəsində baş verir. Bərk istidə, günəşli havada, gün çıxandan, yaxud gün batandan sonra baş verə bilər.

Sel – çox təhlükəli təbiət hadisəsidir. Sel dağ çaylarında, yaxud onların quru məcralarında qəflətən yaranır. Güclü leysan yağışları, yaxud qarın sürətlə əriməsi nəticəsində dağlarda əmələ gələn güclü sel sularında böyük həcmdə daş, çınqıl və palçıq olur. Sel gəlməsi təhlükəsi yaxınlaşdıqda qorxulu yerlərdən (dağ çayının vadisindən, quru məcrasından) kənara qaçmaq və sel axınının müşahidəsini təşkil etmək lazımdır.

Dağ rayonlarının iqlimi son dərəcə müxtəlif və dəyişkəndir. Burada bir yüksəklikdə sutka ərzində temperatur kəskin surətdə dəyişə bilər. Hava həm də yüksəklikdən asılı olaraq dəyişir: vadilərdə hava isti və quru olduğu halda, həmin vaxt böyük yüksəkliklərdə güclü külək, yağış, qar və çovğun ola bilər. Hər bir kəşfiyyatçı havanın dəyişməsi əlamətlərini və təhlükəsizlik tədbirlərini bilməli, eyni zamanda, kəşfiyyat vəzifələrini yerinə yetirmək üçün havanın pis olmasından istifadə etməyi bacarmalıdır.

Dağlarda günəş batandan sonra və buludlu havada soyuq düşür. Qış vaxtı sutka ərzində temperatur daha kəskin dəyişir. Açıq havada günəş şüaları bə-

dəndə yanıqlar əmələ gəlməsinə, bəzi hallarda isə müvəqqəti korluğa səbəb olur. Hətta dumanlı havada da yanıq əmələ gəlməsi təhlükəsi istisna olunmur. Yanıq xəsarəti almamaq üçün qədəkli yaxud enli kənarları, yəni günəş şüasının sifətə düşməsini önləyən baş geyimi örtmək, cunadan hazırlanmış maskadan istifadə etmək, gözləri isə xüsusi eynəklə və ya kartondan, yaxud kağızdan düzəldilmiş gözlüklə qorumaq məsləhətdir.

Dağlarda yağış yağması hərəkəti xeyli çətinləşdirir. Belə hallarda cığırlar, ot basmış yamaclar və qayalar sürüşkən olur. Kiçik çaylar və quru qobular az bir vaxtda su ilə dolur və ciddi maneəyə çevrilirlər. Yağışlı havada əyin paltarı yaş olduqda, hətta havanın temperaturu sıfır dərəcədə olduqda da adamı don vura bilər. Dağlarda tufan da qorxuludur. Tufan yaxınlaşanda dağın zirvəsindən, yaxud qayalıqlardan aşağı düşmək, təhlükəsiz yerdə yerləşmək tövsiyə olunur. Şərait imkan verirsə, metal əşyaları bir kənara yığıb üstünü örtmək lazımdır.

Duman, qar və çovğun hərəkət etməyi, yolu düzgün seçməyi və səmtləşməni çətinləşdirir. Qar yağarkən qar uçqunlarının baş verməsi təhlükəsi yaranır. Belə şəraitdə dağlarda yalnız müstəsna hallarda hərəkət etmək, xüsusilə ehtiyatlı olmaq, özünüzün və yoldaşlarınızın təhlükəsizliyini təmin etmək üçün səylə çalışmaq lazımdır.

Yüksək dağlıq rayonlarda oksigen çatışmazlığı üzündən dağ xəstəliyi – başağrısı, ürəkbulanması, qulaqlarda uğultu, zəiflik əmələ gələ bilər. Dağ xəstəliyinin qarşısını almaq üçün dağ şəraitində daim məşq etmək lazımdır.

**KƏŞFİYYATÇI DAĞLARDA NECƏ HƏRƏKƏT ETMƏLİDİR**

Kəşfiyyatçıların dağlarda fəaliyyət üçün hazırlanmasını iki mərhələyə bölmək olar: birinci mərhələdə yerdəyişmə üsullarının icra texnikası öyrənilir və dağlıq relyefə malik olan təlim sahələrində bu üsulların icrasına aid məşqlər keçirilir, ikinci mərhələdə – taktiki məşğələlərin və təlimlərin gedişində, məxsusi yürüşlərdə – texniki üsulların bütün kompleksi mənimsənilir.

Şəxsi heyətin öyrədilməsi bölmələrin dağlara çıxarılmasına qədər başlanmalıdır. Bu məqsədlə hərbi hissənin yerləşdiyi ərazinin yaxınlığında dağ yerləri üçün səciyyəvi olan maneələr (otlu yamaclar, qayalıq sahələr, kiçik dağ çayları və s.), yaxud tökmə torpaqdan əmələ gəlmiş hündür təpəciklər, daş doğranan yerlər, karxanalar, dərələr, sahilləri sərt və əyri-üyrü olan çaylar seçilir.

Məşğələləri təşkil edərkən bədbəxt hadisələrin və zədələnmə hallarının təhlükəsizlik qaydaları və tədbirlərinin nəzərə alınması və onlara riayət olunması birinci dərəcəli əhəmiyyət kəsb edir. Əgər məşğələ rəhbəri təlim keçənlərin fiziki və texniki hazırlıq səviyyəsinə bələd deyilsə, dağ ləvazimatının yerbəyer və saz vəziyyətdə olmasını yoxlamamışsa, məşğələyə başlamaq olmaz. Məşğələnin gedişində adamların büdrəməsi, yaxud yıxılması üçün azacıq təh-

lükə olan yerlərdə belə, təlim keçənlərin özünüsığortalama tədbirlərinə laqeyd münasibət bəsləmələrinə yol verilməməlidir. Onlar da öz növbələrində intizama riayət etməli, bir-birinə kömək etməli və bədbəxt hadisələrin qarşısını almalıdırlar.

Məşğələ rəhbəri özü dağ maneələrini dəfetmə texnikasını və onu öyrətmək metodikasını əla mənimsəməli, təlim keçənlərin vəziyyətini və onların hərəkətlərini daim müşahidə etməlidir. Kəşfiyyatçının qarşıdakı yüksək dağ yürüşünə qalxmağa hazır olub-olmaması barədə son qərarı yalnız məşğələnin rəhbəri qəbul edir.

**Məşğələlərdə qrup halında fərdi üsul və tapşırığın müstəqil yerinə yetirilməsi.**

Qrup halında öyrətmə üsulundan istifadə etdikdə məşğələ rəhbəri mövzunu bütün qrupa öyrədir, təlim keçənlərin fəaliyyətinə nəzarət edir, ümumi və fərdi iradlarını bildirir. Otlu yamaclardan keçmək, buzqıranın (dağ əsasının) köməyilə özünüsığortalama və digər üsulların öyrədilməsi zamanı bu üsuldan istifadə etmək olar.

Qrup daxilində fərdi üsuldan istifadə edəndə məşğələnin rəhbəri üsulu bütün bölməyə izah edir (göstərir), sonra isə həmin üsulu növbə ilə hər bir kəşfiyyatçıya öyrədir. Şəxsi heyət kəndirlərin köməyilə dağa qalxmaq və dağdan enmək üsullarını öyrənərkən bu üsulu tətbiq etmək olar.

Çox çətin keçilən ərazidə hər bir kəşfiyyatçını növbə ilə öyrətmək və onu hökmən sığortalamaq lazımdır. Onun yoldaşları təhlükəsiz bir yerdə dayanaraq öz növbələrini gözləyir, öyrədilən yoldaşlarının üsulu necə yerinə yetirməsini müşahidə edir və məşğələ rəhbərinin ona söylədiyi iradları nəzərə alırlar.

Tapşırıq müstəqil surətdə yerinə yetirilərkən məşğələ rəhbəri təlim keçənlərin hamısına eyni vaxtda müəyyən üsulu yerinə yetirmələrini tapşırır. Onlar ya "axın halında", ya da bircərgəli sıraya düzülərək üsulu bir-bir yerinə yetirirlər. Hərbi qulluqçuların bir-birindən hansı interval və məsafədə olmalarını məşğələ rəhbəri müəyyən edir. Ayrı-ayrı daşların üstü ilə dağa dırmaşmaq, dağın zirvəsində hərəkət, yaxud buzlaqda pillələr düzəltmək olar. Bu zaman məşğələ rəhbəri kəşfiyyatçıların hamısının hərəkətinə nəzarət edir, lazım gəldikdə iradlarını bildirir və hərəkətlərini istiqamətləndirir.

Şəxsi heyətə dağlarda hərəkət qaydalarını öyrətməyə başlayanda dağların və dağlıq relyefin xarakterik xüsusiyyətləri, dağlarda baş verən təbii hadisələr və dağlıq şəraitin insan orqanizminə təsiri haqqında söhbət etmək olar. Bu söhbət zamanı kinofilmlərdən, diapozitivlərdən, dağ relyefi maketlərindən və başqa materiallardan istifadə edilir. Sonra kəşfiyyatçılar dağlıq şəraitdə tətbiq edilən xüsusi geyimlə, dağ ləvazimatı və onlardan istifadə qaydaları ilə tanış olurlar.

Bu məşğələlərdən sonra və ya onlarla eyni vaxtda dağ maneələrinin dəf edilməsi texnikasını öyrətməyə başlamaq lazımdır. Bu halda aşağıdakı metodik ardıcıllıq gözlənilməlidir: fəndlərlə tanışlıq, onların öyrənilməsi, fəndlərin icra edilməsinə aid məşqlər. Buzqıranın, dağ əsasının, silahın lüləsinin köməyilə özünü sığortalama və özünüsaxlama üsulları əvvəlcə otlu yamaclarda öyrədilir. Dağlıq yerdə mürəkkəb maneələrin (qayaların, buzlu və qarlı yamacların, dağ çaylarının) dəf edilməsi zamanı sığortalama üsullarından istifadə etmək zəruri olduğu üçün əvvəlcə bu üsullar, sonra isə maneələri dəfetmə texnikası öyrədilməlidir.

Kəşfiyyatçılar müxtəlif xarakterli yamaclarda hərəkət etməyin əsas texniki üsullarını mükəmməl mənimsəyəndən sonra təlimin ikinci mərhələsinə keçirlər. Bu mərhələdə dağ maneələrinin dəf edilməsinə aid bütün texniki üsullar kompleksi taktiki məşğələlərin və təlimlərin gedişində, eləcə də xüsusi yürüşlər zamanı mənimsənilir.

Taktiki təlimlər və yürüşlər üçün ciddi hazırlıq görülməli, onlar konkret taktiki şəraitdə aparılmalı və bu zaman kəşfiyyat məsələləri həll edilməlidir. İlk taktiki təlim (yürüş) müddətinin 2-3 sutka olması tövsiyə edilir. Marşrut otlu yamaclardan, yığıntı, morenlər (buzlaqların hərəkətilə əmələ gələn süxur yığını nəticəsində yaranmış süxurlar) olan ərazidən, eləcə də, sərtliyi və hərəkətin mürəkkəblik dərəcəsi az olan qayalıq yerlərdən keçməlidir. 3-4 sutka davam edən ikinci taktiki təlimin (yürüşün) marşrutu qarla örtülmüş, orta çətinlikli qayalı yamaclar olan iki-üç dağ aşırımından keçir. Sonrakı təlimlər, yaxud yürüşlər daha sürətli, onların marşrutları isə daha mürəkkəb olur.

## ƏDƏBİYYAT

1. Гредасов Ф.И. Подразделение в разведке. 1988

# ROBOT TEXNİKASININ HƏRBİ SAHƏDƏ TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

**Polkovnik-leytenant Həsən MƏMMƏDOV, texnika elmləri üzrə fəlsəfə doktoru, Yəhya ƏMƏNOV, baş müəllim Yunus TALIBOV**
**H.ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ**

***XX əsrin əvvəllərində başlayan elmi-texniki sıçrayışın əsas hərəkətverici qüvvəsi hərbi texnikanın yeni modellərinə və onun yüksək texniki göstəricilərinə olan ehtiyac idi. Almaniya, ABŞ, Yaponiya və SSRİ-də 1939-cu ilə qədər olan dövr bu baxımdan çox intensiv keçdi. Dövlətlərin öz siyasi iddialarını təmin edə biləcək orduya ehtiyacları olduğundan silah istehsalı sürətlə inkişaf etdi və demək olar ki, bu gün mövcud olan bütün növ silah və texnikanın əsası o dövrdə qoyuldu. Bu proses özünə böyük elmi, iqtisadi və insani ehtiyatları cəlb etməklə həm elmi texniki tərəqqiyə səbəb oldu (ən azı ona zəmin oldu), həm də müvafiq çətinliklər yaratdı.***

Texniki inkişaf nəticəsində əsgərin hazırlanma prosesi mürəkkəbləşdi və hazırlığın elmiliyi genişləndi. Dövrün müasir silah-texnikasının əsas göstəriciləri onun müxtəlif döyüş variantlı, modernləşmə imkanlı və başlıcası isə səmərəli olmasıdır. Öz-özlüyündə bahalı "məşğuliyyət" olan silah istehsalı ən azı 10-15, bəzən isə 20-30 illik (məsələn, strateji hücum silahları) bir dövr üçün nəzərdə tutulur. Bu nə deməkdir? Əsgər-mütəxəssis hazırlığında yeni texnika, yeni yanaşma, yeni düşüncənin tətbiqi ola bilər ki, həmin vaxtla uzlaşmasın. Lakin perspektiv metod və biliklərdən istifadə anlamında məqsədəuyğundur. Məhz bu səbəbdən hazırlıq prosesi bahalaşır və çətinləşir. Nəzərə almaq lazımdır ki, 40-cı illərdə 2-ci nəsil texnika yaradılırdısa, XX əsrin əvvəli ayrı-ayrı sahələr üzrə 5-ci və 6-cı nəsil texnikanın yaradılmasından söhbət gedir. Nəticədə, hərbçinin hazırlığı çox bahalı bir prosesə çevrilib deyə bilərik.

Digər tərəfdən bəşəriyyət inkişaf edir və dəyişir. 50 il bundan əvvəl 100000 əsgərin itkisi statistika sayılırdısa, indi Avropa ölkələrində hər bir əsgər tələfatı çox böyük ictimai hay-küyə səbəb olur. Döyüş, xilasetmə və digər əməliyyatlar zamanı taktiki şəraitin tez-tez dəyişməsi, hər hansı tapşırığın daha az qüvvənin cəlb edilməsi ilə tez bir zamanda yerinə yetirilməsinə ehtiyac yaradır. Təminat ehtiyaclarını çevikcəsinə, qısa zaman ərzində ödəmək olmur. Odur ki, ixtiyari şərait üçün mobil, nisbətən ucuz və tətbiq diapazonu böyük

olan bir vasitəyə lüzum ortaya çıxır.

Belə bir nəticəyə gəlmək olar ki, şəxsi heyətin xüsusi hazırlığının bahalı olması, insan itkilərinin azaldılması tələbi və böyük mobillik ehtiyacı bütün bu problemləri tam və ya qismən həll edə bilən texniki vasitənin–robotların obrazını yaradır. Elə orduda da robot texnikasından istifadə ideyası belə yaranmışdır.

**ROBOT TEXNİKASININ ORDUDA TƏTBİQ İMKANLARI**

1898-ci ildə Nikola Tesla radio ilə idarə olunan kateri nümayiş etdirməklə robot texnikasının əsasını qoydu (o vaxt robot termini hələ yox idi). Bir zamanlar robot texnikasına dair sovet alimləri (radioidarəli tanklar), 3-cü Reyxin mühəndisləri (özüyeriyən minalar) müxtəlif silahlar konstruksiya etmişlər (Şəkil 1). Sonradan, 60-cı illərdə ABŞ ordusunda hərbi təyinatlı əməliyyatlarda robotların istifadəsi üzrə elmi-texniki araşdırmalara başlanmış, müxtəlif prototiplər yaradılmışdır. Bu axtarışlar uzun, dəyişən intensivliklə və istiqamətlər üzrə aparıldı və nəticədə əvəzedilməz təcrübə qazanıldı.



***ŞƏKİL 1.*** **ÖZÜYERİYƏN MİNALAR (ALMANİYA), TELETANK (T-26-nın BAZASINDA, SSRİ)**

Təcrübə və axtarışlar nəticəsində robot texnikasının aşağıdakı əsas inkişaf istiqamətləri müəyyənləşdirildi:

– pilotsuz uçan aparatlar;
– yerüstü kəşfiyyat maşınları;
– mühəndis-istehkam robotları;
– ekzorobotlar;
– yükdaşıyan (yardımçı) robotlar və sanitar-nəqliyyat robotları;
– motoatıcını əvəz edən robotlar və döyüş robotları (kiborq);
– robot-texniki silah kompleksləri.

Hal-hazırda heyətsiz və ya pilotsuz uçan aparatların istehsalı və tətbiqi ən inkişaf etmiş sahədir. ABŞ, İsrail, Yaponoya, Türkiyə və Rusiyada bu sahədə müxtəlif təyinatlı (strateji, taktiki, kəşfiyyat, hücum və s.) və konstruksiyalı (helikopter, reaktiv, şaquli və ya üfüqi startlı və s.) aparatlar hazırlanıb və hal-hazırda xarici mətbuatın məlumatlarına görə hazırlanmaqdadır (şəkil 2).



*ŞƏKİL 2.* **PİLOTSUZ UÇAN APARATLAR**

Yerüstlü kəşfiyyat maşınları xüsusi  və ya ümumqoşun təyinatlı olub, əsasən foto-video, radiotexniki, bəzən kimyəvi kəşfiyyat avadanlıqları ilə təhciz olunmuş robotlardır. Axır vaxtlar quru qoşunlarında belə maşınlardan istifadə geniş yayılmışdır (şəkil 3, 4).



*ŞƏKİL 3.* **YERÜSTÜ KƏŞFİYYAT  MAŞINLARI**



*ŞƏKİL 4.* YERÜSTÜ KƏŞFİYYAT MAŞINLARI

Son vaxtlar döyüş zonasında döyüşçünün məruz qaldığı fiziki yükün intensivliyi nəzərə alınaraq insanın əzələ gücünü artıran və ya qismən əvəz edən ekzoskeletlər (ekzorobotlar) tətbiq edilməkdədir (şəkil 5).




***ŞƏKİL 5. EKZOSKELET***

Döyüş və ya çətin şəraitdə lazım olan yüklərin həcmi və təyinatından asılı olaraq tələb olunan yerə çatdırılması üçün xüsusi robotlar layihələndirilir. Sanitar-nəqliyyat və yardımçı robotlar mahiyyətcə eyni təyinatlıdır, lakin bəzilərində əlavə avadanlıqlar (yaralı və ya ölənlərin nəqli üçün) quraşdırıla bilər.



***ŞƏKİL 6.*** **YARDIMÇI VƏ NƏQLİYYAT ROBOTLARI**

Motoatıcını əvəz edən robotların (kiborq döyüşçülər) İsrail, Yaponiya, ABŞ və digər dövlətlərdə layihələndirilməsi aparılır və bəzi modelləri də artıq hazırdır. Yapon döyüş robotu "Kavasaki" belələrindəndir (şəkil 7).

Robot-texniki silah komplekslərinə robotlaşdırılmış atıcı kompleksləri və zirehli maşınların bazasında hazırlanmış zirehli robot-tanklar aiddir. Kovrov şəhərindəki "Siqnal" institutunda T-72 tankının bazasında layihələndirilən "Alisa" robot-texniki kompleksi də belə vasitələrdəndir. Belə komplekslərin yaradılması həm iqtisadi, həm də insan resurslarının qorunması nöqteyi-nəzərdən əlverişlidir (şəkil 8).

### HƏRBİ MÜHƏNDİS İŞLƏRİNDƏ ROBOTLAŞDIRILMIŞ TEXNİKANIN TƏTBİQ İMKANLARI

Mühəndis-istehkam fəaliyyəti zamanı zərərli və ya zədə almaq ehtimalı olan

əməliyyatlarda robotlaşdırılmış istehkam maşın və robotlarından istifadə daha səmərəli sayılır. 1986-cı ildə Çernobıl AES-də qəza zamanı uzaqdan idarə edilən buldozerlərdən, Sibirin, Qazaxıstanın neft-qaz mədənlərinin istismarı zamanı istehkam maşınlarından yanan mədənlərin söndürülməsində istifadə edilmişdir. Yəni belə bir təcrübə vardır (şəkil 9).



***ŞƏKİL 7.*** **MOTOATICINI ƏVƏZ EDƏN ROBOTLAR (KONSEPSİYA)**



***ŞƏKİL 8.*** **"ALİSA" KOMPLEKSİ (RUSİYA)**



***ŞƏKİL 9.*** **İSTEHKAM MAŞINLARINDAN QƏZALAR ZAMANI İSTİFADƏ**

Əldə edilmiş təcrübə, elmi- texniki tərəqqi zaman keçdikcə öz sözünü dedi. Hal-hazırda robotlaşdırılmış texniki vasitələrindən hərbi mühəndis fəaliyyəti zamanı istifadənin bir neçə istiqaməti müəyyənləşmişdir:

– mühəndis-kəşfiyyatı vasitələri;
– robotlaşdırılmış mühəndis-istehkam maşınları;
– istehkamçı robot;
– mina təmizləmə kompleksləri;
– robot-texniki komplekslər;
– robotlaşdırılmış xüsusi mühəndis maşınları.

Mühəndis kəşfiyyatı üçün istifadə edilən robotlaşdırılmış texniki vasitələr ərazidəki şəraitin obyektiv qiymətləndirilməsi və lazım gələrsə birbaşa (online) rejimdə dəyişən məlumatın dəyərləndirilməsi, toplanma və ya ötürülməsi məqsədilə istifadə edilir. Belə robotlar ümumi və xüsusi təyinatlı olur. Ümumi təyinatlı mühəndis-kəşfiyyat kompleksləri başqa qoşun növlərində də istifadə edilir. Xüsusi təyinatlı mühəndis-kəşfiyyat kompleksləri hərbi mühəndis bölmələrinin yerinə yetirdiyi tapşırıqlarda (aşkarlama, qiymətləndirmə və s) istifadə olunur (şəkil 10).



*ŞƏKİL 10.* **MÜHƏNDİS-KƏŞFİYYAT ROBOTLARI**

Robotlaşdırılmış mühəndis-istehkam maşınları təhlükəli şəraitdə şəxsi heyəti riskə atmadan mühəndis tədbirlərinin icrası üçün təyin edilmişdir (şəkil 11, 12).



*ŞƏKİL 11.* **ROBOTLAŞDIRILMIŞ MÜHƏNDİS-İSTEHKAM MAŞINI**



***ŞƏKİL 12.*** **ROBOTLAŞDIRILMIŞ MÜHƏNDİS-İSTEHKAM MAŞINLARI**

İstehkamçı robot yeni yaradılan texniki vasitə olub, minaların, partlayıcı maddələrin, zədə yarada biləcək digər amillərin uzaqdan idarəolunma ilə aşkarlanması, dəyərləndirilməsi və zərərsizləşdirilməsi, ya da daşınması üçün nəzərdə tutulmuşdur (şəkil 13).



***ŞƏKİL 13.*** **İSTEHKAMÇI ROBOTLAR**

Mina təmizləmə kompleksləri minalandığı ehtimal edilən ərazidə mina təmizləmə işlərini icra edən kompekslərdir. İş prinsipinə görə belə komplekslər müxtəlifdir, şərait və imkandan asılı olaraq tətbiq edilir (şəkil 14).




*ŞƏKİL 14* . **MİNA TƏMİZLƏMƏ KOMPLEKSLƏRİ**

Robot texniki kompleksləri yüngül, ağır, mobil, avtomatik, uzaqdan idarə edilən və s. ola bilir. Belə komplekslərin xüsusiyyətlərindən biri də mühəndis-istehkam maşınları kimi, ikili təyinatlı ola bilmələridir. Yüngül robotlaşdırılmış komplekslər lokal şəraitdə aşkarlama, müşahidə, dəyərləndirmə və zərərsizləşdirmə üçün istifadə edilən kiçik komplekslərdir. Robotlaşdırılmış xüsusi mühəndis maşınları müəyyən təyinatlı işlər üçün nəzərdə tutulan mühəndis maşınlarıdır. Belə maşınlara yanğınsöndürmə, sualtı, yeraltı və s. maşınlar aiddir (şəkil 15).

Qonşu ölkələrdə bu istiqamətdə böyük işlər aparılır, yeni nümunələr yaradılır və onlar bir-birindən konstruksiya və işləmə prinsiplərinə görə fərqlənirlər.

Bu günlərdə Rusiya Federasiyasının Müdafiə Nazirliyi ordu üçün istehkamçı robotlar və İslandiyadan genişprofilli yeni sualtı robotların alınması barədə qərar verib. Eyni zamanda ABŞ-da ordunun ehtiyacları üçün 1100 ədəd robotun alınmasına qərar verilib. İsrail ordusu isə müxtəlif ölkələrdə is-

tehsal olunan robotların şəhər şəraitində mühəndis qoşunları tərəfindən istifadəsini araşdırır. Robotlardan istifadə artıq gündəmdədir. Hərbiçilər robotdan istifadənin ən düzgün variant olduğunu qeyd edir.



*ŞƏKİL 15* . **ROBOTLAŞDIRILMIŞ YÜNGÜL KOMPLEKSLƏR**




*ŞƏKİL 16.* **PERSPEKTİV MİNA TƏMİZLƏMƏ KOMPLEKSLƏRİ (KONSEPSİYA)**
**a – ANA ROBOT, b – SÜRÜNGƏCLİ ROBOT**

Respublikamızın elmi, iqtisadi və hərbi-texniki potensialı imkan verir ki, rəqabətli texniki göstəricilərə malik vasitələr işlənib hazırlansın. Bu işdə ali hərbi məktəblərin elmi potensialından və mütəxəssislərin təcrübəsindən istifadə çox yararlı olardı.

# RİYAZİ MODELLƏRİN HƏRB SAHƏSİNDƏ TƏTBİQİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Polkovnik-leytenant Elşən HƏŞİMOV**

**SİLAHLI QÜVVƏLƏRİN HƏRBİ AKADEMİYASI**

**Açar sözlər:** riyazi model, imitasiya modeli, analitik model, döyüş əməliyyatları, idarəetmə sistemi, silah sistemləri.

**Ключевые слова:** математическая модель, имитационная модель, аналитическая модель, боевые действия, системы управления, системы вооружения.

**Keywords:** mathematical model, simulation model, analytical model, fighting, control systems, weapons systems.

***Məqalədə riyazi metod və modellərin hərb sahəsində tətbiq edilməsinin aktual problemləri araşdırılır, analitik və imitasiya modelləşdirmələri müqayisə edilir, əməliyyatların riyazi modelləşdirilməsinin üstünlükləri və çatışmazlıqları diqqətə alınır.***

Milli təhlükəsizliyi təhdid edən, konfliktlərə və qeyri-stabilliyə gətirən təzadların yaranması, dəyişən şəraitə uyğun silahlı mübarizənin aparılması silah və əməliyyatları idarəetmə sistemlərinin yaranmasına rəvac vermişdir. Perspektivli silah növləri və əməliyyatları idarəetmə sistemlərinin yaradılmasına dair hərbi-elmi tədqiqatlarda silah və idarəetmə sistemlərinin mümkün konfliktlərdə tətbiqi zamanı effektivliyin qiymətləndirilməsinin böyük əhəmiyyəti vardır. Bu qiymətləndirmə müvafiq proseslərin modelləşdirilməsi əsasında aparılır.

Hazırda həm silahların tətbiqinin, həm də döyüş əməliyyatlarının aparılmasının çoxlu sayda nəzəri modelləri vardır. Lakin bu modellərin əksəriyyətinin [1, 2] praktika ilə uzlaşdırılması bir dəfə də aparılmamışdır. Ona görə də hazırkı döyüş əməliyyatları modellərinin analizinin aparılması zərurəti yaranmışdır. [3]

Latın mənşəli “modulus” sözündən götürülmüş model sözü “nümunə”, “norma” mənasını verir. Elmi dərketmənin çox mühüm vasitələrindən biri hesab edilən model tədqiqat obyektinin şərti obrazı hesab edilir.

Modellərin təyinatını və idarəetmədə oynadığı rolu daha dəqiq müəyyən et-

mək üçün modelləşdirmə metodunun mahiyyətini açıqlamaq zəruridir. Sistemin əvvəlcədən öyrənilməsi və onun vacib xüsusiyyətlərinin müəyyən edilməsi əsasında modelin qurulması, onun eksperimental və nəzəri təhlili, nəticələrin sistem haqqında məlumatlarla tutuşdurulması, modellərin dəqiqləşdirilməsi və real sistemə adekvatlığın təmin edilməsi və s. modelləşdirmə metodunun əsasını təşkil edir.

Modelləşdirmə aşağıda göstərilən hər iki sistemin mövcud olmasını nəzərdə tutur:

1. İdarə etdiyimiz və ya idarə etmək istədiyimiz real sistem;
2. Bu sistemin modeli, onun analoqu.

Modelləşdirmənin daha universal növü riyazi modelləşdirmədir. Riyazi modelləşdirmə – real obyektiv proses və sistemin müasir informasiya texnologiyalarının, elektron-hesablama texnikasının köməyilə eksperimental araşdırma üçün daha əlverişli olan riyazi modellə əvəz olunmasıdır.

Riyazi modellər – iqtisadiyyat, atom fizikası, astronomiya, hidrometeorologiya, kənd təsərrüfatı, hərb sənəti və s. kimi bir çox sahələrdə tətbiq olunur. [4-6] Onların köməkliyi ilə tədqiq olunan obyekt və problemlərin geniş, miqyaslı müxtəlifliyinə baxmayaraq istifadə olunan üsullarda və onların əsasını təşkil edən fəlsəfi baxışlarda ümumi cəhətlər çoxdur. Riyazi model real sistemin sadələşdirilmiş formasını özündə əks etdirir. Bu onun əsas keyfiyyətidir və deməli, baxılan sistemi model vasitəsilə öyrənmək real sistemi birbaşa tətbiq etməkdən daha asan və əlverişlidir.

Riyazi model obyektin və ya prosesin əsas xassələrinin tənliklər və digər riyazi vasitələrlə ifadə olunmasıdır. Bu gün riyazi modelləşdirmə natur modelləşdirməsindən daha geniş yayılmışdır. Bu metodun riyaziyyatla birlikdə yəni min illər əvvəl yaranmasına baxmayaraq, onun inkişafına elektron-hesablama maşınlarının (EHM) yaranması güclü təkan vermişdir.

Riyazi modelləşdirmə heç də həmişə kompyuterin olmasını tələb etmir. Riyazi modelləşdirmə ilə professional məşğul olan hər bir mütəxəssis ilk növbədə modeli analitik tədqiq etməyə çalışır. Analitik modellərdə real obyektlərdə baş verən proseslər aşkar funksional asılılıqlar şəklində verilir. Müəyyən bir məsələnin analitik həlli (düsturların köməkliyi ilə) daha asan və əlverişlidir. Lakin analitik metodların mürəkkəb riyazi məsələləri həll etmək imkanları çox məhduddur, modelləşdirilən obyekt mürəkkəbləşdikcə, onun analitik modelinin qurulması mürəkkəbləşir. Belə olduqda imitasiya modelindən istifadə etmək ehtiyacı yaranır. İmitasion modelləşdirmə ilkin verilənlər əsasında (proses və sistemin), müəyyən zaman anlarında vəziyyət haqqında məlumat almağa imkan verir, lakin bu zaman sistemin vəziyyətinin proqramlaşdırılması bir qədər çətin olur.

Riyazi modelləşdirmə hərbi taktikada, hərbi-texniki sahədə də geniş istifadə

edilir. Bu gün informasiya texnologiyaları sahəsində əldə edilmiş nailiyyətlər sözügedən məsələdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində ortaya çıxan əsas problemləri həll etməyə imkan verir. Belə problemlərə aid etmək olar: qoşun növləri üçün perspektiv silah sistemlərinin müəyyən edilməsi; silahlı qüvvələrin və qoşun qismlərinin optimal tərkibi üzrə tövsiyələrin işlənməsi; perspektiv silah sistemlərinin hazırlanması zamanı material və maliyyə resurslarının effektiv paylanması. Şəbəkəyə qoşulmuş güclü kompyuterlər hərb elmi sahəsində digər vacib problemləri də həll edə bilərlər. Bu problemlərə misal olaraq, müasir müharibələrin rasional aparılma üsul və variantlarının təyin edilməsi, əvvəllər baş verən müharibələrdə buraxılan səhvlərin təkrar olunmaması, adi silahlardan istifadə etməklə döyüşlərin aparılma variantlarının müəyyənləşdirilməsi, Silahlı Qüvvələrin ali rəhbər heyətinin praktiki hazırlığının həyata keçirilməsi və s. göstərmək olar.

Yeni informasiya texnologiyaları vasitələrində reallaşdırılan riyazi modellər hərbi problemlərin həllini praktiki müstəviyə keçirməyə imkan verir. Riyazi modellərdən istifadə etməklə döyüş əməliyyatlarının bütün xüsusiyyətlərini virtual göstərmək və hərbi problemlərin elmi əsaslandırılmış həllini tapmaq olar.

Əməliyyatların riyazi modelləşdirilməsində əsas rolu imitasiya modelləri oynayır. Onların alternativi olan analitik modellər göstərilən səbəblərdən qəbul edilmir:

1. İlkin məlumat qismində çətin təyin edilən kəmiyyətlər tələb edilir. Məsələn, qüvvə və vasitələrin hazırlıq əmsalı, vurulma obyektlərinin vaciblik əmsalı, hədəfləri (obyektləri) vurma ehtimalı, düşmən tərəfindən əməliyyat (döyüş əməliyyatları) variantlarının tətbiq edilməsi ehtimalı və s.

2. Analitik metodları tətbiq etmək üçün məhdudiyyətlər tələb olunur ki, onlar da əməliyyat (döyüş əməliyyatları) praktikasını tam təmin etmirlər. Məhdudiyyətlərin qoyulması real döyüş əməliyyatlarına xas olan çoxsaylı səbəb-nəticə əlaqələrini və münasibətlərini nəzərə almağa imkan vermir. Məhdudiyyətlərə misal olaraq göstərmək olar:

– xətti proqramlaşdırma metodu üçün – hədəfi (obyekti) bir mərmi ilə (atəşlə) vurma;

– oyun nəzəriyyəsi metodları üçün – düşmənin verilən hərəkət variantlarının (strategiyalar) məhdud sayı və s.

Analitik metodların tətbiqini şübhə altına alan daha bir mühüm səbəb vardır. Bu, hamıya məlum olan analitik metodlarla əldə edilmiş qərarların düşmən tərəfdən "duyulmasının" yüksək ehtimalıdır. Düşmən məlum analitik metodlardan istifadə edərək bizim məqsədimizi anlaya və əks-təsir tədbirləri həyata keçirə bilər. Belə şəraitdə planlaşdırılan döyüş əməliyyatlarının effektivliyi sıfıra bərabər olacaqdır.

Analitik modelləşdirməyə nisbətən imitasiya modelləşdirməsinin praktiki olaraq heç bir məhdudiyyəti yoxdur və aşağıdakılara imkan verir:

1. Planlaşdırılan əməliyyatlara cəlb edilən döyüşən tərəflərin bütün vasitə və sistemlərinin imitasiyası. İmitasiya olunan silah vasitələrinin bölmə və birləşmələrin fəaliyyətində əsaslı yer tutduğunu nəzərə alsaq, modelləşdirmə zamanı bu hərbi bölmə və birləşmələrin hamısının hərəkəti imitasiya olunur. Belə ki, əməliyyatların modelləşdirilməsi zamanı hesablanır: hər iki tərəfin aviasiya təyyarələrinin uçuş marşrutları; onların zirehli texnikasının hərəkət marşrutları; mərmi, bomba, istənilən növ ("hava-hava", "hava-yer", "hava-yer-hava") raketlərin uçuş trayektoriyaları; hədəflərin (obyektlərin) vurulma dərəcələri və s.

Hərbi əməliyyatların bütün proseslərinin ətraflı imitasiyası (tərəflərin sərt qarşıdurması daxil olmaqla) çoxsaylı faktorların planlaşdırılan əməliyyatların gedişinə və nəticəsinə təsirini öyrənməkdə hədsiz imkanlar açır.

2. İmitasiya modelləşdirməsi kreativ qrafiki interfeyslərlə birlikdə döyüş və əməliyyatların əyaniliyini təmin edir. İmitasiya modelləşdirməsi ikitərəfli olduğuna görə monitorun ekranında zaman və fəza üzrə həm öz qoşun qruplaşmamız, həm də düşmənin qoşun qruplaşması əks olunur. Bütün bunlar ərazinin rəqəmsal xəritəsi fonunda və ya panoram şəklində əks olunur. Modellərin istifadəçiləri vizual olaraq tərəflərin modelləşdirilən döyüş əməliyyatlarını izləyə, bununla da çoxsaylı amillərin əməliyyatların gedişinə və nəticəsinə təsirini daha müfəssəl öyrənə bilərlər.

Kreativ interaktiv interfeysin işlənməsi və istifadəsi həm özünün, həm də düşmən qoşunlarının hərəkətini korrektə etmək üçün modelləşdirilən əməliyyatın gedişinə operator tərəfindən müdaxilə etməyə imkan verir. Məsələn, canlı qüvvə və texnika itkisinin artması səbəbindən və ya əməliyyat tapşırıqlarının son məqsədi əldə olunmadıqda, döyüş əməliyyatlarının modelləşdirilən üsulunda dəyişiklik və ya korrektə etmək lazım gələn hallarda. Bundan başqa, modelləşdirmənin gedişində hər iki tərəf qoşunlarının əsas və digər zərbələrinin istiqamətlərini, bölmə və birləşmələrin əməliyyat və taktiki tapşırıqlarını, müxtəlif silah vasitələri və sistemlərinin hədəflərini dəyişmək olar. Bu imkanlar döyüşən tərəflərin sərt qarşıdurması şəraitində əməliyyatların aparılmasının daha effektiv üsullarını tapmağa şərait yaradır.

3. Modelləşdirilən döyüş əməliyyatlarının aparılmasının daha effektiv üsullarını elmi əsaslarla ("effektivlik-dəyər" kriteriyası üzrə) təyin etməyə imkan verir. Effektivlik qismində vurulan obyektlərin və ya qorunan obyektlərin riyazi gözləməsi, dəyər qismində isə itki (canlı qüvvə, texnika və silah itkisi, mərmi, yanacaq və maddi-texniki təminat vasitələrinin sərfi) miqdarının riyazi gözləməsi seçilir.

Döyüş əməliyyatlarının məlum modellərinin yuxarıda göstərilən üstünlüklə-

ri konstruktiv modelləşdirmə sistemini yaratmağa imkan vermişdir. Konstruktiv modelləşdirmə sistemi – döyüş əməliyyatlarının hazırlanmasının proqramlar kompleksi və əməliyyatların effektivliyinin qiymətləndirilməsinin riyazi modelləridir. Döyüş əməliyyatlarının hazırlanmasının proqramlar kompleksi planlaşdırıcı sənədlərin (vaxt sərfinin hesablanması, əməliyyatların hazırlıq planı, adi və əsas döyüş sənədləri: şəraitin qiymətləndirilməsi, əməliyyatın niyyəti və s.) işlənməsi üçün təyin edilmişdir. Bu sistemin riyazi modelləri əməliyyatların niyyətlərinin elementlərini əsaslandırmaq üçün virtual şərait yaradırlar. Riyazi modellərin köməkliyi ilə əməliyyatın niyyətinin məqsədəuyğunluğu qiymətləndirilir.

Konstruktiv modelləşdirmə sistemi həm əməliyyatın qabaqcadan və bilavasitə hazırlıq dövründə, həm də onun gedişində tətbiq olunur. İşlənmiş qərar variantının ədədi qiymətləndirilməsi üçün hər bir dövrdə aktiv riyazi model tətbiq edilir. Model üçün ilkin məlumat real vaxt rejiminə yaxın rejimdə müvafiq mənbələrdən alınan məlumatlardır. Əməliyyatın gedişində cari şərait haqqında məlumat riyazi modelin köməkliyi ilə əməliyyatların aparılmasının sonrakı məqsədəuyğun üsullarını müəyyən etməyə imkan verir.

Riyazi modelləşdirmənin yuxarıda sadalanan üstünlükləri ilə yanaşı çatışmazlıqları da çoxdur. Hazırkı modellərin nəticələri ondan istifadə edən və müəyyən əməliyyatlara rəhbərlik edən şəxsləri səhv istiqamətə də yönəldə bilər və bu, həm silah və texnika, həm də canlı qüvvə itkisi ilə nəticələnə bilər. Modellərin aşağıdakı çatışmazlıqlarını qeyd etmək olar:

1. Modellərdə ədədi nəticələrin praktikada alınan nəticələrlə uzlaşma qiymətləndirilməsinin olmaması.

Döyüş əməliyyatının keçirilməsi qərarının müstəsna dərəcədə cavabdehliyi kompyuter modelləşdirilməsinə - modelləşdirmə nəticələrinin praktikada alınan nəticələrlə uzlaşmasına yüksək tələblər irəli sürür. Əməliyyatların başlanması qərarı qəbul edən komandir riyazi modelləşdirmənin nəticələrinə inana bilərmi? Bu gün istifadə edilən modellərdə nəticələrin uzlaşmasının qiymətləndirilməsi məsələsinə yanaşma əsasən keyfiyyət xarakteri daşıyır və praktika ilə təsdiq edilmir. Hesab edilir ki, model son illərin hərbi konfliktləri və müharibələrinin nəticələri əsasında yoxlanılmışdır.

Hazırkı modellərin bu çatışmazlığının əsas səbəbi statistik analiz metodlarının tətbiqinə imkan verən tələb olunan sayda statistik məlumatın (məsələn, silah və hərbi texnikanın poliqon sınaqlarının lazımi həcmdə məlumatlarının) olmamasıdır. Sınaq nəticələrinin əldə olunmasının çətinliyi onunla izah olunur ki, modelləri yaradanlara döyüşən tərəflərin vurma (aşkaretmə) vasitələrinin yüz və hətta min növünün hər biri üçün məlumatlar toplusu tələb olunur.

Digər səbəb kimi əməliyyatların modelləşdirilməsi həyata keçirilən kompyuterlərin həddən artıq yüklənməsidir. Bir-iki nüvəli prosessorlar birsəviyyəli

imitasiya modellərinin bütün proseslərini imitasiya etməyə çətinlik çəkirlər. Bir virtual “taktiki sahədə” tərəflərin qoşun qruplaşmalarının minlərlə silah vasitə və sistemlərinin hərəkət və uçuşu proqnozlaşdırılır, hər bir hədəfin və yerüstü obyektin aşkar edilməsi və vurulması modelləşdirilir. Ona görə də modellə nəticələrin uzlaşma qiymətləndirilməsinin də əlavə edilməsi modelləşdirmənin operativliyini çox zəiflətmiş olur.

2. Modelləşdirmənin adekvatlığının tam təmin olunmaması.

Hazırkı modelləşdirmənin kifayət etməyən adekvatlığı modellərdə silah-sistem tətbiqinin həddən artıq “robotlaşdırılması” ilə bağlıdır. Döyüş əməliyyatlarının modelləşdirilməsi zamanı döyüşən tərəflərin bölmə və birləşmələrinin silah vasitələri, mexaniki robot kimi, verilmiş ardıcıllığa müvafiq olaraq hərəkət edirlər. Bu, intellektual baxımdan yüksək inkişaf etmiş robot-maşınların futuristik müharibələrini yada salır.

Pilotsuz uçan aparatların (PUA) və hərbi təyinatlı müxtəlif robotların yaradılmasına baxmayaraq, onlar insan tərəfindən idarə edilərək istifadə olunurlar. Robotlardan fərqli olaraq insan çevik düşüncə qabiliyyətinə malikdir. Bu da ona əməliyyatların gedişində qoyulmuş tapşırığı yerinə yetirmək üçün silah və sistemləri daha “şüurlu” tətbiq etməyə imkan verir. Lakin hazırkı modellərdə bu fakta əhəmiyyət verilmir. Silah vasitə və sistemləri modelləşdirmə zamanı əvvəlcədən verilmiş ardıcıllıqla, bəzən hətta istifadəçinin məntiqinə zidd olan tərzdə “hərəkət” edirlər.

Qeyd etmək olar ki, hazırkı modellər idarəolunandırlar. Lakin bu, tələb olunan qədər deyildir. Əməliyyat (əməliyyat-strateji) səviyyəli modellərdə vuruşan tərəflərin mindən çox sayda müxtəlif növ silahlarının tətbiqi imitasiya olunur. Belə şəraitdə modelin operatorlarına daim dəyişən taktiki şərait fonunda hər bir silah vasitəsinin rasional tətbiq üsulunu təyin etmək məsələsi kifayət qədər mürəkkəb məsələdir. Məsələn, tapşırığı yerinə yetirmək və bu halda vurulmamağa imkan verən daha məqsədəuyğun taktiki gedişi tətbiq etmək. Taktiki gediş kimi qəbul etmək olar: təyyarələrlə raket əleyhinə manevrlərin yerinə yetirilməsi; düşmənin hava hücumundan müdafiə radiostansiyalarına maneələrin qoyulması; tüstü maneələrinin yaradılması; təyin olunmuş vaxtda atəş dəstəyinin gücləndirilməsi və s. Taktiki səviyyədə çoxlu sayda situasiyalar vardır ki, orada qərar qəbul edən şəxs tərəfindən qoyulan tapşırıqların “mexaniki” deyil, düşüncəli şəkildə yerinə yetirilməsi tələb olunur. Hazırkı modelləşdirmənin adekvat olmamasının əsas səbəbi onlarda silah sistemlərini idarə edən, ümumilikdə təcrübəsindən, təşəbbüskarlığından və hazırlıq səviyyəsindən əməliyyatların uğuru asılı olan minlərlə insanın rolunun azaldılmasıdır.

3. Riyazi modelləşdirmə sahəsi üzrə ekspertlər və istifadəçilər üçün modelləşdirmənin “qeyri-şəffaf” (qaranlıq) qalması.

Hazırkı dövrdə bölmə və birləşmələrin qərargahlarında əməliyyatların modellərindən istifadə edilmir. Buna baxmayaraq, müasir savadlı zabitlərin riyazi modellərə ehtiyacı vardır. Lakin modellərin istifadəçiləri üçün onlar "qara qutu"ya bənzəyirlər. Onların istifadəsi zamanı müəyyən kəmiyyətlərin (məsələn, vurulan obyektlərin sayının riyazi gözləməsi, itki sayının riyazi gözləməsi və s.) hansı yolla hesablanması, nə üçün bu qiyməti alması aydın deyildir. Qoyulan döyüş tapşırıqlarının yerinə yetirilmə ardıcıllığı istifadəçilər üçün tam aydın deyil, bəzən isə hətta qəbuledilməzdir. Virtual əməliyyatların epizodları həddən artıq çox olduğundan onların hamısının mücərrəd qiymətləndirilməsi istifadəçilər üçün kifayət qədər mürəkkəblik yaradır.

Riyazi modelləşdirmə sahəsində mütəxəssislər tərəfindən hazırkı modellərin qiymətləndirilməsi çox çətin və mürəkkəbdir, çünki yalnız kinoda olduğu kimi tankların hərəkətinə, təyyarələrin uçuşuna, onların guya hədəfi vurmasına baxmaq olar. Modelləşdirilən əməliyyatların riyazi əsaslarını ("fiziki mənasını") hiss etmək mümkün deyildir. Modelləri yaradanların izahlarının da hamısını yoxlamaq mümkün deyildir. Ona görə də modelləşdirmədə "şəffaflıq" olmadığından, hər şeyə inanmaq lazım gəlir.

4. Modelləşdirmə zamanı düşməni aldatma üsullarının inandırıcı olmasının təyin edilməsinin mürəkkəbliyi.

Düşmənin operativ aldadılması üsulları əməliyyatların planlaşdırılması zamanı mühüm rol oynayır. İlk baxışdan elə görünə bilər ki, düşməni operativ aldatmaq üçün görülən bütün tədbirlərin inandırıcı olmasını yoxlamaq üçün hazırkı modellərin böyük imkanları vardır. Bu modellər ikitərəflidir və onlarda yalançı zərbələr modelləşdirmək, yalançı obyektlər yerləşdirmək, düşmən radiostansiyalarına maneələr qoymaq olar. Lakin vizual düşmən üçün yalançı aldatma üsulları məlum olduğundan hazırkı yanaşmada bu mənasızdır. Bu, insanın öz-özü ilə şahmat oynamasına bənzəyir ki, bu zaman sonrakı bütün gedişlər – aldadıcı hərəkətlər, maneələr və s. əvvəlcədən məlumdur.

Bu halda aldatma ideyasının effektivliyinin (inandırıcı olmasının) yoxlanmasının mənası idarəetmənin reflektivliyindədir, yəni elə bir şərait yaratmaq lazımdır ki, bu zaman düşmən aldatma ideyasını əvvəlcədən bilmədən, yaradılmış şəraitdən asılı olaraq bizim üçün əlverişli hərəkət xətti seçir.

Silahlı qüvvələrin tətbiq sahələrində araşdırmaların aparılması üçün təyin olunmuş riyazi metod və modellərin bir sıra prinsipial çatışmazlıqları olsa da aparılmış analizlərin nəticələrinə əsasən əməliyyat modelləşdirməsinə aşağıdakı yanaşma qüvvədə qalmış olur: hərb sahəsində qəbul edilən qərarların doğruluğu real hərbi əməliyyatların gedişində təsdiqini tapır, amma bu qərarların səmərəliliyinin elmi əsaslandırılması yalnız virtual müharibələr tətbiq etməklə mümkündür. Virtual əməliyyatların və döyüşlərin çoxdəfəlik, qansız və itkisiz təkrar edilməsi hərb sahəsində səmərəli qərar qəbul etməyə imkan verə bilər.

Yuxarıda aparılan analiz bir daha göstərdi ki, riyazi modelləşdirmə bir sıra hərbi problemlərin elmi əsaslandırılmış həllini tapmağa, eləcə də döyüş əməliyyatlarının planlaşdırılması və həyata keçirilməsi zamanı səmərəli qərar qəbul etməyə imkan verir. Ona görə də hərbi sahədə riyazi metod və modellərin tətbiqi baxımından müvafiq tədqiqat işlərinin aparılması hərbçi alimlərin və zabitlərin qarşısında duran əsas məsələlərdən biridir və bu məsələ Azərbaycan Respublikası Silahlı Qüvvələrində bu istiqamətdə yeni tədqiqatların aparılmasını tələb edir.

## ƏDƏBİYYAT

1. Жеребин А.М. Модель боевых действий для оценки эффективности перспективного авиационного вооружения. Вестник Московского авиационного института. 2009

2. Супрун В.П. Применение полумарковского процесса к обобщению одной модели боевого функционирования артиллерийского комплекса / Супрун В.П., Вакал А.А. Артиллерийское и стрелковое вооружение. – 2009

3. Купріненко ОМ. Аналіз методів обґрунтування оперативно-тактичних вимог до перспективных систем (комплексів, зразків) озброєння та військової техніки. Військово-технічний збірник. – 2011

4. М.В. Сергеев, Х.И. Лейбович, Р.М. Юсупов, В.П. Сорокин Военная мысль. - 1988

К вопросу о методологии математического моделирования операций

5. Михайлов Ю.Б. Проблемы военно-научных исследований по обоснованию систем вооружения Сухопутних войск России . Военная мысль, 1993

6. Е. В. Ковалевская. Компьютерные виртуальные реальности: некоторые философские аспекты. Виртуальные реальности: Тр. лаб. виртуалистики [ под ред. Р. Г. Яновского и Н. А. Носова]. Москва, 1998

## РЕЗЮМЕ

**НЕКОТОРЫЕ ВОПРОСЫ ПРИМЕНЕНИЯ МАТЕМАТИЧЕСКИХ МОДЕЛЕЙ В ВОЕННОЙ ОБЛАСТИ**

**Е. ГАШИМОВ**

В статье исследуются актуальные проблемы применения математических методов и моделей в военной области, дается сравнение аналитических и имитационных методов моделирования, рассматриваются пре-

имущества и недостатки математического моделирования операций.

**SUMMARY**

**SOME QUESTIONS OF THE APPLICATION OF MATHEMATICAL MODELS IN THE MILITARY FIELD**

**E. HASHIMOV**

The article examines the current problems of the application of mathematical methods and models in the military field, provides a comparison of analytical and simulation modeling techniques, discusses the advantages and disadvantages of mathematical modeling operations.

**X A R İ C İ   O R D U L A R D A**

**SNAYPERLƏR ÜÇÜN ROBOT-HƏDƏF**

**Snayper hazırlığında hərəkətdə olan hədəflərə atəş açmaq vacib məsələlərdən biridir. Bu günə qədər hərəkət edən hədəflərin hərəkəti müəyyən trayektoriya və ya istiqamətlə məhdudlaşırdı.**

**Bu yaxınlarda Avstraliya MN-nin mütəxəssisləri "Marathon robots" şirkətinin istehsalı olan "Segway" robotlarını snayper atışları üçün hədəf rolu oynamağa uyğunlaşdırmışlar. Bu zaman zirehli korpus, "güllə dəydi" funksiyasının yerləşdirilməsi, robotun insan kimi geyindirilməsi, həmçinin hərəkətin xüsusi üsulla proqramlaşdırılması həyata keçirilmişdir.**

**Robotlar lazer məsafəölçənlə təchiz edilmişdir ki, bu da ona canlı insan kimi bir az qabağa əyilmiş halda hərəkət etməyə imkan verir. Robotların hər biri simsiz rabitə vasitəsilə mərkəzi idarəetmə pultuna qoşulmuşdur ki, bu da robotlara proqramlaşdırılmış ssenaridən asılı olaraq və ya xarici qıcıqlandırıcılara reaksiya verərək hərəkət etmələrinə imkan yaradır. Robotların nəzər-diqqəti cəlb edən ən vacib keyfiyyətləri odur ki, onlar snayper atəşindən sonra dərhal poliqona yayılırlar. Robotların ən vacib keyfiyyətlərindən biri də onların universiallığı və operator vasitəsilə tez bir zaman kəsimində poliqonda lazımi hərəkət ssenarisi yaratmaq imkanının olmasıdır.**

# TƏHLÜKƏSİZLİYƏ QARŞI TƏHDİD VƏ RİSKLƏRİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNƏ TƏSİRİ

**Polkovnik-leytenant Babək ALLAHVERDİYEV**

**SİLAHLI QÜVVƏLƏRİN HƏRBİ AKADEMİYASI**

**Açar sözlər:** beynəlxalq terrorizm, beynəlxalq münasibətlər, xarici siyasət, qarşılıqlı əməkdaşlıq, təhdid.

**Ключевые слова:** международный терроризм, международные отношения, внешняя политика, взаимное сотрудничество, угроза.

**Keywords:** international terrorism, international relations, foreign policy, mutual cooperation, threat.

***Qloballaşmanın sürətlə inkişaf etdiyi beynəlxalq aləmdə qeyri-dövlət aktorları olan terrorçu qruplaşmanın inkişaf etdiyi beynəlxalq terrorizm, hərbi separatçı rejimlər, narkotik vasitələrin tranziti, mütəşəkkil cinayətkarlıq şəbəkələri, kütləvi qırğın silahlarının yayılması, son illərin fenomeni olan kiber hücumlar, habelə qeyri-qanuni miqrasiya kimi ciddi təhdid yaradan risklər və qlobal problemlər beynəlxalq təhlükəsizlik mühitinə və bütün bunların müqabilində beynəlxalq münasibətlər sisteminə faktiki təsir edən başlıca amillərdir.***

Beynəlxalq sistemin təhlükəsizliyinə qarşı təhdid və risklərin artması günümüzdə artıq tendensiyaya çevrilmişdir və bunların qarşısının alınması istiqamətindəki ənənəvi mexanizmlərin tətbiqi artıq özünü doğrultmur. Müasir beynəlxalq təhlükəsizlik sisteminə qarşı olan bu təzyiqlərin aradan qaldırılması yeni yanaşma tələb edir. [5.75-77] Əsas məsələ isə ondan ibarətdir ki, bu yanaşmanın mərkəzində hərbi güc dayanmamalıdır.

Müasir dövrdə aydın müşahidə olunmaqdadır ki, hərb yolu problemlərin həll olunmasından çox onların daha da kəskinləşməsinə yol açır. Bütün təhdid və risklərin təsirindən şaxələnmiş qlobal problemlərin dünyəvi xarakter daşıması onların aradan götürülməsi üçün sistemli və nizamlı tədbirlərin fasiləsiz aparılmasının gərginliyini və aktiv planlamada saxlanılmasını tələb etməkdədir. Bütün dünya üçün təhdid yaradan ən təhlükəli risklərin və qlobal problemlərin inkişaf potensialına nəzər salsaq görərik ki, birinci qrupa, beynəlxalq səviyyədəki terrorizmin aid olması şübhəsiz faktlarla sübuta yetirilmişdir.

Məhz lokal müharibələrin baş verməsinin və lokal münaqişələrin regional səviyyəyə çıxmasının başlıca səbəbləri bununla bağlıdır. [2.36] Bu baxımdan, müasir beynəlxalq təhlükəsizlik sisteminə olduqca ciddi bir təhdid və risk kimi terrorizmi dərindən təhlil etmək vacibdir.

Müasir terrorizm özünü iki və ya bir çox hallarda üç formada göstərir. Birincisi, beynəlxalq terrorizmdir ki, bura, adətən beynəlxalq miqyas kəsb edən terror aktları aid edilir. İkincisi, daxili-siyasi terrorizmdir və bura hər hansı bir qrup tərəfindən hökumətə qarşı və ya daxili-siyasi sabitliyin pozulmasına yönəlmiş terror aktları aiddir. Üçüncüsü, heç bir siyasi motiv daşımayan cinayətkar xarakterli terrorizmi qeyd etmək olar. Bu terror aktları bir qayda olaraq talançılıq və ya əlavə maddi resurslar əldə etmək məqsədilə həyata keçirilir. [3. 38]

Müasir dövrdə beynəlxalq təhlükəsizlik sistemi üçün qarşısıalınmaz ciddi təhlükəyə çevrilən terrorizm zamana uyğun olaraq özünə həm kəmiyyət, həm də keyfiyyət baxımından yeni-yeni elementlər cəlb etməkdədir. Son dövrlərdə dünyada cərəyan edən ciddi neqativ proseslər terrorizmin nəzərəçarpacaq təsirləri altında baş verir. Bu baxımdan müasir beynəlxalq münasibətlər sistemində sabitliyin təmin edilməsinin başlıca şərtlərindən biri də beynəlxalq terrorizmə qarşı ciddi və səmərəli mübarizə aparmaqdan ibarətdir. [6. 89-99]

Azərbaycan Respublikası terrorizmlə mübarizədə beynəlxalq birliyin səylərini hər zaman müdafiə etməklə siyasi, iqtisadi, dini və digər motivlərdən asılı olmayaraq, terrorizmin bütün forma və təzahürlərinə qarşı birmənalı, barışmaz mövqe tutmuşdur. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonrakı mərhələdə bir çox dövlətlər gözləmə mövqeyi tutduğu halda, ulu öndərimiz Heydər Əliyev bu məsələyə dərhal reaksiya verərək ABŞ-da törədilən terror aktlarını bütövlükdə bəşəriyyətə, insanlığa qarşı ən dəhşətli cinayət kimi pisləmiş, Azərbaycanın terrorla mübarizədə hər zaman fəal mövqe tutacağını bəyan etmişdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanı Beynəlxalq Antiterror Koalisiyasının (BAK) fəal iştirakçılarından birinə çevirmişdir. Azərbaycan əsgərinin Əfqanıstanda və İraqda sülhməramlı missiya yerinə yetirməsi buna bariz nümunədir. Ulu öndərimiz 2001-ci il 11 sentyabr hadisəsi baş verməmişdən əvvəl terrorizmin beynəlxalq bəlaya çevrildiyini böyük uzaqgörənliklə hiss etmiş və hələ 18 iyun 1999-cu ildə «Terrorizmlə mübarizə haqqında» qanunu imzalamışdır. Ümummilli liderin şəxsi təşəbbüsü və onun nəzarəti altında hazırlanmış bu qanun Azərbaycan Respublikasında terrorizmə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyənləşdirir, terrorizmə qarşı mübarizə aparan dövlət orqanlarının fəaliyyətlərini dəqiqliklə koordinasiya edir. Bu gün də ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında beynəlxalq terror təşkilatlarına qarşı mübarizəni nəzərdə tutan bir sıra konvensiya və müqavilələrə qoşulan Azərbaycan Respublikası öz qanunveri-

ciliyini həmin sənədlərə uyğunlaşdırmaq istiqamətində bir sıra tədbirlər həyata keçirməkdədir. Ölkə prezidenti cənab İlham Əliyev xarici səfərləri zamanı dəfələrlə bəyan etmişdir ki, Azərbaycan Respublikası terrorizmdən ən çox əziyyət çəkən dövlətlərdən biridir. Danılmaz faktdır ki, Dağlıq Qarabağ münaqişəsini başlayan təcavüzkar Ermənistan dövləti terroru dövlət siyasətinə çevirmiş və Azərbaycan ərazisində otuzdan artıq qanlı terror aktı həyata keçirərək xeyli sayda insan həyatına faciəli şəkildə son qoymuşdur. Bu gün erməni hərbi separatçıları Azərbaycanın Dağlıq Qarabağ vilayətində tam nəzarətsiz zona yaradaraq öz cinayət əməllərini həyata keçirirlər. Belə ki, müxtəlif beynəlxalq terror təşkilatı üzvlərinin sığınacaq tapdıqları, ermənilərin işğalı altında olan Dağlıq Qarabağ əraziləri hal-hazırda silah və narkotik vasitələrin tranziti, çirkli pulların yuyulması üçün istifadə edilməkdədir.

Bu faktlar nüfuzlu beynəlxalq qurumların, o cümlədən, BMT-nin, ATƏT-in, ABŞ Dövlət Departamentinin və başqa beynəlxalq qurumların hesabat sənədlərində öz əksini tapmışdır. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, son illərdə Azərbaycanda həbs edilmiş təxribatçı və terrorçuların böyük əksəriyyəti Ermənistanda və işğal altında olan Dağlıq Qarabağda hazırlıq keçmiş, silah-sursat və maliyyə dəstəyi almışlar. Bu faktların prosessual qaydada sübuta yetirilməsi Ermənistan dövlətinin iyrənc və məkrli siyasət yürütdüyünü bir daha təsdiqləyir. Lakin terrorizmə qarşı mübarizənin aktorları başda olmaqla, dünya ictimaiyyətinin azərbaycanlılara qarşı yönəldilmiş erməni terrorizminə reaksiya verməməsi onlara daha qanlı terror aktlarını həyata keçirmək üçün rəvac verir. Beynəlxalq terrorizmə qarşı mübarizəni məhz erməni separatçılarından, Ermənistan kimi təcavüzkar dövlətlərdən başlamaq lazımdır. [1. 261]

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizliyə olan ciddi təhdidlərdən biri də nüvə silahıdır. Beynəlxalq münasibətlər sisteminin bir sıra iştirakçılarının nüvə silahına malik olması bəşəriyyəti ciddi təhlükə ilə üz-üzə qoymaqdadır. Nüvə silahının dəhşətli gücü ilk dəfə ABŞ tərəfindən Yaponiyaya qarşı istifadə olunmaqla yoxlanılmış və çox böyük insani itkilərə və dağıntılı tələfatlara səbəb olmuşdur. Tarixə qara hərflərlə yazılmış bu ilk nüvə faciəsi 1945-ci il avqustun 6-sı saat 08:15-də ABŞ-ın «B29 Enola Gay» təyyarəsi tərəfindən uran 235 tipli «little boy» (balaca oğlan) adı verilən 15 min ton TNT-lik atom bombasının günahsız Xirosima sakinlərinin üzərinə atılması ilə baş vermişdi. O dövr üçün Yaponiyanın ən inkişaf etmiş şəhərlərindən sayılan və ən güclü hərbi bazaların yerləşdiyi Xirosima şəhərinin yarısı atom bombasının zərbəsindən tamamilə məhv olmuşdu. Nəticədə 70 min nəfər ölmüş, 140 min nəfər yaralanmış, 100 mindən artıq adam şüalanmaya məruz qalmışdı. Sonrakı illərdə də üzə çıxan bu radiasiya təsirləri nəticəsində dünyasını dəyişən insanların sayı yüz minlərlədir. Bundan üç gün sonra avqustun

9-u saat 11:02-də ABŞ aviasiyası Yaponiyanın digər şəhəri Naqasakiyə «Fat Man» adlı platonium-239 tipli atom bombasını atdı. Partlayış nəticəsində Naqasaki şəhərinin 74 min sakini həlak oldu. Naqasaki bələdiyyəsinin açıqladığı rəsmi məlumata görə, 9 avqust 1945-ci ildə və sonradan şüa təsirindən ölənlərin sayı 143 min 124 nəfərdir.

Qeyd etmək lazımdır ki, həmin dövrün beynəlxalq münasibətləri bir sıra özünəməxsusluqlara malik idi. Əsas xüsusiyyət isə ondan ibarət idi ki, dünya supergücləri arasında planetar miqyasda nüfuz uğrunda mübarizə gedirdi. ABŞ-ın Yaponiya adalarına atom bombası atması SSRİ-yə "güc nümayişinin siqnalından" başqa bir şey deyildi. Çünki həmin vaxt bombaların atılması üçün heç bir hərbi zərurət yox idi. Bundan az bir zaman sonra, 1947-ci ildə SSRİ-də nüvə silahına malik olduğunu bəyan etmişdir. Bundan sonra nüvə klubu üzvlərinin sayı xeyli artmışdır. ABŞ, Rusiya, İngiltərə, Fransa, Çin, Hindistan, Pakistan, İsrail və Şimali Koreya bu kluba daxildir. "Nüvə Silahının Yayılmaması haqqında" Müqaviləyə əsasən bu ölkələrdən beşi – ABŞ, Rusiya, Çin, Fransa və Böyük Britaniya digər dünya dövlətlərindən fərqli olan xüsusi statusa – «nüvə ölkələri» statusuna malikdirlər. Lakin bu müqaviləyə qoşulmayan Hindistan, Pakistan, Şimali Koreya və İsrail də sonrakı illərdə nüvə silahını əldə etdilər.

Nüvə silahının belə geniş yayılması müasir beynəlxalq sistemdə təhlükənin olmasına dəlalət edir. Nüvə silahına malik olan ölkələr əksər hallarda xarici siyasi strategiyalarını həyata keçirən zaman bu potensiallarından bir hədələmə vasitəsi kimi istifadə edirlər. ABŞ Rusiya münasibətlərində nüvə amili başlıca güc nümayişi vasitəsidir. Nüvə arsenalının həcminin azaldılması istiqamətində əldə olunmuş razılaşmaya əsasən müəyyən addımlar atılsa da, tərəflər yenə də nüvə üstünlüyünə malik olmaq uğrunda qızğın mübarizə aparmaqdadırlar. Hər iki tərəf nüvə texnologiyalarını inkişaf etdirir ki, nüvə müharibəsi olacağı təqdirdə mütləq üstünlük əldə etsin. Bu ondan xəbər verir ki, razılaşmalara baxmayaraq, nüvə təhlükəsi bütün ciddiyyəti ilə qalmaqdadır. Nüvə silahına malik olan dövlətlər rəqiblərini bu silahın tətbiq ediləcəyi ilə hədələyirlər. Nüvə silahı müasir beynəlxalq təhlükəsizliyə ciddi təhdid yaradır. Tədqiqatçılar hesab edirlər ki, bir neçə irimiqyaslı nüvə partlayışı bütövlükdə yer kürəsində həyatın iflic olmasına gətirib çıxara bilər.

Göründüyü kimi, nüvə silahı bütün bəşəriyyət üçün böyük təhlükədir. Alimlərin hesablamalarına görə, hazırda nüvə silahının tətbiq edilməsi ilə dünya müharibəsi başlayarsa, bəşər cəmiyyəti tamamilə məhv olacaqdır. Bu baxımdan müasir beynəlxalq münasibətlər sistemində qeyd etdiyimiz məsələlər daim diqqət mərkəzindədir. Nüvə silahlarının məhdudlaşdırılması istiqamətində bəzi müqavilələr imzalanmışdır və ya razılaşmalar əldə edilmişdir. Bundan başqa atom elektrik stansiyalarının təhlükəsiz istismarı da ciddi problemlərdən biridir. [4. 62]

Son illərin qlobal problemi olan kiber hücumların, nəinki beynəlxalq münasibətlər sisteminin təhlükəsizliyinə, hətta dövlətlər arasında dəfələrlə yaşanmış bir neçə təhlükədən doğan ehtimallara əsasən üçüncü dünya müharibəsinin başlanmasına belə gətirib çıxara biləcəyini diqqətə alsaq, onun müasir dövrdə təhlükəsizliyə olan ən ciddi təhdid kimi qiymətləndirilməsi daha da məqsədəuyğun olardı. [7]

## NƏTİCƏ

Beynəlxalq münasibətlər sisteminə ciddi təzyiq olaraq qiymətləndirilən təhdid və risklərin mövcudluğundan yaranmış qlobal problemlərin mənşəyini, mahiyyətini və onların səmərəli aradan qaldırılması imkanlarını düzgün dərk etmək üçün bu problemlərin meydana gəlməsini şərtləndirən prosesləri bütün obyektiv ziddiyyətləri ilə nəzərdən keçirmək lazımdır. Problemin qloballığını müəyyən etmək üçün hər şeydən əvvəl aydınlaşdırmaq lazımdır ki, bu problem bəşəriyyətin ictimai inkişafı yolunda hansı maneələr yaradır. Yalnız dünya dövlətlərinin birgə səyləri nəticəsində beynəlxalq münasibətlər sisteminə olan təhdid və risklərin bu və ya digər səviyyədə qarşısının alınması ilə qlobal problemlərin aradan qaldırılması mümkün ola bilər.

## ƏDƏBİYYAT

1. Həsənov A. Beynəlxalq terrorizm. Bakı, 2003
2. Лукашук И. Международное право. Общая часть. Москва, 1996
3. Степанов Е. Современный терроризм: состояние перспективы. Москва, 2000
4. Молодцов Д. Международный контроль за нераспространением ядерного оружия. Исторические предпосылки создания. “Закон и право”, Москва, 2004
5. Kamer. K. Uluslararası güvenlik sorunları. Ankara, 2004
6. Terrorism: A Comprehensive Approach Addressing Root Causes?, in: Security and Human Rights, 2012
7. www. üçnöqtə. az - Kiber təhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi

## РЕЗЮМЕ

### УГРОЗА ПРОТИВ БЕЗОПАСНОСТИ И ВОЗДЕЙСТВИЕ РИСКОВ НА МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЕ

В. АЛЛАХВЕРДИЕВ

Азербайджанская Республика проводя целенаправленную внешнюю

политику в международных отношениях и в сохранении своего имиджа в мировой политике, в постановке перед собой как главной цели в проведении всех методов и мероприятий по охране национальной безопасности и организуя совместное партнерство усердно движется к цели в этой жизненно важном направлении.

**SUMMARY**

**THREAT AGAINST THE SECURITY AND IMPACT OF RISKS ON INTERNATIONAL RELATIONS**

**B. ALLAHVERDIEV**

The Azerbaijan Republic in all over the world sets the good of pursuing the international policy through supporting complete peace and saving ascendancy in the world policy, of fulfilling all measures and activities in its national safety for the defence of existing and probable perilous influences, and it also advances by executing joint cooperations in the direction of vital purpose resolutely.

## XARİCİ ORDULARDA

### PULEMYOTLU ROBOT

**ABŞ hərbi mühəndisləri yorulmadan hərbi təyinatlı robotlar yaratmaqla cəmiyyəti təəccübləndirməyə davam edirlər. Nortrop Qrumman şirkətinin təqdim etdiyi yüksək keçimli və silahla təchiz edilmiş CAMEL adlı bu maşın 11 km/saat sürətilə hərəkət edir və 550 kq "döyüş yükü"nü daşımağa qadirdir. Döyüş yükü M2 və ya M249 pulemyotları, MK19 qumbaraatanı və ya çox da böyük olmayan 30 mm-lik top ola bilər. İdarəetmə məsafədən həyata keçirilir. Təəssüflər olsun ki, yeni "ölüm maşınının" silahlanması, döyüş komplekti və özünü real döyüşdə necə aparacağı haqqında tam məlumat yoxdur. Ancaq mətbuatda gedən xəbərlərə görə adıçəkilən maşınlardan 60 ədədinin İsrail tərəfindən alındığını nəzərə alsaq, söyləmək olar ki, "yeni ölüm maşını"nın müştəriləri çox olacaqdır.**

# CİNAYƏT İŞLƏRİNİN AÇILMASINDA TÜKLƏRİN ƏHƏMİYYƏTİ

**Tibb xidməti baş leytenantı Fariz MƏMMƏDOV**

**AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN HƏRBİ TİBB FAKÜLTƏSİ**

***Məhkəmə təbabətində tükdən maddi sübut kimi istifadə edilməsinin təxminən 200 illik tarixi vardır. XIX əsrdə bu mövzuda çoxlu əsərlər yazılmış, məqalələr nəşr edilmişdir. Həmin dövrlərdə tük analizləri ilə açılan cinayət hadisələrinin olması da qeyd edilir. Bu bir həqiqətdir ki, bir orqanizm kimi tükün ekspertizası neçə-neçə gizli hadisələr aşkara çıxarmış, qaranlıq məqamlara aydınlıq gətirmişdir. Tüklər cinayətkarı aşkara çıxaran gizli sübut, etibarlı bioloji maddədir. Tüklər üzərində aparılan araşdırmalar həm bu günə, həm də keçmişə aid bir çox cinayətin açılmasında əhəmiyyətli rol oynayır. Hətta insan sakit vəziyyətdə dayandıqda belə tüklərin dəyişilməsi hesabına tük ətrafa düşə bilər. [3] Ona görə də, hadisə yerində tükün aşkar edilmə ehtimalı çoxdur. Bəs tük ədalət mühakiməsinin təmin olunmasına necə kömək edir?***

Hüceyrələrdəki mikrotükcüklər xaricində, insan orqanizmində orta hesabla 5-6 milyon tük vardır. Tük məməlilərin çoxunda dəridəki tük follikullarında formalaşan, keratin zülalından əmələ gələn sərt maddədir. Taktil, sərt, örtük və s. müxtəlif tük növləri vardır. Həmçinin doğuşdan əvvələ aid **lanugo** tükləri, bunların yerinə çıxan **vellus tükləri** və **terminal tüklər** də var. Taktil tüklər bəzi heyvanlarda olur və lamisə funksiyası daşıyır (pişiklərin üzlərində olan uzun tüklər kimi). Sərt tüklər heyvanların dərisini örtən və qoruyucu palto funksiyası daşıyan tüklərdir. Örtük tükləri orqanizmi əhatə edən, istilik balansını saxlayan qısa və nazik tüklərdir. Nazik, beyin maddəsiz və rəngsiz lanugo tükləri ana bətnindəki dölü əhatə edir. 1,5 aydan sonra tökülməyə başlayır və yerlərinə terminal tüklər və vellus tükləri çıxır. Vellus tükləri bəzi yerlər (dodaqlar, ovuc, ayaqaltı və s.) istisna olmaqla bütün orqanizmi əhatə edən, yumşaq və beyin maddəsi olmayan tüklərdir. Terminal tüklər dəri, üz və qaş nahiyələrində yerləşən və məhkəmə təbabətində istifadə edilən tüklərdir. Tük kök və mil hissələrindən ibarətdir. Mil isə kutikula, qabıq və beyin adlı üç qata ayrılır. Beyin tükün mərkəzi hissəsidir. Beyin qatı diametrinin, tükün diametrinə nisbətinə beyin indeksi deyilir. Beyin indeksi insan tüklərində, adətən 0,3-dən aşağı, heyvan tüklərində isə 0,3-dən yuxarıdır. **Kutikula** tükün xaricini təşkil edən, üst-üstə yığılmış pulcuqlu hissələrdən ibarət olan və tükü xarici təsirlərdən qoruyan ölü hüceyrələrdən əmələ gələn sərt təbəqədir.

Qabığı qoruyan kutikula üst-üstə 6-10 qat düzülmüş ölü hüceyrələrdən əmələ gəlir, həm də rəngsiz və nazik olur. Qabıq isə beyin ilə kutikula arasında qalan və tükün uzunluğu boyunca yerləşmiş mikroliflər, piqment maddələri və hüceyrə hissələrindən əmələ gəlir. Eumelanin (qəhvəyi-qara) və feomelanin (sarı-qırmızı) adlı piqmentlər qabıqda yerləşir. Sarı, qonur, qara və ağ rənglər bu piqmentlər sayəsində formalaşır. [13] Tükün rəngi Alopesiya areata, Kvashiorkor sindromu, mis çatışmazlığı və s. xəstəliklərin diaqnostikasında əhəmiyyətli rol oynayır. [11, 15] Şəxs cinayət törətdikdə, sağlam olsa da sonradan tük rənginin dəyişməsinə səbəb olan xəstəliklərə tutula bilər. Belə olan halda, tükləri müayinə edərkən fərq yarana bilər. Tüklərin diametri insandan insana fərqlənir. Diametri 0,05-0,09 mm arasında olan tüklər dərinin ən xarici təbəqəsi olan epidermisdən çıxır. İnsanda kirpik, burun, sinə və ətrafların tüklərinin uzunluğu təxminən 2-3 sm-dir. Qasıq və qoltuq tükləri, adətən 2-10 sm uzunluqda olur. Baş və saqqal tükləri isə 3-7 sm civarında olur. Tüklərin diametri yaşa görə də dəyişir. Körpələrdə tükün diametri 25-50 mikrometr arasında olarkən, yetkin şəxslərdə 70-100 mikron olur. Həmçinin yaşlı insanlarda tük kökündəki soğanaq hissəsi dolu olmaqla yanaşı piqment az olur. Orqanizmin 1 $sm^2$-də 100-200 tük yerləşir və bir tükün ömrü orta hesabla 5-6 il olur.

Maddi sübut kimi aşkar olunan tükəbənzər maddələr təbii və ya sintetik tük, həmçinin bitki, parça lifi və s. ola bilər. Əgər aşkar olunan maddi sübutun tük olması dəqiqləşərsə, onda heyvana, yaxud insana mənsub olması, bununla belə orqanizmin hansı nahiyəsindən olması (regionarlıq) müəyyən edilməlidir (baş, qoltuq, bığ-saqqal, qasıq və s.). Hadisə yerində qasıq tükünün tapılması cinsi cinayətlərdə güclü dəlil hesab olunur. Hadisə yerində tük və tükəbənzər nəsnələr ola bilər. Heyvan tükü, paltar lifi, əşyalardan düşən liflər, əvvəllər oradan keçmiş şəxslərin tükləri və sair hadisə yerində tapılması mümkündür. Tüklər hadisə yerində lupa ilə axtarılır və pinset vasitəsilə götürülür. Tüklərin müayinəsində tükün uzunluğu ölçülür, rəngləri müəyyən edilir. Düz və ya qıvrım olmasına baxılır, kök, gövdə və uc hissələri müayinə edilir. Diametrləri və beyin maddələrinin qalınlığı ölçülərək qeyd edilən tüklər, qabığın və içindəki maddələrin görünə bilməsi üçün ammonyak və kükürd kimi kimyəvi maddələr ilə işlənir.

Cinayətkarın xəbəri olmadan, hər hansı bir səbəbdən (məsələn, zərərçəkənin müqavimət göstərməsi nəticəsində) başının bir neçə tükü hadisə yerinə düşə bilər. Tüklərdə çoxlu miqdarda keratin olduğundan (keratin latınca-buynuz ölü zülaldır və tüklərə, dırnaqlara möhkəmlik verir) xarici təsirlərə davamlı olan tük uzun müddət xarab olmadan qala bilər, şəxsə mənsub olduğu üçün də cinayətkarın aşkar olunmasında çox vacib dəlildir. Cinayətkar hadisə yerindəki sübutları aradan qaldırmağa çalışsa da, tökülmüş bütün tüklərini tapıb

götürməsi çox çətindir.

Cinayətkara aid tük hadisə yerində və ya zərərçəkənin paltarlarında qala bilər. Cinayətkar "mən günahsızam, cinayət törətməmişəm"– deyə fəryad qoparsa da, onun tükləri "cinayətkar sənsən"– deyə sübut edə bilər. Tüklər hüceyrələrdən əmələ gəldiyi üçün tüklərdən DNT və mitoxondri DNT-si əldə etmək mümkündür. Məhkəmədə genetik müayinə aparılarsa, tükün kökü olması şərtdir. Çünki DNT tükün kök hissəsində olur. [7] Kökü olan tük daha informativdir. Həmin DNT əldə olunaraq şəxsiyyətin identifikasiyası aparıla bilər.Yəni "bu tük bu şəxsə aiddir" demək olar və ya DNT analizi vasitəsilə qohumluq əlaqələri müəyyən edilə bilər. [420] Kök olmadıqda tükün mil hissəsindən mitoxondri DNT-si (mDNT) əldə etmək mümkündür və bununla da şəxsiyyəti müəyyən etmək olar. Tüklərdə çoxlu miqdarda mitoxondri olduğundan kifayət qədər mDNT götürmək olar. Yəni təkcə bir ədəd tük analiz edilməklə, tükün sahibinin kim olması müəyyən edilə bilər.

İnsanlar əsasən üç irqə bölünür: **ağ-avropoid, sarı-monqoloid və qara-neqroid**. Tükün makroskopik və mikroskopik xüsusiyyətləri ilə irqi müəyyən etmək mümkündür. Ancaq müasir dünyada miqrasiyalar və irqlərarası evliliklər səbəbindən təmiz irqdən bəhs etmək çox çətindir. [8] Bununla belə, bəzi hadisələrdə şübhəlilərin sayının azaldılması üçün bu üsuldan istifadə edilir. Məsələn, tük eskimosların yaşadığı bir yerdə olan afrikalıya aiddirsə, şübhəli eskimoslar sərbəst buraxıla bilər. 5-10 min il əvvələ aid skelet qalıqları və tük analizlərindən şəxsin harada yaşamış olması və kimlərdən ola biləcəyi təxmin edilə bilər. Hətta hansı xəstəliklərdən ölməsi, zəhərlənib-zəhərlənməməsi müəyyən edilə bilər. Tükün beyin, qabıq və kutikula qatları xüsusilə coğrafi olaraq insanlarda müxtəliflik göstərdiyi üçün, müqayisə apararkən bu qatlar müayinə olunur. [6]

Tüklər, həmçinin şəxsin zəhərlənməsi barədə də məlumat verə bilər. Şəxsin




***ŞƏKİL 1.*** **İNSANLARA MƏXSUS MÜXTƏLİF TÜK NÜMUNƏLƏRİ**

**A. Sarışın avropalı qadının baş tükünün elektron mikroskopik görünüşü. Xarici təbəqədə (kutikula) orta hesabla 5 qat hüceyrə var. B. Asiyalı kişinin baş tükünün elektron mikroskopik görünüşü. Kutikula orta hesabla 12 qat hüceyrədən ibarətdir. C. Baş tükünün beyin maddəsi D. Qasıq tükünün beyin maddəsi E. Saqqal tükünün beyin maddəsi (beyin maddəsi qara rəngdə görünür).**

narkotik, zəhərli maddə və s. istifadə edib-etməməsi haqqında fikir söyləmək mümkündür. Tüklər zəhər "arxivləri" kimidir, əgər düzgün müayinə olunsa orqanizmə qəbul olunan zərərli maddələri aşkar etmək olar. Zərərli vərdişlər varsa, bəzi zəhərli maddələr qəbul olunursa, bunların nə olduğu və nə qədər müddətdir istifadə edildiyi tüklər vasitəsilə öyrənilə bilər. [10] Çünki həmin maddələr tüklərdə toplanır (kumulyasiya). Bəzi tarixi hadisələrin aşkar edilməsində tüklər əhəmiyyətli rol oynamışdır. Vaterlo müharibəsində İngiltərəyə məğlub olan Napoleon 1821-ci ildə sürgündə olduğu Müqəddəs Yelena adasında ölmüşdür. Mədə xorasından öldüyündən şübhələnilirdi. Lakin 1955-ci ildə övladının gündəlikləri nəşr edildikdən sonra onun arsendən zəhərlənməsinin mümkün ola biləcəyi məlum oldu. 180 il sonra 2001-ci ildə Strasburq Məhkəmə Tibbi Ekspertiza İnstitutunda Napoleonun tüklərində normadan 38 dəfə artıq arsen aşkar olunduqdan sonra zəhərlənmədən ölməsi ehtimal olundu. 2002-ci ildə isə başqa qrup Napoleonun 1805, 1814 və 1821-ci illərə aid tüklərini müayinə etdi və aşkar olundu ki, bütün nümunələrdə arsenin miqdarı normadan çoxdur. Demək ki, Napoleonun bədənində arsenin miqdarı daim normadan artıq olmuşdur, yəni arsendən zəhərlənməsi şübhəli idi. Ancaq bununla bağlı mübahisələr və araşdırmalar hələ də davam edir.

Kiçik bir baş tükü, gözlə çətin görünən bir tük cinayət hadisəsinin açılmasında hüquq mühafizə orqanlarına köməklik göstərir. Tükdən əldə edilən DNT cinayətkarı ələ verərkən, tükün kimyəvi analizləri ilə narkotik və ağır metallar kimi zəhərli maddələrin orqanizmdə miqdarı və istifadə edildiyi müddət haqqında da məlumat sahibi olmaq mümkündür. [17] Tüklər zəhərli maddələri topladığı üçün məhkəmə toksikologiyasında mötəbər dəlillərdəndir. [9] Hüceyrənin normal fəaliyyəti üçün cüzi miqdarda sink, mis, fosfor və s. müxtəlif elementlərə ehtiyac vardır. Elementlərin miqdarının çoxluğu və ya əksikliyi sağlamlıq üçün təhlükəlidir. [14] Bu maddələrin tüklərdə axtarılması cinayət hadisəsinin açılmasında rol oynaya bilər. Tüklər məhkəmə toksikologiyasında yaddaş işi görür. Tük orta hesabla ayda 1 sm uzandığına görə məsələn, 6 sm-lik tük şəxsin son 6 ayı haqqında məlumat daşıyır. Çünki bəzi zəhərli maddələrin, o cümlədən ağır metalların orqanizmdən xaric olduğu yerlərdən biri də tüklərdir. Hazırda tük nümunələrində ağır metalların analizinin aparılması adi hala çevrilmişdir. Radiasiya, narkotik, qida əlavələri, həşərat zəhərləri, arsen kimi zəhərlər və digər bəzi maddələr tüklərin analizi ilə müəyyən edilə bilər. Şəxs narkotik qəbul etdikdən sonra qanında və sidiyində həmin maddə qısa müddətdə aşkar edilir, ancaq bu maddə tüklərdə aylarla qala bilər. [12] Fosforlu-üzvi birləşmələrlə (həşərat zəhərləri, sinir-boğucu zəhərlər və s.) zəhərlənmələrdə tük analizləri faydalı məlumatlar verə bilər. Kimyəvi-bioloji silahlara aid zəhərləyici maddələrin (DZM) bir qrupu olan sinir-boğucu maddələrdən (zarin, zoman və s.) II Dünya müharibəsində isti-

fadə edilmişdir. Hətta 1995-ci ildə Tokio metrosunda törədilən terror hadisəsində zarin zəhərləyici qazından istifadə edilmişdir. [5] Tükdə qurğuşun və civə kimi müxtəlif maddələr yüksək miqdarda aşkar olunarsa, təbii olaraq daxili orqanlarda da bu maddələrin yüksək dozada toplanması nəticəsinə gəlmək olar. Belə maddələrə qısa müddətə məruz qalındığı hallarda sidik və qan analizləri, uzun müddətə məruz qaldığı hallarda isə tük analizləri aparılır. Lakin tükdə zəhər aşkar edildikdə, dərhal nəticəyə gəlmək olmaz. Bu zəhər istifadə olunan dərmanlardan və ya boyalardan qəbul edilmiş də ola bilər. Mütəxəssis ekspert hər məlumatı təmkinlə və səbirlə qiymətləndirməyə çalışmalıdır. Tələsik qərarlar xətalara yol aça bilər.

Tüklərin anatomik quruluşuna əsasən insana və ya heyvana mənsub olmasını müəyyən etmək mümkündür. [2] Mütəxəssislər işıq mikroskopu ilə tükün qatlarını araşdıraraq bunu müəyyən edə bilir. İnsan tükünün qabığı qalındır. Piqment maddələri kiçik qranullar formasındadır və qabığın ətraf hissələrinə yayılmışdır. Heyvan tüklərində isə qabıq incə qatdan ibarətdir və böyük piqment qranulları daha çox mərkəzə doğru yayılmışdır. [18] Müayinə olunan tükün insana deyil, heyvana aid olması məlum olarsa, ikinci mərhələdə tükün hansı heyvana mənsub olması öyrənilir. Yüksək dərəcədə inkişaf etmiş məhkəmə genetik laboratoriyalarında insanlarla yanaşı it və pişik kimi ev heyvanlarının da genetik xəritələri hazırlanmışdır, yəni DNT analizi ilə həmin heyvanların hətta cinsini də təyin etmək mümkündür. [16]

Məhkəmə təbabətinin müasir şaxələrindən olan məhkəmə-tibbi və bioloji




***ŞƏKİL 2.* İNSAN VƏ MÜXTƏLİF HEYVANLARIN TÜK NÜMUNƏLƏRİ**
**1 – TÜLKÜ; 2 – YARASA; 3 – ORANQUTAN; 4 – ŞİR; 5 – AYI; 6 – QORİLLA; 7 – CANAVAR; 8 – DƏNİZ ASLANI; 9 – İNSAN**

genetika cinayətkarlıqla mübarizəyə böyük köməklik göstərir. Tük, saç, sümük, tər, qan, kəpək, tüpürcək və dəri töküntüləri kimi müxtəlif bioloji maddələrdən DNT identifikasiyası aparılır. [19] Tükün kimyəvi və anatomik araşdırılması ilə qiymətli məlumatlar əldə edilir. Məsələn, tüklərin xüsusi çəkisindən istifadə etməklə müayinə olunan tükün hansı insana mənsub olmasını və həmin insanın yaşını müəyyən etmək mümkündür.

Bir qrup mütəxəssis bərbər salonlarından götürdükləri saç nümunələrini eyni ərazilərdəki şəbəkə sularından götürdükləri nümunələr ilə müqayisə etmişlər və məhkəmə-tibb ekspertlərini yaxından maraqlandıran maraqlı nəticələr ortaya çıxmışdır. Saç numunələrinin oksigen və hidrogen izotopları miqdarındakı fərqlərin 90%-nin içilən suyun tərkibinin fərqli olmasından qaynaqlandığı məlum olmuşdur. Bu təcrübələrə əsaslanaraq, tük nümunələrinin araşdırılması ilə şəxsin yaşadığı yerin müəyyən edilməsinin mümkün olmasını söyləmək olar.

Saçlar kimi burun tükləri də məhkəmə təbabətində istifadə edilir. Ölümün başvermə müddəti məhkəmə təbabətində ən aktual məsələlərdən biridir. Bunun təyini üçün çoxlu üsullar vardır. [1] 2011-ci ildə İtaliyada maraqlı təcrübə aparıldı. Bu təcrübədə ölümün başvermə müddətinin təyini üçün burun tükündən istifadə edildi. Təcrübəyə görə burundakı tüklər ölüm baş verdikdən sonra 20 saata qədər hərəkətini davam etdirir və hərəkət sürətləri tədricən azalır. Mütəxəssis ekspertlər bundan istifadə edərək ölümün başvermə müddəti haqqında mühakimə yürüdə bilərlər.

Cinayət və cinayətkarlıqla mübarizədə müstəsna xidmətləri olan maddi sübutlar cinayətin açılmasında çox böyük rol oynayır. Cinayətkarın şəxsiyyətinin aşkar edilməsində ən əhəmiyyətli elmi üsullardan biri olan tüklər istər məhkəmə tibb ekspertləri, istər sübut toplayan istintaq işçiləri və istərsə də sübutları qiymətləndirən və həqiqətin müəyyən edilməsinə çalışan hakimlər tərəfindən yaxşı bilinməsi lazım olan bir sahədir. Məhkəmə zallarında "dilsiz şahidlər" olan qan, tüpürcək, tük, sperma və s. bioloji maddi sübutlar inkişaf edən texnologiyanın son nailiyyətlərindən istifadə etməklə ətraflı öyrənildikcə bir çox qaranlıq məqamların işıqlanması mümkün olacaqdır.

## ƏDƏBİYYAT

1. Məmmədov F.E., Əliyev R.Ə., Kazımov H.M., Hüseynov İ.X. "Ölümün başvermə müddətinin təyinində tətbiq edilən metodlar". "Sağlamlıq" jurnalı №2, Bakı, 2013

2. Yusifli R.M. Məhkəmə təbabətinin əsasları. "Osqar" nəşriyyatı. Bakı, 2001

3. Musayev S.M. Məhkəmə tibbi ekspertiza və onun imkanları. "Yeni Poliqrafist MMC", Bakı, 2009

4. Əliyev R.Ə., Allahverdiyev N.N., Məmmədov F.E. "Məhkəmə təbabətində genetik laboratoriyanın əhəmiyyəti". Silahlı Qüvvələrin Baş Klinik Hospitalı, Bülleten №2 (6), Bakı, 2013
5. Demircan K. Çözülen saç. "Bilim və Teknik", Ekim, 2012
6. Çetin G. "Adli tıpda saçın çözülmesi". İstanbul Universitesi Cerrahpaşa Tıp Fakultesi Adli Tıp Anabilim dalı. Basın taraması, 2010
7. Kan A., Öztoprak Z., Hekimoğlu T.S. Saç və kıllarda yapılan adli analizler, "Adli Tıp" dergisi, 2011
8. Arslan T.A. "Kıl delillerinin kriminalistik açısından önemi". Turkish Journal of Police Studies, Volume 2 (7-8) p.291-304
9. Bilge Y. ADLİ TIP. "Üçbilek" Matbaası, Ankara, 2008
10. Asirdizer M. Yavuz M.S. Zeyfeoğlu Y. Adli Tıp Strateji Ders Notları. Manisa, 2005
11. Kumar V., Cotran R.S., Robbins S.L. Basic Patology "Nobel Tıp kitabevleri", İstanbul, 2003
12. Bisbing R. E. "Forensic identification and association of human hair." Forensic Science Handbook. Vol. 1, 2nd ed., R. Saferstein, ed. Pearson Education, Upper Saddle River, New Jersey, 2002
13. Deedrick D. W. and Koch S. L. Microscopy of hair: "A practical guide and manual for human hair". Forensic Science Communications [Online]. 2004 Available: www.fbi.gov/hq/lab/fsc/backissu/jan2004/research/2004 01 research01b.htm.
14. Standiring S., Harold E., Johnson D., Jeremiah C.H., Williams A. Gray's Anatomy, Spain-2008
15. Stephen McPhee J., Lingappa V.R., Ganong W.F., LangeJ.D. Patophysiology of disease. San-Francisco. California, 2007
16. Hellman A., Rohleder U., Schmitter H. and Wittig M. "STR typing of human telogen hairs: A new approach". International Journal of "Legal Medicine", 2001
17. Houck M. M. and Budowle B. Correlation of microscopic and mitochondrial DNA hair comparisons. Journal of "Forensic Sciences", 2002
18. Linch C. A. and Prahlow J. A. "Postmortem microscopic changes observed at the human head hair proximal end". Journal of "Forensic Sciences", 2001
19. Linch C. A., Whiting D. A., and Holland M. M. "Human hair histogenesis for the mitochondrial DNA forensic scientist". Journal of "Forensic Sciences", 2001
20. Nussbaum R.L., McInnes R.R., Willard H.F. Thompson &Thompson Genetics in Medicine. Houston, Texas, 2005

# «SİLAHLI QÜVVƏLƏRİMİZDƏ QANUNÇULUĞUN TƏMİN EDİLMƏSİ ORDUMUZUN İNKİŞAFINA BÖYÜK TƏKAN VERİR»

**Polkovnik-leytenant Zakir HÜSEYNOV**



***Müsahibimiz Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Rauf Kişiyevdir.***

– Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi hüquq sisteminin möhkəmləndirilməsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquq və azadlıqlarının təmin olunması, sosial müdafiəsinin gücləndirilməsi kimi məsələlər Müdafiə Nazirliyi rəhbərliyinin prioritetlərindən biridir. Bununla əlaqədar olaraq görülmüş bir çox işlər ordu ictimaiyyətinə yaxşı məlumdur. Qeyd olunan fəaliyyətlə bağlı görülən işləri necə dəyərləndirərdiniz?

– Həqiqətən də, ordu quruculuğunda müşahidə olunan nailiyyətlər və uğurlar göz qabağındadır. İlk növbədə qeyd etmək istərdim ki, ordumuzun gücünü artıran və hərbi qulluqçuların döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri Azərbaycan Respublikasının Prezidenti – Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi diqqət və qayğıdır. Bu gün Azərbaycan əsgəri Vətəni şərəflə qoruyur. Mərkəzləşmiş idarəetmə sistemini həyata keçirən, vahid komandanlığa tabe olan, müasir hərbi texnika ilə təchiz olunmuş Silahlı Qüvvələrimiz düşmənə sarsıdıcı zərbə endirmək iqtidarındadır. Ordumuzun daha da möhkəmləndirilməsi üçün şübhəsiz ki, hərbi qulluqçuların layiqli həyat səviyyəsinin təmin edilməsi zəruridir. Bu hədəfə gedən yol isə hüquqdan keçir. Çünki qanunların birmənalı tətbiqi, hər kəsin hüququnun tələb olunan səviyyədə təmin edilməsi və bütövlükdə sağlam mühitin bərqərar olması döyüş gücünü ikiqat artırır. Hərbi qulluqçuların xidməti vəzifələrini uğurla yerinə yetirməsi həm də onlara göstərilən münasibətdən, diq-

qət və qayğıdan asılıdır. Ədalətli yanaşma və layiqincə qiymətləndirmə hər bir uğurun rəhnidir. Hərbi qulluqçuların və ailə üzvlərinin, həmçinin SQ-də çalışan mülki şəxslərin hüquqlarının qorunması və bu normativ-hüquqi aktın SQ-də tətbiqi üçün Müdafiə naziri tərəfindən müvafiq əmr imzalanmışdır. Hüquqi təminatda əsas yerlərdən birini maarifləndirmə tutur. Bunu misallarla göstərsək daha yaxşı səslənər. Məsələn, müəyyən kateqoriyadan olan mülki işçilərin hüquqi maariflənməsinin yaxşılaşdırılması üzrə proqrama siyasi-iqtisadi, sosial-mədəni hüquqi aspektlərin öyrədilməsi də əlavə edilmişdir. Bu mövzu hərbi qulluqçuların ümumi-siyasi hazırlıqlarında da dərs mövzusudur. Bu baxımdan ordumuzun gündəlik fəaliyyətində həyata keçirilən islahatlar çərçivəsində hərbi hüquqşünasların da öz töhfəsi vardır. Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən insan və vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Hərbi qulluqçular da qanunvericiliklə onlara verilmiş hüquqlardan müəyyən olunmuş qaydada istifadə edə bilərlər. Müdafiə Nazirliyinin timsalında dövlət də öz növbəsində onlara bu hüquqlardan istifadə etmək üçün şərait yaradır və onların hüquqlarının qorunması üçün hüquqi bazanın yaradılmasına cavabdehdir.

Ümumiyyətlə, istənilən cəmiyyətin inkişafı onun hüquqi təməlinin necə qurulmasından asılıdır. Çünki insan həyatını və bütövlükdə cəmiyyətin idarə olunmasını qaydalarsız, son nəticədə isə hüquqi və demokratik dövlətin qurulması və inkişafını onu tənzimləyən qanunlarsız təsəvvür etmək qeyri-mümkündür.

Silahlı Qüvvələrimizdə qanunçuluğun təmin edilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində dövlətimizin həyata keçirdiyi tədbirlər sistemində müvafiq qaydaların müəyyənləşdirilməsi, onların mövcud qanunvericiliyin tələbləri nəzərə alınmaqla təsbit edilməsi, ümumilikdə inkişada olan Azərbaycanın müasir cəmiyyətinin tərkib hissəsi olan ordumuzun inkişafına da böyük təkan verir.

Milli qanunvericiliyin ardıcıl inkişafında beynəlxalq hüquq normalarının müstəsna rolu danılmazdır. Azərbaycan Silahlı Qüvvələri tam bərabərhüquqlu tərəfdaş olaraq əməkdaşlıq etdiyi xarici ölkələrin Silahlı Qüvvələrinin hüquq sahəsindəki təcrübəsini daim öyrənir, müsbət nailiyyətlərin Silahlı Qüvvələrimizdə həyata keçirilməsinin mümkünlüyünü nəzərdən keçirir.

Biz həm ölkəmizin ayrı-ayrı qurumları ilə sıx əməkdaşlıq edir, həm də dünya ordularının hüquq təşkilatları ilə əlaqələr yaradaraq təcrübə mübadiləsi həyata keçiririk. Hərbi hüquqşünaslar "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində müxtəlif ölkələrdə-seminarlarda iştirak edirlər. Hərbi qanunvericiliyin təkmilləşdirilməsində biz həmin qazanılmış təcrübədən istifadə edirik,

o cümlədən də onlar bizim hüquq sistemindən və hərbi sahədə tətbiq olunan qanunçuluq prinsiplərindən müəyyən nümunələr götürürlər. Hazırda idarəmizin nəzdində fəaliyyət göstərən hərbi təhqiqat orqanının yaradılması bəzi ölkələrdə böyük maraq yaratmışdır. Qazaxıstan, Türkiyə və s. kimi ölkələrin hərbi hüquqşünasları birgə seminarlarda yeni yaradılmış orqanla bağlı təfərrüatları öyrənib öz ordularında həyata keçirməyə maraq göstərirlər.

Bu baxımdan ölkə qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlərdən "İnsan hüquqları haqqında Ümumi Bəyannamə", "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası, "İşgəncələrin, digər qəddar, insan ləyaqətini alçaldan, rəftar və cəza növlərinin qadağan olunması haqqında" Konvensiyaların və onların protokollarının tələblərinin ölkədaxili qanunvericilik aktlarına sirayətini göstərmək olar.

Bir çox təqdirəlayiq işlərin görülməsinə rəğmən, Müdafiə Nazirliyinin Hüquq İdarəsi bununla öz fəaliyyətini məhdudlaşdırmır və son hədəfə doğru – hərbi qulluqçuların hüquqlarının tam və qeyd-şərtsiz təmin edilməsi, onların xidməti fəaliyyətinin uğurlu həyata keçirilməsi üçün tələb olunan hüquq bazasının təşəkkül tapmasında öz səylərini davam etdirməkdədir.

– Hüquqi islahatlar, hərbi hüquq sistemində yeniliklərlə bağlı nələri qeyd etmək olar, daha hansı yeniliklər nəzərdə tutulub?

– Hərbi hüquq sisteminin təkmilləşdirilməsi qanunvericiliyin daim diqqətindədir. Bu müstəvidə Müdafiə Nazirliyinin də fəaliyyətini qeyd etmək yerinə düşər. Müdafiə Nazirliyi ölkənin əsas dövlət orqanlarından biri kimi, bir neçə yeni qanunvericilik aktının layihələrini hazırlamış, aidiyyəti dövlət qurumları ilə razılaşdırmış və onları müvafiq instansiyaya təqdim etmişdir. Barəsində danışılan layihələrin bir qismi üzrə müvafiq işlər tamamlanmaq üzrədir. Yəqin ki, sizinlə edəcəyimiz növbəti söhbətlərdə biz artıq layihələr ətrafında deyil, qəbul edilmiş sənədlərin icra səviyyəsi barədə fikir mübadiləsi aparacaq, rast gəlinən çətinliklərin aradan qaldırılması yolları haqqında birgə düşünəcəyik.

Lakin təvazökarlıqdan kənara çıxaraq, bəzi nailiyyətlərimiz haqqında olan məlumatları oxucularımızla bölüşmək istərdim.

Hərbi qulluqçuların hüquq və azadlıqlarını, vəzifələrini və statusunu müəyyən edən, hərbi qanunvericiliyin əsas və bəlkə də ən birinci olan normativ hüquqi aktının – "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsi hazırlanmışdır. Həmin layihə Müdafiə Nazirliyinin Hərbi Kollegiyasının geniş iclasında müzakirə edilmiş, verilmiş təkliflər nəzərə alınmış və layihə təkmilləşdirilərək son versiya şəklinə salınmışdır.

Qanun layihəsində hərbi qulluqçuların, onların ailə üzvlərinin, ehtiyata və istefaya buraxılmış şəxslərin sosial və hüquqi təminatının daha da yaxşılaşdırılması üçün biz bir sıra yeni müddəalar daxil edilmişdir. Bundan başqa layihə

hərbi xidmətin hər bir vətəndaşın şərəf işinə çevrilməsi, hərbi intizamın yüksəldilməsi və şəxsi heyətin qanun-qaydalara hörmət ruhunda tərbiyə olunması, hərbi qulluqçuların sosial-məişət şəraitinin müasir tələblər səviyyəsində yaxşılaşdırılması və sair istiqamətlərdə hüquqi nizamlanmanı ehtiva edən müddəaların reallaşdırılmasını nəzərdə tutur.

Silahlı qüvvələrdən ehtiyata və istefaya buraxılmış şəxslərə istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi məqsədilə Nazirlər Kabinetinin müvafiq qərarının layihəsi hazırlanmışdır. Göründüyü kimi, həmin şəxslərin hüquqlarının təmin olunması üçün zəruri tədbirlər davam etdirilir.

Silahlı qüvvələrdə aparılan islahatlar çərçivəsində hərbi hissə komandirlərinin hərbi nizamnamələr və normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlarının icrasına imkan verən, habelə hərbi geyim formalarının yenilənməsini, fərqləndirmə nişanlarının daşınması qaydalarının təkmilləşdirilməsini nəzərdə tutan sənədlərin layihələri hazırlanmışdır.

Silahlı qüvvələrin hərbi nizamnamələrinin yeni redaksiyalarının hazırlanmasında yaxından iştirak edilmiş, Müdafiə Nazirliyinin aparatına daxil olan idarə, şöbə və xidmətlərin hüquq və vəzifələrini, fəaliyyət istiqamətlərini müəyyənləşdirən əsasnamələrin hazırlanmasında hüquqi yardım göstərilmiş və hüquqi ekspertizalar keçirilmişdir.

– Hərbçilər hüquqi yardımı necə əldə edə bilər, hər hansı mübahisəli məsələdə onların hüquqlarını müdafiə mexanizminin sadə forması haqqında nələri qeyd etmək olar?

– Hüquqi müdafiənin, daha doğrusu, hüququn müdafiəsinin təmin olunması bir tərəfdən qanunvericilikdə bəyan olunmuş, digər tərəfdən hüquqi yardım almaq hüququnun özünün müvafiq mexanizmləri mövcuddur.

Silahlı qüvvələrimizin hər bir hərbi qulluqçusu, Azərbaycan Respublikasının vətəndaşı kimi, öz hüquqlarını həyata keçirmək üçün və ya pozulmuş hüququnun bərpası üçün aidiyyəti dövlət orqanlarına, habelə hüquq-mühafizə orqanlarına və məhkəmələrə real müraciət etmək imkanına malikdir. Bunun üçün kifayət qədər hüquqi baza mövcuddur. Eyni zamanda, Müdafiə Nazirliyinə istər hərbi qulluqçulardan və ya onların ailə üzvlərindən, istərsə də, vətəndaşlardan daxil olan bütün müraciətlər səlahiyyətləri daxilində aidiyyəti vəzifəli şəxslər tərəfindən mahiyyəti üzrə baxılır, zəruri tədbirlər görülür və bu haqda müraciət müəllifləri məlumatlandırılırlar.

Müdafiə Nazirliyi rəsmi internet portalında (mod.gov.az) “Müraciətlər” bölməsi vardır. Həmin bölmənin yaradılması Azərbaycan Respublikası Prezidentinin diqqətdə saxladığı elektron müraciətlərə baxılması işinin qurulması çərçivəsində həyata keçirilmişdir. Daxil olan bütün elektron müraciətlər baxılması üçün aidiyyəti üzrə müvafiq idarə və xidmətlərə verilir, müraciət müəl-

liflərinə isə bu müraciətlərin alınması barədə dərhal təsdiqetmə bildirişləri göndərilir.

Müdafiə Nazirliyidə müəyyən olunmuş müddətlərdə müraciətlərə baxılması işi təhlil olunur, müraciətlər mahiyyətindən asılı olaraq təsnifatlandırılır, müraciət edən şəxslərin qaldırdığı məsələlər prioritetləşdirilərək əsas diqqətin hansı sahələrə ayrılmasının zəruriliyi müəyyənləşdirilir və bununla bağlı lazımi addımlar atılır.

Bu işin şəffaflığı və ictimaiyyət üçün açıq olması həm də bunda təzahür edir ki, Müdafiə Nazirliyi digər dövlət orqanları kimi, müraciətlər üzrə görülmüş tədbirlər haqqında mütəmadi olaraq hesabatlar verir. Məsələn, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İnsan hüquqları üzrə Müvəkkilin aparatına (Ombudsmana) və digər nəzarətedici orqanlara vaxtaşırı hesabatlar təqdim olunur.

Müdafiə Nazirliyi hərbi qulluqçularının hüquqlarının təmin olunması üçün həyata keçirdiyi fəaliyyət və göstərdiyi dəstək öz-özündə bütün problemləri həll edə bilməz. Burada əsas vəzifə həm də insanların üzərinə düşür. Hüquqi maariflənmə və hüquq mədəniyyətinin yüksəldilməsi üçün hər bir hərbi qulluqçu özü təşəbbüs göstərməlidir. Bu baxımdan bütün hərbi qulluqçularımızı hüquqi savadlanmaya dəvət etmək istərdim. Beləcə, hər kəs bu böyük işdə öz kiçicik töhfəsini verməklə Müdafiə Nazirliyinə də çətin işlərin həllində köməklik etmiş olar.

Heç kəs hərbi qulluqçunun şikayət vermək hüququndan məhrum edə bilməz. Üstəlik, qanunvericiliyin tələblərinə görə, şikayət verəni cəzalandırmaq və ya buna görə təqib etmək qadağandır. Ona görə də bütün hərbi qulluqçularımızı öz hüquqlarını öyrənməyə və onları müdafiə etməyə, həmçinin bununla bağlı komanda üzrə məlumat verməyə çağırıram. Çünki yalnız bu yolla komandirlərlə tabelikdəki şəxslər arasında tam etimad mühiti yaratmaq, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə nail olmaq mümkündür.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş tədbirlər sırasında həm də Hüquq İdarəsinin əməkdaşlarının düşmənlə bilavasitə təmas xəttində yerləşən bölmələrə ezamiyyətlərini qeyd etmək yerinə düşərdi. Təkcə cari ilin birinci yarısında düşmənlə bilavasitə təmas xəttində yerləşən hərbi hissələrə dəfələrlə səfərlər edilmiş, şəxsi heyətlə görüşlər keçirilmişdir. Ezamiyyətlər zamanı təhlükəsizliyin qorunması baxımından təmas xəttindəki post və səngərlərin ümumi vəziyyətinə baxışlar keçirilmiş, şəxsi heyətin döyüş əzminin və mənəvi-psixoloji hazırlığının ümumi səviyyəsi öyrənilmiş, keçirilmiş görüşlər zamanı müxtəlif problemlər müzakirə olunmuş, onların aradan qaldırılması üçün təkliflər verilmiş, problemlərin bir qismi isə elə yerindəcə həll edilmişdir.

– Silahlı Qüvvələrin üzərində vətəndaş nəzarəti hansı formada həyata

keçirilir?

– Müdafiə Nazirliyi respublikamızın digər mərkəzi icra hakimiyyəti orqanları kimi üzərinə qoyulmuş vəzifə və tapşırıqların icrasına görə məsuliyyət daşıyır. Şübhəsiz ki, məsuliyyət olan yerdə də hesabatlılıq mövcuddur. Müdafiə Nazirliyi ölkənin digər rəsmi qurumları ilə əməkdaşlığa önəm verdiyi kimi, həm də qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın marağındadır və bir çox QHT-lərlə hazırda əməkdaşlıq edir. Belə təşkilatlara vaxtaşırı hərbi hissələrə gəlib əsgərlərin həyat şəraiti, mənəvi-psixoloji ab-hava ilə tanış olmaq imkanları yaradılmışdır. Qoşunlar müntəzəm olaraq beynəlxalq müşahidəçilər tətəfindən yoxlanılır, jurnalistlər və KİV nümayəndələri tez-tez hərbi hissələrdə olur, qoşunların və hərbçilərin məişət və həyat-fəaliyyətləri ilə tanış olurlar. Bundan başqa, rəhbərliyin qərarı ilə MN-də vaxtaşırı KİV nümayəndələri üçün press-konfranslar keçirilir. Onu da demək yerinə düşər ki, bu istiqamətdə yeniliklər həyata keçiriləcəkdir.

– Müdafiə Nazirliyinin təhqiqat orqanlarının fəaliyyət göstərməsindən artıq bir neçə il keçib. Cinayətlərin azalmasında, hərbi hüquq sisteminin mükəmməlləşməsində təhqiqat orqanlarının rolunu necə qiymətləndirərdiniz?

– Əminliklə demək olar ki, Müdafiə Nazirliyi sistemində təhqiqat orqanlarının yaradılması tamamilə düzgün bir addım olmuşdur. Bu orqanların yaradılmasının zəruriliyi artıq bu gün göz qabağındadır. Statistik göstəricilərə görə, Silahlı Qüvvələrdə cinayətkarlığın ümumi səviyyəsi azalmaqdadır. Bir çox amillər cinayətlərin sayının azaldılmasına öz təsirini göstərməkdədir. Ordumuzun maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial vəziyyətinin durmadan yüksələn xətt üzrə yaxşılaşdırılması, komandir və rəislərin ardıcıl olaraq həyata keçirdikləri maarifləndirmə fəaliyyəti, cinayət və hadisələrin qarşısının alınması üçün görülən profilaktik tədbirlər, şəxsi heyətin qanunlara hörmət ruhunda tərbiyə olunması, cəzanın qaçılmazlığı prinsipinin dönmədən tətbiqi, hərbi qulluqçuların hüquq mədəniyyətinin artması və digər amillər cinayətkarlığın səviyyəsinin azalmasına xidmət edir. Bütün bu işlərin vəhdətdə həyata keçirilməsi və onların təhqiqat orqanlarının həyat və fəaliyyətində böyük rol oynaması danılmazdır.

Təhqiqat orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində də işlər görülür. Misal üçün deyə bilərəm ki, cari ilin mayında Müdafiə nazirinin müvafiq qərarı ilə təhqiqat qanunlarının fəaliyyətini və xidməti araşdırmaların aparılması qaydasını tənzimləyən yeni qərar qəbul edilmişdir. Bu qərar araşdırmaların hansı qaydada aparılmasını müəyyən edir, bu sahədə təhqiqat orqanlarının və hərbi hissələrin qarşılıqlı fəaliyyətini nəzərdə tutur.

– Bildiyiniz kimi, hərbi intizamın yüksək səviyyədə saxlanılması üçün hərbi qulluqçuların intizam həbsi təsirli intizam tənbehi vasitələrindən biri hesab oluna bilər. Bu baxımdan, Silahlı Qüvvələrdə görülən işlər haqqında nə deyə

bilərsiniz?

– Məlum olduğu kimi, «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu vardır. Bu qanunda göstərilən həbs yerləri sırasında hauptvaxtlar da öz yerini tutur. Yuxarıda qeyd etdiyim kimi, hərbi nizamnamələrin yeni layihələrinin hazırlanması işində Müdafiə Nazirliyi Hüquq İdarəsi yaxından iştirak edir. O cümlədən, İntizam Nizamnaməsinin yeni layihəsi üzərində olan iş başa çatmaq üzrədir. Həmin layihədə intizam həbsinə dair müddəalar nəzərdə tutulmuş, onların effektiv icrası üçün müvafiq mexanizmlər işlənib hazırlanmışdır.

İntizam həbsinin konkret intizam xətalarına görə tətbiq edilməsi mexanizminin mövcudluğu birinci növbədə komandir və rəislərin səlahiyyət həddini aşmamaları üçün zəruridir. Elə bu səbəbdən bütün komandir və rəislərin intizam səlahiyyətlərinin dairəsi dəqiq təyin edilmiş, yol verilmiş hüquqpozmalara görə məsuliyyətin qaçılmazlığı təsbit edilmişdir.

– Məsuliyyəti dərk etmək üçün bu və bu kimi tədbirlər yaxşı vasitələrdir.

– Komandirlər yanlız özlərinə görə məsuliyyət daşımırlar. Onlar həmçinin tabeliklərində olanların hərəkətlərinə (hərəkətsizliyi) görə cavabdehdirlər. Çünki rəhbərin qanuni gücü ona tabe olanları idarə etməyə və öz mövqeyi dairəsində fəaliyyət göstərməyə imkan verir. Səlahiyyət qanunla verilir və tənzimlənir. Rütbələrindən asılı olmayaraq bütün rəhbərlər tapşırığı yerinə yetirmək üçün öz səlahiyyətlərini göstərməkdə məsuldurlar. Hərbi qulluqçular tapşırığı yerinə yetirmək üçün səlahiyyətləndirilməlidir. Lakin bu o demək deyil ki, qanundankənar metodlara əl atılsın. Onlar sülh və müharibə dövründə tabelikdəki şəxslərin təlim-tərbiyəsinə, hərbi intizam və mənəvi vəziyyətinə, sıra hazırlığı və zahiri görkəminin səliqəsinə, silahlardan, döyüş texnikası və digər texnikadan, ləvazimatdan, geyimdən düzgün istifadə olunmasına və onların saz saxlanılmasına, döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə cavabdehdirlər.

– Hərbçilərin hüquqlarının pozulmasına gətirib çıxaran faktorlar əsasən nədən qaynaqlanır?

– Bu, özünü əsasən hərbi qulluqçular arasında baş verən qeyri-nizami münasibətlərdə göstərməkdədir. Bu da bildiyimiz kimi, son nəticədə hərbi intizamın pozulmasına və orduda cinayət və hadisələrin baş verməsinə gətirib çıxarır. Bəzi özbaşınalıq faktları da məlumdur ki, bu da birincilərə nisbətdə çox da geniş yayılmamışdır.

– Yəqin ki, SQ-də insan hüquqlarının qorunması özünəxas yanaşma tələb edir.

– Məlum olduğu kimi, dövlət başçısının 28 dekabr 2006-cı il tarixli qərarına əsasən Azərbaycan Respublikasında insan hüquqlarının qorunması üçün Milli Plan təsdiq edilmişdir. Bildiyimiz kimi, ordu dövlət qurumudur və orada

hərbi forma geyinmiş “mülkilərin” hüquqi problemlərinin həlli xüsusi yanaşma tələb edir. Buna görə də öz hüquqlarını yaxşı bilən və bunu başqalarına da öyrədən mütəxəssislərin hazırlanması lazımdır. Bu, fikrimizcə “insan hüququ üzrə təlimatçı”ların yetişdirilməsi ilə baş tuta bilər. MN artıq Ədliyyə və Təhsil Nazirliyinə bu yönümlü mütəxəssislərin hazırlanmasında köməklik göstərilməsi ilə bağlı müraciət etmişdir.

– Bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edir və işlərinizdə uğurlar arzulayıram.

– Mən də Sizə öz növbəmdə təşəkkür edirəm. Hüquq İdarəsinin fəaliyyətini işıqlandırmağınız, Müdafiə Nazirliyinin nailiyyətlərinin önə çəkilməsi önəm kəsb edir. İstərdik ki, nazirliyin rəhbərliyinə bu işdə hər kəs dayaq olsun və əlindən gələni əsirgəməsin.

## XARİCİ ORDULARDA

### SƏRHƏDİ ROBOTLAR QORUYACAQ

**Texnika müəyyən qanunauyğunluqlara görə inkişaf edir. Belə qanunauyğunluqlardan biri də “insanın texniki sahədən sıxışdırılıb çıxarılmasıdır”. Bu, əsası çoxdan qoyulan və qarşısıalınmaz bir prosesdir ki, bariz nümunəsini PUA-da görmək olar.**

**Artıq dövlətin quru sərhədlərinin qorunması sisteminin də dəyişdirilməsinin vaxtı gəlmişdir. Cənubi Koreya sərhədçiləri Koreya Xalq Demokratik Respublikası ilə demarkasiya xəttinin 300 km-lik sahəsində Samsung Techwin şirkəti tərəfindən hazırlanan SGR-1 robot-pulemyotları quraşdırmışlar. İndi sərhədçilərə sərhədboyu əraziləri gəzməyə ehtiyac yoxdur. Belə ki, onlar çoxsaylı vericilərdən (radar, videokamera, gecəgörmə qurğuları, səstanıma sistemləri) daxil olan məlumatları rahat otaqlarda əyləşərək rahatlıqla izləyə biləcəklər. Robotlar 5,5 mm çaplı pulemyotlar və 40 mm çaplı avtomatik qumbaraatanlarla təchiz edilmişdir. Bir ədəd robotun qiyməti təxminən 200 min ABŞ dollarıdır. Robotlar avtonom rejimdə işləyir və düşmən aşkarlandıqdan sonra atəş əmrini yalnız sərhədçilər verirlər. Robotlar hələ belə qərarvermə imkanlarına malik deyillər.**

**Əgər sınaqlar uğurlu olarsa, Cənubi Koreyada belə robotların hərbi xidmətdə də istifadəsinə qərar veriləcəyi gözlənilir.**

# FƏXR EDİRƏM Kİ, BU YOL ÖMÜR YOLUMDUR

Minaxanım ƏKRƏMQIZI



***Məndən arxada qalan, göylərə boylanan ağaclar və nəhayətsiz yollar çox pərişan görünür. Sanki nəsə demək istəyir, məni harasa tələsdirir. Yolun çoxunu qət etmişəm. Ezam olunduğum cənub bölgəsinə yaxınlaşdıqca ılıq xəzri küləyi elə bil məni salamlayır...***

Artıq “N” saylı hərbi hissədəyəm. Burada gördüyüm ürəyə yatımlıq – ağacların və çiçəklərin füsunkarlığı, səliqə-səhman yaratmaq məqsədilə düzülmüş daşların nizamı, ən əsası, təmizlik mənim jurnalist kimi yox, bir təbiətsevər olaraq diqqətimi cəlb edir.

Hərbi hissənin girişində rastlaşdığım – Qarabağ döyüşlərində hərbi hissənin şəhid olmuş döyüşçülərinin adlarının əks olunduğu xatirə abidəsi hərbi hissədə həm vətənpərvərlik hisslərinin aşılanmasının canlı nümunəsi, həm də mənəvi-psixoloji işin təşkilinin və döyüş ruhunun yüksək olmasından xəbər verirdi...

Hərbi hissənin komandiri Rasət Şirinov təvazökarlıqdan özü haqqında heç bir söz deməsə də Azərbaycan ordusunda layiqli zabit kadrlarının olması ilə qürur duyduğunu deyərək, hərbi hissədə xidmət edən zabitlərdən mayor Etibar Bağırov, leytenant Nəbi Zeynalov, baş leytenant Allahyar Məmmədov, kapitan Elvin Namazov və digərlərinin adlarını çəkdi. Onların əldə etdikləri bilik və təcrübə əsasında hər birinin icra etdiyi vəzifəyə layiq olduqlarını söylədi. Məqsədim nümunəvi bir zabit haqqında material hazırlamaq idi. Hərbi hissənin komandiri kapitan Ramiz Eminov haqqında məlumat verərək, onu təqdim etdi.

Eminov Ramiz İlyas oğlu. 1980-ci il 4 iyul tarixində Qazax rayonunun Aslanbəyli kəndində anadan olmuşdur. 1995-ci ildə C.Naxçıvanski adına Hərbi liseyə daxil olmuş, 1998-ci ildə Hərbi liseyi müvəffəqiyyətlə başa vurduqdan sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmuşdur. 2002-ci ildə ali hərbi məktəbi bitirdikdən sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində artilleriya ixtisası üzrə təhsil almışdır.

Kapitan R. Eminov artilleriya ixtisası üzrə təhsil aldıqdan sonra hərbi hissədə bölmənin baş zabiti və batareya komandiri vəzifələrini icra etmişdir. Ön xətt hərbi hissələri də daxil olmaqla müxtəlif hərbi hissələrdə xidmət edən

kapitan R.Eminov bir çox təkmilləşmə kurslarının məzunu olmuşdur.

Daha bir zabitin keçdiyi çox maraqlı xidmət yolu ürəyimi fərəh hissi ilə doldurur. Yadıma sərkərdə Suvorovun məşhur olan: - "General olmaq istəməyən əsgər, əsgər deyil" – deyimi düşdü. Doğurdan da savadlı və bilikli, hərtərəfli dünyagörüş və təcrübəyə sahib olan zabit kadrlarına ordumuzun bu gün daha böyük ehtiyacı var və fəxr edirəm ki, bu yolu özünə ömür yolu seçən zabitlərimiz də az deyil.

Mənim – "necə oldu ki, hərbçi oldunuz", sualıma müsahibim belə cavab verdi: – Hərb sənətinə olan marağı və məhəbbəti məndə atam oyadıb. Onun arzusu məni hərbçi görmək olub. Mənim təhsil yolumun C.Naxçıvanski adına Hərbi liseydən başlanması atamın tövsiyəsi ilə alınıb. Daha sonralar bu işin məsuliyyətini və şərəfini dərk etdikcə hər zaman atama ürəyimdə minnətdarlıq hissi bəsləmişəm. Mən Vətənin qoynunda hərbi təhsil aldım, təhsilimin ardınca gedib bilik və bacarığımın artmasına can atdım, müəllimlərimin və komandirlərimin məsləhətlərini, qərar və göstərişlərini sözsüz yerinə yetirərək Vətənimə və xalqıma layiqli oğul olmağa çalışdım. Mən fəxr edirəm ki, bir əsrə yaxın yaranma tarixi olan ləyaqətli Azərbaycan ordusunun zabitiyəm. Vətənə gərək olmaq, onun ağır günündə baş verən hadisələrin seyrçisi yox, iştirakçısı olmaq, bu gün ön sırada olub Vətənə qulluq etməkdən şərəfli bir iş nə ola bilər?

– Əsgərlərlə apardığınız təlim-tərbiyə işləri haqqında bir neçə kəlmə... – deyə soruşdum.

– Əsgərlərlə təlim-tərbiyə işini ilk gündən qururuq. Çağırışçılarla xüsusi məşğul oluruq. Hər bir gənc evdən, ailədən ayrıldıqdan sonra müəyyən müddət ərzində xidmətə uyğunlaşması prosesi çətin olur. Adaptasiya prosesində hər bir əsgərə fərdi yanaşır, onu narahat edən hər bir hadisəyə münasibət bildirir, onların yanında olduğumuzu hiss etdiririk. Heç bir fərq qoymadan hər bir əsgəri qoruyur, xidməti dövründə onun qarşısına çıxan çətinlikləri dəf edərək layiqli xidmət etməsinə köməklik göstəririk.

– Siz iki oğul atasısınız. Arzu edərdinizmi ki, gələcəkdə övladlarınız Sizin kimi hərbçi olsunlar?

– Mən bununla ancaq fəxr edərdim.

Müsahibim bir zabit olaraq bu yerə gəlib çatmasında təhsil aldığı hərbi məktəbin zabit heyətinin, müəllim kollektivinin və komandirlərinin, eyni zamanda onun üzərində əziyyəti olan hər bir insanın əməyini yüksək qiymətləndirdi və onlara öz minnətdarlığını bildirdi.

P.S. Daha sonra öyrəndim ki, müsahibim Ramiz Eminov Silahlı Qüvvələrin yaranmasının 96-cı ildönümü münasibətilə komandanlıq tərəfindən mayor rütbəsinə layiq görülmüşdür.

# TRANSMİLLİ TƏHDİDLƏR VƏ ÇAĞIRIŞLAR

**Polkovnik-leytenant Zaur YUSİFLİ**
**SİLAHLI QÜVVƏLƏRİN HƏRBİ AKADEMİYASI**

***Açar sözlər:*** transmilli təhdidlər, qloballaşma, narkotiklər, terrorizm, kütləvi qırğın silahları (KQS).

***Ключевые слова:*** транснационалные угрозы, глобализация, наркотики, терроризм, оружие массовые поражение (ОМП).

***Keywords:*** transnational threats, globalization, drugs, terrorism, weapon of mass destruction.

**QLOBALLAŞMA ÇOXŞAXƏLİ HADİSƏDİR**

İnformasiya və digər müasir texnologiyaların dinamik və geniş inkişafı prosesi gedir. Qlobal miqyasda ticarət, həmçinin xüsusi kapital və investisiya axını geniş yayılmaqdadır. Həyatımızın bütün aspektləri arasında qarşılıqlı asılılıq güclənir. Bütün bunlar iqtisadi inkişaf, siyasi azadlıqların yayılması və sülhün möhkəmlənməsi üçün real imkanlar yaradır. Bununla belə, bu proseslər zorakılıq və münaqişələr toxumunu səpən sosial fraqmentasiyanı stimullaşdırır. İqtisadi böhranlar milli sərhədlərin hüdudlarından kənara çıxaraq qlobal çətinliklər törədir. [1]

Biliklərin, qabaqcıl texnologiyaların yayılması və insanların kütləvi yerdəyişməsi nəticəsində bir çox təhdidlər qlobal miqyas və təhlükəli xarakter alıb. Bütün bu proseslər genişlənməkdə olan qlobal iqtisadi qarşılıqlı təsirlə birlikdə narazılıqlar və bəzi problemlər doğurmaqdadır.

Bu gün qloballaşmanın müxtəlif aspektlərinin birləşməsi bir çox transmilli təhdidlərin: silahlı basqınların, kiber-hücumların, etnik zorakılığın, qlobal cinayətlərin, narkotiklərin qeyri-qanuni ticarətinin, yoluxucu xəstəliklərin yayılmasını, habelə ictimai mühitin pisləşməsini sürətləndirir.

“Transmilli” termini milli sərhədlərlə məhdudlaşdırılmayan və çox zaman milli hökumətlərin birbaşa nəzarətindən kənarda olan fenomenlərə münasibətdə işlədilir. Transmilli təhdidlərə terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya, KQS qaçaqmalçılığı, ətraf mühitin irimiqyaslı deqradasiyası və s. aid edilir. Bu təhdidlər beynəlxalq siyasətə yetərincə təsir göstərməkdədir.

Əksər transmilli təhdidlər bir-biri ilə qarşılıqlı əlaqədədir. Terrorçu və ya üsyankar qrupların siyasi motivlərlə hərəkətə gətirilməsinə baxmayaraq, onlar əksər hallarda pul və ya silah müqabilində narkotik alverçilərinin silahlı müdafiəsini təmin edirlər. [2]Və ya əksinə, mütəşəkkil cinayətkar qruplar və narkotik alverçiləri onları ədalət mühakiməsinə cəlb etməyə can atan hökumət müəssisələrinə və onların əməkdaşlarına qarşı terror aktı törədirlər. Bu fəaliyyət bir neçə dövlətin ərazisində iş aparan gizli şəbəkələrə söykənir. Bu cür hərəkətlər beynəlxalq qanunların pozulması hesab edilir. Beləliklə, motivasiyaların üst-üstə düşməməsinə baxmayaraq, beynəlxalq cinayətkar narkoşəbəkələrin və terrorçu qrupların əksər hərəkətləri eyni səciyyə daşıyır. İctimai asayişi təhdid etmək üçün bir neçə dövlətin sərhədlərini asanlıqla keçən bu cür gizli təşkilatlar qanunun aliliyini sarsıdır və cəmiyyətin düzgün idarəçiliyini pozur.

Beynəlxalq münasibətlər mühitinin kifayət qədər qeyri-müəyyən olması siyasət hazırlayanlar üçün ən ağır problemlərdən birinə çevrilib. Bir çox ölkələrin daxili iqtisadi və sosial sabitsizlik nəticəsində zəifləməsi bu cür şəraitin daha da kəskinləşməsinə səbəb olur. Bəzi hökumətlər öz şəxsi vətəndaşları ilə, habelə parçalanmış və ya mübahisəli ərazilərdə hakimiyyət uğrunda mübarizə aparan qruplarla mübarizədə zəifləyib. Xarici yardım hesabına öz mövcudluğunu saxlamış bəzi rejimlər bu gün dəstək və maliyyə yardımından məhrum olublar. Xarici yardımın və çəkindirici amillərin zəifləməsi nəticəsində toplanıb qalmış daxili problemlər üzə çıxır və qlobal sabitliyə çoxsaylı təhdidlər yaradır.

Transmilli təhdidlər əlverişli mənbədən qidalanır. Dövlətin zəifləməsi, qanunların işləməməsi, keçid dövrünün idarəetmə prosesində törətdiyi çətinliklər, dövlət məmurlarının korrupsiyaya qurşanması, cinayətkar qrupların hakim dairələrə yaxın vəzifəli şəxsləri satın alması və s. transmilli cinayətlərin inkişafını şərtləndirən amillərdir.

Transmilli təhdidlər iki kateqoriyaya: uzunmüddətli və bilavasitə təhdidlərə bölünür. Uzunmüddətli təhdidlərə nəticələri dərhal özünü büruzə verməyən təhlükələr aid edilir. Həmin təhdidlərin dərk edilməsinə və onlara qarşı mübarizəyə az resurs sərf edilir. Belə təhdidlər tədricən yığılaraq, sonradan qlobal təhlükəsizliyə ciddi təhlükə törədir. Bu təhdidlərə ətraf mühitin deqradasiyası, kompyuter cinayətləri, KQS- qaçaqmalçılığı, qlobal infeksiyalar və səhiyyə məsələləri, qeyri-qanuni ticarət, miqrasiya və s. aiddir.

Bilavasitə və birbaşa təhlükələr hazırda yaşadığımız dünyada faciəli nəticələri ilə özünü büruzə verməkdədir. Onlara terrorizm, beynəlxalq mütəşəkkil cinayətlər, həmçinin narkotiklərin və silahların qanunsuz dövriyyəsi şamil edilir. Mütəşəkkil cinayətkarlıq və terrorçu qruplar olduqları dövləti tədricən

dağıdırlar. Bu təhlükələrin miqyası suveren dövlətlərin hakimiyyət və iqtisadi qüdrətini üstələyir.

Transmilli mütəşəkkil cinayətlər (TMC) artıq cinayətkar təşkilatların fəaliyyət sferası sayılmır [3]. O, dünyada fəaliyyət göstərən əksər silahlı qüvvələrin ən mühüm strateji fəaliyyətinə, həmçinin terrorçuların, korrupsiyaya qurşanmış siyasətçilərin, səhra komandirlərinin və beynəlxalq hüquqa riayət etməyən hökumətlərin maliyyə mənbələrinə çevrilib. Qloballaşma TC şəbəkələr ilə silahlı münaqişələrin və zəif dövlət sisteminin mövcud olduğu ərazilərin subyektləri arasında tərəfdaş münasibətlərin yoluna qoyulmasını asanlaşdırır və sanki o subyektləri mükafatlandırır ki, onların qlobal bazarla öz şəxsi əlaqələrinin yaradılması hesabına "qanunsuzluğun istehsalında nisbi üstünlüyə" malik olsun.

Hazırda bu gizli əlaqələri dərk etmək və onlara həqiqi reaksiya göstərmək üçün çoxtərəfli təşkilatların zəruri analitik və operativ instrumentləri kifayət etmir. Bunun əvəzində həmin təşkilatlar kriminal, münaqişə və korrupsiya arasında təhlükəli strateji əlaqələrin tam qurulmasından öncə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə metodu kimi narkotik vasitələr üzərində beynəlxalq nəzarət rejimi və milli polis mexanizmlərinə ümid bəsləyirlər.

Dövlətlər və beynəlxalq təşkilatlar əksər hallarda TMC-nın hökumət, cəmiyyət və ölkə iqtisadiyyatı üçün strateji təhlükələrə çevrilməsini görə bilmirlər. Mövcud beynəlxalq razılaşmaların, məsələn, TMC-yə qarşı BMT Konvensiyası (**Palermo konvensiyası**) və narkotik vasitələr üzərində beynəlxalq nəzarət rejiminin milli səviyyədə birgə hüquq-mühafizə hərəkəti üçün əsas yaratsa da, bu gün dövlətlərin və özəl subyektlərin TMC-yə, xüsusən də TMC-nin məsariflərinə, məsələn, narkotik qaçaqmalçılığına qarşı mübarizə üçün elə də çox stimulları yoxdur. Dövlətlər və təşkilatlar uzun müddət TMC-nı strateji təhlükə kimi tanımaq istəyində olmayıblar. Belə ki, TMC-dən doğan risklərin dərhal özünü büruzə verməməsi və bu cinayətlərin göz önündə olmaması dövlətlərin bu sahədə fəal əməkdaşlıqdan yayınmasına səbəb olur.

Dövlət potensialının, iqtisadi sabitliyin və əhalinin sağlamlığının sarsılmasında TMC-nin kumulyativ nəticələri həddindən artıq ağır ola bilər. Dünyanın bəzi yerlərində TMC hətta normal fəaliyyət göstərən dövlətlər üçün ciddi fəsadlar törətmək iqtidarındadır. TMC silahlı münaqişələr, terrorizm, silahların, hətta xəstəliklərin yayılması və s. kimi təhlükəsizlik çağırışlarını gücləndirir və inkişafını davam etdirir, bununla belə, dövlətin, cəmiyyətin və beynəlxalq sistemin bu təhlükələrə qarşı dayanmaq qabiliyyətini sarsıdır. Dünyanın bütün nöqtələrində TMC-nin korrupsiya və silahlı münaqişələrlə uzlaşmasından irəli gələn strateji təhlükələrə rast gəlinir. Zəif dövlət idarəetmə sistemində və silahlı münaqişələrdə qeyri-qanuni fəaliyyətlər, məsələn, qadağan olunmuş narkotik vasitələrin istehsalı, mal və xidmətlərin (almaz, oduncaq, avtomo-

bil, nüvə materialı, həmçinin seksual xidmətlər) ticarəti, adətən genişlənir. Məhz bu səbəbdən TC şəbəkəsi zəif dövlət sisteminə və silahlı münaqişələrə malik ərazilərə soxulmaqda maraqlıdırlar. Belə ərazilərdə onların qanunsuz hərəkətlərinə nəzarət olunmur.

Zəif dövlət TMC-nin inkişafı ləngidən və dövlətin sosial gərginliyi və münaqişələri aradan qaldırmaq qabiliyyətini aşağı salan siyasətlə simbioz təşkil etməsinə zəmin yaradır. Nəticədə, TMC qlobal təhlükəsizliyi daha ciddi formada təhdid edir. Narkotik qaçaqmalçılığı şəbəkəsi vasitəsilə zorakılıq, korrupsiya, münaqişə və xəstəliklər bütün dünyaya yayılır. Dəniz quldurlarının Malakka boğazı ilə Ədən körfəzindən keçən dünya ticarətini zərbə altına qoymasını buna misal çəkə bilərik. Dünya miqyaslı silah qaçaqmalçıları BMT tərəfindən silah tədarükünə qoyulmuş embarqoya riyaət etməyərək Afrikada, Asiyada və Yaxın Şərqdə müharibələri dəstəkləyirlər. Onlar tədarük edilmiş silahı almaz, avtomobil, hətta canlı insanla mübadilə edirlər. Avropalı və digər cinayətkar qruplar Afrika sahillərində dəniz resurslarını çapıb talayır və sahil mühafizəsinin olmadığı yerlərdə toksik tullantıları suya atırlar. Cinayətkar şəbəkələr nüvə və digər materialların və xüsusi biliklərin yayılmasını asanlaşdırır.

Həm dövlət, həm də qeyri-dövlət silahlı təşkilatları TMC-yə maliyyə və maddi-texniki təminat mənbəyi kimi baxır. Göründüyü kimi, TMC silahlı münaqişələri dəstəkləyir və sülh prosesinin pozucusu kimi çıxış edir, iqtisadi bərpanı və demokratik dövlət idarəetmə sistemini sarsıdır. TMC-ni həyata keçirən bəzi qrupların özləri hərbiləşdirilmiş qruplara çevrilməklə milli və regional sabitlik üçün daha böyük təhlükəyə çevrilir. “Hizbullah”, İrland Respublika Ordusu (İRO), Kolumbiyanın İnqilabi Silahlı Qüvvələri və “Əl-Qaidə” arasında olan əlaqə onu göstərir ki, transmilli cinayət fəaliyyəti qlobal terrorizmi dəstəkləyən amil sayılır.

### TERRORİZMİN ARTMASI VƏ ŞƏKLİNİ DƏYİŞMƏSİ

“Soyuq müharibə” zamanı ənənəvi terrorçu qruplar çox zaman Qərb hökumətləri tərəfindən idarə edilmiş və dəstəklənmişdir. Yaxşı hazırlanmış və təşkil edilmiş belə qrupların spesifik siyasi motivasiyaya malik olması onların aşkara çıxarılmasını və onlara qarşı mübarizəni asanlaşdırırdı. Terrorçuları dəstəkləyən dövlətlərə qarşı beynəlxalq ictimaiyyətin təzyiqləri çox zaman arzuolunan nəticələr verirdi.

Terrorçuların yeni mənşəyi isə daha çox dini motivasiyaya söykənir, onlar pis təşkil edilir, hər hansı bir dövlətlə əlaqəsi ya zəif, ya da ki ümumiyyətlə olmur. Təşkilati strukturlarında böyük boşluq və qeyri-müəyyənlik həmin qrupların aşkar edilməsini və onlara qarşı mübarizənin aparılmasını çətinləşdirir. Dəqiq ideoloji məqsədlərdən məhrum olan bu cür fanatik qruplar, habe-

lə millətçi əhval-ruhiyyəli dini qruplar terrorizm dalğasına olduqca təhlükəli komponentlər əlavə ediblər. Bəlli olmayan motivlərə görə dinc əhaliyə qarşı zor tətbiq etmək onlara xas olan əlamət olduğundan, əvvəlki terrorçularla müqayisədə yeni terrorçular daha təhlükəli hesab edilir.

Bundan əlavə "həvəskar-terrorçular" problemi terrora qarşı mübarizəni daha da mürəkkəbləşdirir. Breyvikin Norveçdə törətdiyi terror aksiyaları buna misaldır. Bu tip şəxslər partlayıcı qurğular haqqında zəruri bilik və materialları asan əldə edilən kitablardan, internetdən və fermerlər üçün təsərrüfat mağazalarından əldə edirlər. Həmin şəxslər heç bir komanda strukturuna tabe olmadan təkbaşına fəaliyyət göstərir.

Terrorizm muzdluları da öz orbitinə cəlb edir. "Soyuq müharibənin" bitməsi həmin cinayətkar qrupları işsiz qoymuş, nəticədə onların xidmətlərindən istifadə etmək olduqca asanlaşmışdır. Kim onlara çoxlu pul təklif edirsə, onun sifarişi darhal yerinə yetirilir. Həmin muzdlulardan terror aktı hayata keçirmək istəyən hökumətlər də istifadə edə bilər. Sıravi muzdlu həvəskarlardan ölümə məhkum adam (kamikadze) kimi istifadə edilməsi hallarına da rast gəlinməkdədir.

Terrorizmin əvvəllər gözdən keçirilməyən yeni yayılma üsulları, belə demək mümkündürsə, "terrorun metastazı" diqqəti cəlb edir. [4] Möhkəm ideologiya olmadan terrorçu qruplar və "həvəskarlar" bu gün əvvəlki vaxtlardan fərqli olaraq, öz aksiyalarına görə məsuliyyəti üzərlərinə götürmürlər və KİV-in diqqətini cəlb etməkdən yayınmağa çalışırlar. Yeni terrorçuları üzə çıxarmaq olduqca çətindir, onlar çox zaman pula görə, bəzən isə sadəcə qəzəbdən, yaxud da fanatizmdən terror aktı törədirlər.

Terrorizm insan həyatını təhdid edir, nəhəng xərclər doğurur, cəmiyyətin açıqlığını və tolerantlığını sarsıdır və özünü bütün dünya üçün artmaqda olan strateji təhlükə kimi təqdim edir. Terror hərəkatları daha geniş resurslara, ən yaxşı elektron rabitəyə malik olur və insanların kütləvi qırğını naminə hüdudsuz zorakılığa getməkdən belə çəkinmirlər. Terrorizmin ən yeni dalğası qlobal xarakter daşıyır və dini ekstremizm zorakılığı ilə sıx bağlıdır. Bunun kompleks səbəbi mövcuddur. Bu, həm müasirləşmənin, həm də mədəni, sosial və siyasi böhranların təzyiqidir.

### KÜTLƏVİ QIRĞIN SİLAHLARI (KQS), REGİONAL MÜNAQİŞƏLƏR VƏ ZƏİF DÖVLƏTLƏR

KQS-nin yayılması qlobal təhlükəsizlik üçün daha ciddi təhlükə sayılır. İxrac nəzarəti haqqında beynəlxalq müqavilə və saziş rejimi KQS-nin və onun çatdırılması sistemlərinin yayılması prosesinin ləngiməsinə yardım edib. Lakin bu gün, KQS sahəsində qızğın silahlanma imkanlarının artdığı yeni və təhlükəli bir dövrə qədəm qoymuşuq. Biologiya elmləri sahəsində

tərəqqi yaxın illərdə bioloji silah potensialının daha da artmasını labüdləşdirə bilər. Bu da öz növbəsində kimyəvi və radioaktiv materialların istifadə edilməsi ilə mümkün teraktların baş verə bilməsi ehtimalını istisna etmir. Sabitsizliyin və potensial təhlükələrin artmasının əlavə amili raket texnologiyalarının yayılması sayıla bilər.

Terrorçu qrupların KQS əldə etməsi ən dəhşətli ssenari kimi təsəvvür edilə bilər. Bu halda məhdud insan qrupları əvvəllər böyük bir ordunun edə biləcəyi ciddi itkilərə məruz qala bilər.

Zorakılıqla müşahidə edilən və ya dalana dirənən münaqişələr regional sabitliyə ciddi təhlükə törədir. Həmin münaqişələr insan həyatını, sosial və fiziki infrastrukturu dağıdır, dövlətlərin normal fəaliyyətini, insanın əsas hüquq və azadlıqlarını pozur. Münaqişə ekstremizmə, terrorizmə və dövlətçiliyin süqutuna gətirə bilər. Regional sabitsizlik KQS-nin ələ keçirilməsinə olan tələbatı alovlandırmağa qadirdir.

Zəif dövlət idarəçiliyi (korrupsiyanın artması, hakimiyyətdən sui-istifadə, zəif dövlət institutları, tam nəzarətsizlik) və daxili münaqişələr dövləti daxildən laxladır. Bir çox hallarda bu dövlət institutlarının tam iflasına gətirir. Somali, Liberiya və Əfqanıstan təcrübəsi buna sübutdur. Dövlətçiliyin iflası bu cür təhlükələrlə – mütəşəkkil cinayətkarlıq və ya terrorizmlə bağlı ola bilər. Adıçəkilən təhlükələr beynəlxalq nizamı sarsıtmağa və regional sabitsizliyi gücləndirməyə qadirdir.

**MÜTƏŞƏKKİL CİNAYƏTKARLIĞIN ARTMASI**

Mütəşəkkil cinayətkarlığın vahid tərifi olmasa da, "Uorld Kraym Trend" onu "qanunsuz vasitələrdən mənfəət əldə etmək məqsədilə müəyyən insanların yaratdıqları daimi ittifaq" kimi qələmə verir. Beynəlxalq mütəşəkkil cinayətkarlıq termininin ona görə yaxşı dərk edilən anlayışı yoxdur ki, o uzun müddət dövlətin daxili işi kimi qiymətləndirilib. Belə ki, cinayətkar qruplar adətən iqtisadi məqsədlər güddüyündən onlara dövlətə qarşı siyasi təhlükə kimi baxılmayıb. Çox zaman əcnəbi canilər öz fəaliyyətlərini milli sərhədlərin hüdudlarından kənara yaysalar da həmin cinayətkar fəaliyyətlər digər ölkələrin problemi hesab edilib.

Bundan əlavə, milli təhlükəsizliyin strukturu qanunçuluğun mühafizə edilməsini nəzərə almır. Bunun nəticəsidir ki, əksər siyasi liderlər mütəşəkkil cinayətkarlığa hüquq - mühafizə orqanlarının fəaliyyət sferasına aid məsələ kimi baxırlar.

Beynəlxalq mütəşəkkil cinayətkarlıq daxili cinayətkarlığın davamı kimi nəzəri cəlb edir. Bu qanunsuz birləşmələr yalnız dövlət suverenliyinə və dövlət təhlükəsizliyinə təhdid deyil, həmçinin milli sərhədlərin asanlıqla aşıla bilmə-

sini və dövlət institutlarının zəifliyini nümayiş etdirir.

Dövlət təhlükəsizliyini daxili təhlükə kimi təhdid edən mütəşəkkil cinayətkarlıq çox mühüm xarici çalarlara malikdir: Narkotiklərin, qadınların transsərhəd trafiki, qeyri-leqal miqrasiya və silah qaçaqmalçılığa belə cinayətkar qrupların inhisarında olan məsələdir. Onların terrorizmlə əlaqəsi də istisna olunmur.

Cinayətkarlığın bu formaları çox zaman dövlətin zəifliyi və gücsüzlüyü ilə bağlı olur. Narkotiklərin istehsal olunduğu ölkələrdə narkobiznesdən gələn gəlir dövlət strukturlarının iflasını sürətləndirir. Dünyanın digər nöqtələrində münaqişələr bahalı zinət daşları, ağac oduncağı, kiçikçaplı silah ticarətindən mənfəət əldə etmək məqsədilə alovlanır. Bu fəaliyyətlərin hamısı qanunçuluğu və bütün ictimai quruluşu sarsıdır. Ekstremal şəraitlərdə mütəşəkkil cinayətkarlıq dövlətə üstün gələ bilər. Avropada satılan 90% heroin Əfqanıstanda becərilmiş xaşxaşdan hazırlanır. Narkotiklərin əsas hissəsinin, habelə dünya seks-ticarətinin qurbanları olan 200-dən 700 minədək qadının satışı Balkanlarda cinayətkar şəbəkələr vasitəsilə təşkil edilir. Mütəşəkkil cinayətkarlığın perspektivdə böyük diqqət cəlb edən yeni istiqamətlərindən biri dəniz quldurluğunun inkişaf etdirilməsi hesab edilə bilər.

Əgər bütün bu müxtəlif elementlərin – terrorizmin hüdudsuz zorakılıq, KQS əldə etmək imkanı, mütəşəkkil cinayətkarlıq, dövlət sistemlərinin süqutu və zorun özəlləşdirilməsi və sairlə uzlaşmasını təsəvvür etsək, onda nə dərəcədə radikal təhlükələrlə rastlaşacağımızı dərk etməmiz çətin olmaz.

Yeni təhdidlər dinamikdir. Mütəmadi olaraq onların yayılması riski artır. Əgər terrorçu şəbəkələrə sərbəstlik verilərsə, onlar daha təhlükəli ola bilər. Əgər tamam çürüməkdə olan dövlət rejimlərinə və mütəşəkkil cinayətkarlığa məhəl qoyulmazsa, onlar yayılmaqda davam edəcək. Gərəkdir ki, beynəlxalq ictimaiyyət bu neqativ proseslərin böhran vəziyyətinə gəlməsindən öncə təhlükəsizlik tədbirlərinin görülməsinə hazır olsun.

TMC-yə qarşı BMT Konvensiyası (Palermo Konvensiyası) 2000-ci ildə imzalanıb və TMC-nin ümumi mənasının müəyyən edilməsinə və ayrı-ayrı dövlətlər tərəfindən koordinasiyalı əks-təsir sisteminin yaradılmasına nail olmaqda böyük əhəmiyyət kəsb edir. Lakin TMC-yə qarşı davamlı çoxtərəfli fəaliyyət hələ də arzulanan səviyyədə deyil. Hüquq-mühafizə hərəkəti və ədalət mühakiməsi real suverenlik əsasında həyata keçirilir. Aydın səbəblərdən dövlətlər bu fəaliyyət növünün "beynəlmiləlləşməsinə" qarşı çıxırlar. Məhz bu baxımdan TMC dünyada sərhədsiz hərəkət edə bilir, cinayətkarlıq üzərində nəzarət sistemi isə dövlət sərhədləri hüdudlarında bağlı qalır. Təhlükə ondan ibarətdir ki, öz formal suverenliyini müdafiə etməyə cəhd edən dövlət öz real suverenliyini qurban verə bilər.

Palermo Konvensiyası sistemi və buna kimi fəaliyyətdə olan narkotik vasitələr üzərində nəzarət rejimi bu günədək dövlətlər, beynəlxalq təşkilatlar və

özəl sektorlar arasında TMC-ni strateji təhdid kimi qələmə verməsinə dair ümumi anlayışın işlənib hazırlanmasında elə bir ciddi irəliləyişə nail olmayıb. Bu təhdidlərin aradan qaldırılması, hətta əhəmiyyətli dərəcədə yumşaldılması istiqamətində ümumi, operativ strategiyanın işlənib hazırlanması yolları da təklif edilməmişdir. Nəticədə, narkotik axın və qaçaqmalçılığın digər formaları üzərində nəzarət prosesində qazanılmış müvəffəqiyyətlərə baxmayaraq, beynəlxalq ictimaiyyət TMC-nin dünyanın müxtəlif nöqtələrində cərəyan edən münaqişələrlə əlaqə yaratmasının qarşısını almaqda inamlı təsir bağışlamır.

Bundan əlavə, dövlətlərin qanunları və beynəlxalq konvensiyalar, o cümlədən Palermo Konvensiyası gələcəkdə mümkün transmilli cinayətkarlıq fəaliyyətinin analizinə deyil, keçmiş təcrübə əsasında əldə edilmiş TMC konsepsiyasına söykənir. Onlar TMC-nin zəif dövlət idarəçiliyi və silahlı münaqişələrlə daha sıx şəkildə inkişafından doğan strateji təhdidlərlə bacarmaq iqtidarında deyillər.

Belə çıxır ki, müasir beynəlxalq sistem TMC -nin strateji nəticələrini aradan qaldırmağa hazır deyil. TMC ilə mübarizədə təcrübəyə malik olan aparıcı beynəlxalq təşkilatlar olan Narkotiklər və cinayətlər üzrə BMT İdarəsi və İnterpol beynəlxalq təhlükəsizlik məsələləri üzrə strateji analiz və qərarların qəbul edilməsi prosesinə hələ zəif inteqrə edilib.

Çoxtərəfli təşkilatlar TMC ilə bacarmaq iqtidarında deyillər. Lakin onlar məlum problemə qarşı daha təsirli mübarizə aparmaq məqsədilə zəruri sistem yarada bilərlər. Məsələn, onlar ümumi normalar və icra sistemi işləyib hazırlaya və ya ümumi strategiya hazırlaya və siyasi iradənin səfərbər olmasına nail olarlar. Bununla belə etiraf etmək lazımdır ki, beynəlxalq təşkilatlar bu prosesə hazır deyillər.

Narkotiklər və Cinayətlər üzrə BMT İdarəsində çalışan 350-400 nəfər bütün dünya üzrə 22 büroda fəaliyyət göstərirlər. Bu təşkilatın büdcəsi 150 mln. dollar təşkil edir və bu vəsaitin 90 faizi narkotiklərlə mübarizə proqramlarının həyata keçirilməsinə sərf olunur. Habelə bu təşkilat illik “Narkotiklərin və insanların qaçaqmalçılığı: qlobal tendensiyalar haqqında Ümumdünya hesabatı”nı dərc etdirir.

Bundan əlavə, BMT-nin iki aparıcı komissiyası: Narkotik vasitələr üzrə Komissiya (NVK) və Cinayətkarlığın qarşısının alınması və ədalət məhkəməsi üzrə Komissiya lazımi qaydada bu təhdidlərə qarşı mübarizə aparmaq iqtidarında deyil.

NVK narkotiklərlə mübarizə strategiyasına əməli təsir etmək iqtidarında deyil, sadəcə olaraq, informasiyaların mübadiləsi rejimi qismində fəaliyyət göstərir. Məsələn, NVK hansı narkotik vasitələrin beynəlxalq narkotiklərlə mübarizə rejiminin nəzarəti altına düşməsinə təsir göstərə bilmir. Bundan əlavə, NVK-nın narkotik vasitələr üzərində nəzarət üçün strateji yanaşma qəbul et-

mək sahəsində xüsusi imkanları yoxdur. Cinayətkarlığın qarşısının alınması və ədalət məhkəməsi üzrə Komissiyanın da rolunu qənaətbəxş hesab etmək olmaz.

Yuxarıda qeyd edilənlərdən bu nəticəyə gəlmək olur ki, qloballaşma şəraitində dövlətlərarası münasibətlər sferasında sərt tormozlayıcı mexanizmlərin zəifləməsi, milli suverenliyin getdikcə “yumşalması”, beynəlxalq sərhədlərin “ovulması”, transmilli faktorların rolunun güclənməsi yaxın və orta perspektivdə transmilli təhdid və təhlükələrə qarşı effektli qabaqlayıcı tədbirlərin görüləcəyi ehtimalını minimuma endirir.

**ƏDƏBİYYAT**

1. Безопасная Европа в более совершенном мире. Европейская стратегия безопасности. Совет Европы. 2003

2. Линн Дейвис. «Воздействие глобализации на безопасность». RAND, выпуск 2003

3. Вильфрид фон Бредов. «Новые вызовы». İnformationen zur politischen Bildung, 2006

4. Кулагин В.М Международная безопасность. Москва

**РЕЗЮМЕ**

**ТРАНСНАЦИОНАЛЬНЫЕ УГРОЗЫ И ВЫЗОВЫ**

**З. ЮСИФЛИ**

Статья посвящена анализу транснациональной угрозы, их корни и причины распространения. Подчеркивается, что для предотвращения этой опасности в глобальном масштабе международные организации и государства должны проводить активную политику в области транснациональной безопасности.

**SUMMARY**

**TRANSNATIONAL THREATS AND CHALLENGES**

**Z. YUSIFLI**

This article is focused on identifying the transnational threats, their roots, the causes of their spreading. Different kind of transnational threats which impact to regional and global security enviornment are examined. It stressed that for preventing such threats, states and international oganizations must pursue uncompromising and cooperativ security policy.

# XVIII YÜZİLLİYİN AXIRLARINDA İRƏVAN XANLIĞININ SİYASİ VƏZİYYƏTİ

**Tarix üzrə fəlsəfə doktoru Elçin QARAYEV**

***Açar sözlər:*** İrəvan xanlığı, Xoy xanlığı, Qacar dövləti, münasibət, yürüş, müqavimət.

***Ключевые слова:*** ханство Иреван, ханство Хой, государство Каджар, отношение, наступление, сопротивление.

***Keywords:*** Irevan khanate, Xoy khanate, Qajar state, terms, attack, resist.

Ağa Məhəmməd şah öldürüldükdən sonra onun yerinə qardaşı oğlu Baba xan Fətəli şah (1797-1834) adı ilə taxt-taca sahib oldu [1,114-115]. O, hakimiyyətə gələn kimi, əmisi tərəfindən incidilmiş adamların könlünü ələ almaq üçün bir neçə dəyərli göstəriş vermişdi. Tehranda həbsdə olan xanları, o cümlədən İrəvan hakimi Məhəmməd xanı azadlığa buraxdı. Həbsdən azad olan Məhəmməd xan yenidən İrəvanda hakimiyyətə gəldi.

Qeyd etmək lazımdır ki, Məhəmməd xan həbsdə olarkən İrəvanda gərgin vəziyyət yaranmışdı. Belə ki, qardaşının ölüm xəbərini eşidən Əliqulu xan təhlükəsizlik tədbirlərinə əl ataraq İrəvan qalasının qapılarını bağlamışdı. O, bununla kifayətlənməyərək yerli əhali ilə daha kobud rəftar etməyə başladı. Çox güman ki, İrəvanda hakimiyyətinin sona yaxınlaşdığını hiss edən xan vəzifəsindən sui-istifadə edərək, çoxlu var-dövlət yığmaq məqsədilə irəvanlıları qarət etməyə başlamışdı. Hətta Əliqulu xan iyunun əvvəllərində qarət məqsədilə Kartli-Kaxetiya ərazisinə qoşun göndərdi. Onun qoşunu çoxlu mal-qara ələ keçirsə də sona qədər bu qəniməti əldə saxlaya bilmədi. Belə ki, şahzadə Aleksandr öz dəstəsi ilə onlara hücum edərək nəinki mal-qaranı geri qaytarmış, hətta Əliqulu xanın qoşunundan 200 nəfər öldürmüşdü (2,170). Bu hadisə və Əliqulu xanın əhali ilə ədalətsiz rəftarı irəvanlıların səbrini tükəndirdi. Onlar silahlanaraq üsyan qaldırdı. Nəticədə xalqın təzyiqi ilə Əliqulu xan 1797-ci il iyunun axırlarında İrəvanı tərk etdi.

Lakin bu təhlükədən qurtaran İrəvan əhalisi çox keçmədi ki, yeni təhlükə ilə üzləşdi. Əliqulu xan İrəvanı tərk etdikdən bir neçə gün sonra Maku sultanının oğlu Həsən xan vəziyyətdən istifadə edərək buraya hücum etdi. Qeyd etmək

lazımdır ki, o, XVIII yüzilliyin 80-ci illərində İrəvanda hakimiyyət uğrunda mübarizə aparan Əhməd Soltanın oğlu idi. Qəflətən İrəvan qalasına hücum edən Həsən xan əvvəlcə dinc yolla qalanı ələ keçirmək üçün irəvanlılarla danışığa başladı. Lakin qala sakinləri onun tələbini rədd edərək Həsən xana ciddi müqavimət göstərdi. Hətta qala müdafiəçiləri Qazaxda mövqe tutan II İraklinin oğlu Aleksandra məktub göndərərək kömək istəmişdilər. Gürcü şahzadəsi Aleksandr bir neçə yüz nəfərlik dəstə ilə irəvanlılara kömək etmək istədi. Lakin Həsən xan onu qabaqlayaraq qalanı ələ keçirməyə nail oldu. Bu yürüşdə Həsən xana naxçıvanlılar, İrəvan hakiminə müxalif olan yerli muğanlılar və ayrumlar da kömək etmişdi. Muğanlıların qala müdafiəçilərini döyüş meydanında tək qoyub qaçmaları qalanın təslim olmasına səbəb olmuşdu. İrəvana daxil olan Həsən xan taxt-taca yiyələnir. Cəmi üç ay hakimiyyətdə olmuş yeni xan xalqla çox pis rəftar etmiş, onların üzərinə yeni-yeni vergilər təyin etmişdi. Lakin tezliklə Məhəmməd xanın əsirlikdən azad olub İrəvana qayıtması haqqında məktub gəldi. Bu xəbəri eşidən Həsən xan 1797-ci il sentyabrın 15-də İrəvanı tərk edərək Makuya qayıdır. [4,186]

Beləliklə, Məhəmməd xan yenidən İrəvanda hakimiyyətini bərpa etdi. Lakin Fətəli şah Məhəmməd xanı azadlığa buraxsa da, ona bir o qədər də inanmırdı. Ona görə də, özünün iki nəfər inanılmış adamını İrəvana göndərdi. Onlar Məhəmməd xanın işlərinə nəzarət etməli idi. Eyni zamanda İrəvan xanlığı hər il şah xəzinəsinə 80000 (8000 tümən-E.Q.) rubl vergi ödəməli idi. [5,12-13] İrəvanda yenidən hakimiyyətini bərpa edən Məhəmməd xan vəziyyətini nizama salan kimi, fəal xarici siyasət yeritməyə başladı. O, şah hökumətinin itəətindən çıxmaq üçün özünə müttəfiqlər axtarmağa başlayır. İrəvan hakimi ilk növbədə kömək üçün II İrakliyə müraciət edir. Lakin bu dövrdə Kartli-Kaxetiya çarının özünün vəziyyəti acınacaqlı idi. Ona görə də, Məhəmməd xanın müraciəti nəticəsiz qalmışdı (6,119). Buna baxmayaraq, İrəvan hakimi şaha qarşı mübarizədə özünə müttəfiq tapa bildi. Bu müttəfiqlərdən biri Fətəli şahın qəzəbinə gəlmiş Xoy hakimi Cəfərqulu xan, digəri isə Naxçıvan hakimi Kəlbəli xan idi. Ağa Məhəmməd şahın əmri ilə kor edilmiş Kəlbəli xan həbsdən azad olunduqdan sonra şahın əmrinə əsasən, İrəvan şəhərində yaşamalı idi. Kəlbəli xan İrəvanda məskunlaşdıqdan sonra mənsub olduğu kəngərli soyundan 200 ailə də Naxçıvandan oraya köçmüşdü. İrəvanda məskən salan Kəlbəli xan qohumu Məhəmməd xanla birlikdə Fətəli şah Qacara tabe olmaqdan imtina etdi. [5,13-14; 9,292; 34,67]

Lakin bu dövrdə Azərbaycan xanları arasında münasibətlər ziddiyyətli idi. Bu gərgin münasibətin yaranmasında Xoy hakimi Cəfərqulu xanın əsas rolu olmuşdu. Qeyd etmək lazımdır ki, Fətəli şahın azad etdiyi xanlar arasında Xoy hakimi Cəfərqulu xan da vardı. O, əsirlikdə olarkən Təbriz xanının qardaşı Sadıq xan Xoya hücum edərək onu talan etmişdi. Yenidən Xoyda haki-

miyyəti ələ keçirən Cəfərqulu xan qisas almaq qərarına gəldi. O, özünə müttəfiqlər axtarırdı və bu işdə İrəvan xanı ilə razılığa gəldi. Belə ki, əsirlikdən qayıdarkən Məhəmməd xan Xoya gəlmiş və burada xanlar arasında razılıq əldə olunmuşdu. Cəfərqulu xan qisas almaq üçün Məhəmməd xandan 500 nəfərlik hərbi qüvvə istəmişdi. İrəvan hakimi onun xahişini yerinə yetirərək, bu hərbi qüvvəni Xoya göndərmişdi. Birləşmiş Xoy və İrəvan qoşunu Sadıq xanın üzərinə hücum edərək onu məğlub etmişdi. [4,187]

Lakin çox keçmədi ki, Məhəmməd xanla Cəfərqulu xanın münasibəti pisləşdi. Xoyda öz mövqeyini möhkəmləndirən Cəfərqulu xan Sadıq xan Şəqaqi, Urmiya xanı Məhəmmədqulu xan və naxçıvanlılarla birləşərək Fətəli şahın əleyhinə üsyan qaldırdı. O, qonşu xanlıqlara hücum etməklə şaha itaətsizliyini bildirirdi. Həmin dövrdə zahirdə şaha itaətini bildirən İrəvan xanlığı da Xoy qoşunlarının yürüşünə məruz qaldı. Hücuma məruz qalmış Məhəmməd xan Cəfərqulu xana müqavimət göstərməyi qərara aldı. Bu müharibədə qazaxlılar İrəvan xanına hərbi kömək etdilər. Naxçıvan yaxınlığında baş verən döyüşdə irəvanlılar Cəfərqulu xanın tərəfinə keçmiş naxçıvanlılar tərəfindən məğlub edildi. Məğlub olmuş Məhəmməd xan İrəvan qalasına çəkilərək orada möhkəmlənir. Lakin Cəfərqulu xan yürüşü davam etdirə bilmədi. Çünki Xoy hakiminin üsyanını eşidən şah sərkərdələrindən Süleyman xanı Təbrizə göndərmişdi. Cəfərqulu xanın tərəfinə keçmiş bəzi xanlar bu xəbəri eşidərək onu tərk etdilər. Tək qalan Xoy hakimi ailəsini götürərək Bəyazidə qaçır. Onun tərəfdarları da bu cür hərəkət edərək Osmanlı ərazisinə köçdülər. [4,189-190]

1798-ci il iyunun əvvəllərində Fətəli şah şəxsən özü Süleyman xan və Hüseynqulu xanla birlikdə Xoya gəldi. O, Kartli-Kaxetiya çarlığına hücum etmək niyyətində idi. Fətəli şah iyunun 7-də XII Georgiyə məktub göndərərək tabe olmasını və girovlar verməsini tələb etdi. Əks təqdirdə Kartli-Kaxetiyanı dağıtmaqla hədələyirdi. Şahın məktubu general-leytenant Markova və Peterburqdakı Kartli-Kaxetiya səfiri Q.Çavçavadzeyə göndərildi. Lakin şahın şimal istiqamətində yürüşü baş tutmadı. Çünki şah qardaşının Şiraz və İsfahandan qoşun toplayaraq ona qarşı üsyan qaldırması xəbərini alaraq Xoyu tərk edir. Tezliklə Süleyman xan da şahın yanına getdi. Fətəli şah Xoyu tərk etməmişdən əvvəl Cəfərqulu xanın qardaşı Hüseyni oraya hakim təyin etdi. [4,192]

Fətəli şahın geri çəkildiyini eşidən Cəfərqulu xan hakimiyyətini yenidən bərpa etmək üçün osmanlılardan və kürdlərdən qoşun toplayaraq Xoya hücum etdi. Məhəmməd xan Hüseyn xana kömək etmək qərarına gəldi. İrəvan hakimi Xoya bir dəstə qoşun göndərdi. Lakin uzun sürən mühasirədən sonra Xoya daxil olan Cəfərqulu xan qardaşı Hüseyn xanı öldürərək xanlıq taxtını

yenidən ələ keçirməyə müvəffəq oldu. [10,127-130]

Tezliklə İrəvan hakimi də Fətəli şaha tabe olmaqdan imtina etdi. Onlar arasında münasibətlərin dəyişməsində şah hökuməti günahkar idi. Belə ki, bu dövrdə İrəvanda vəziyyət çox acınacaqlı idi. Bir tərəfdən müharibələr, digər tərəfdən taun xəstəliyi nəticəsində xeyli insan qırılmışdı. [4,200] Belə bir vaxtda Fətəli şah İrəvana elçi göndərərək 100.000 rubl (10.000 tümən-E.Q.) məbləğində vergi verməsini tələb etdi. İrəvanın bu məbləği verməyə imkanı yox idi. Məhəmməd xan ilk əvvəl şahın bu tələbini yerinə yetirməyə razı olsa da, sonradan rus komandanlığından və Kartli-Kaxetiya çarından kömək almaq ümidi ilə bundan boyun qaçırdı. Eyni zamanda belə müraciət Xoy xanı Cəfərqulu xana da olunmuşdu. Şahın hədə qorxusu Məhəmməd xanı Cəfərqulu xanla barışmağa məcbur etdi. Barışmış rəqiblər bir daha şaha tabe olmayacaqlarını bildirdilər. [7,118; 11,531]

Xanların qiyamını eşidən Fətəli şah onları cəzalandırmaq qərarına gəldi. Şah 1800-ci il iyulun əvvəllərində oğlu Abbas Mirzənin və Süleyman xanın başçılığı ilə 7000-10000 arasında olan qoşunu İrəvana göndərdi. [12,129; 13, 306] Başqa bir məlumata görə, Qacar qoşununun ümumi sayı 12000-ə çatırdı. Bu qoşun silahla pis təchiz olunmuşdu və dəvə üstündə gəzdirilən cəmi dörd yüngül topu vardı. [14,135-136; 12,134-135; 15,131-132]

Təbrizdən hərəkət edən şah qoşunu İrəvan xanlığı istiqamətində yürüşə başladı. Yürüşün əsas məqsədi xanları cəzalandırdıqdan sonra Kartli-Kaxetiya üzərinə hücumu davam etdirmək idi. Yürüşdən əvvəl bu çarlığı dinc yolla özünə tabe etmək üçün Qacar tərəfi Kartli-Kaxetiya sarayına xüsusi nümayəndə heyəti göndərdi. Şahın fərmanını, Abbas Mirzənin və Süleyman xanın məktublarını çar XII Georgiyə çatdıran heyət onun qəbulunda oldu. 1800-cü il iyunun 14-də Tiflisdə Rusiya nümayəndəsi Kovolenskinin iştirak etdiyi danışıqlarda XII Georgi Qacar dövlətinin nümayəndələrinə rədd cavabı vermişdi. [16,105-106; 12,121-123]

Sonralar Abbas Mirzəyə tabe olan Məhəmməd xan da XII Georgiyə məktub yazaraq onu şaha tabe olmağa çağırmışdı. Xan yazırdı ki, «indi İranla Kartli-Kaxetiya arasında heç bir ayrılıq və ziddiyyət yoxdur. Məsləhət görürəm ki, qardaşın və oğlun vasitəsilə Baba xana (Fətəli şaha-E.Q.) hədiyyə göndərəsən. Əks halda qorxuram ki, çarlıqda elə talan olsun ki, özünüz peşman olasınız». [12,125] Lakin xanın bu məktubu da cavabsız qalmışdı.

İlk hücuma Xoy xanlığı məruz qaldı. Cəfərqulu xan şah qoşununa güclü müqavimət göstərsə də, sonda danışıqlar nəticəsində öz qızını Abbas Mirzəyə ərə verməyə razı olmaqla vəzifəsində qalmışdı. [17,50; 18,172-173, 363-364; 19, 107[

Xoy xanlığını özünə tabe etdikdən sonra şah qoşunu iyulun ortalarında Arazın sol sahilinə – İrəvan xanlığının ərazisinə yürüşə başladı. İrəvan xanlığı

ərazisində mövqe tutan Abbas Mirzə 4000 nəfərdən ibarət ön dəstəni İrəvan qalasını almağa göndərdi. Abbas Mirzənin planını şahın yanına qaçmış II İraklinin oğlu Aleksandr 1800-cü il iyulun 30-da anasına yazdığı məktubda belə şərh etmişdi: «İran qoşununun yarısı İrəvan qalası ətrafında dayanıb, digər hissəsi isə xanın karvansarasında yerləşib. Allah qoysa, o, (Abbas Mirzə- E.Q.) yeddi gündən sonra Göyçə gölünə doğru hərəkət edərək tezliklə, Tiflisə çatacaq». [9,295] Məktubda gürcü şahzadəsi İrəvanı mühasirəyə alan şah qoşununun sayı, onların pis silahlanması haqqında ətraflı məlumat vermişdi. Gizli yazılmış bu məktub ruslar tərəfindən ələ keçirilmişdi. [15,131-132]

Abbas Mirzə çardan mənfi cavab alsa da, İrəvana hücumu davam etdirmişdi. Qeyd etmək lazımdır ki, Məhəmməd xan şah qoşununun hücumunu eşidərək müqavimət göstərmək üçün bir çox tədbirlər görmüşdü. O, İrəvan qalasını əlavə qoşunla gücləndirmiş və qalaya uzunmüddətli ərzaq ehtiyatı toplamışdı. Şah qoşununun yaxınlaşdığını eşidən ətraf kəndlərin əhalisi evlərini başlı-başına buraxaraq qonşu dövlətlərə qaçmışdılar. Hətta biçilmək ərəfəsində olan taxıl zəmiləri nəzarətsiz qalmışdı. [12,125-135]

İrəvanlılar qırx gün şah qoşununun hücumunu mərdliklə dəf etdilər. Mühasirənin uzanması, ərzaq çatışmazlığı şah qoşununu ağır vəziyyətə salmışdı. İş o yerə gəlib çatmışdı ki, ərzaq ehtiyatını təmin etmək üçün şah qoşunu başsız qalmış taxıl zəmilərini özləri biçir və emal edirdilər. [14,136; 12, 135]

Uzunmüddətli mühasirə qala müdafiəçilərini acınacaqlı vəziyyətə salmışdı. Ətraf kəndlərin dağılması və digər tərəfdən heç bir yerdən kömək ala bilməməsi Məhəmməd xanı şahzadə ilə danışıqlara girməyə məcbur etdi. Danışıqlar nəticəsində İrəvan hakimi şaha tabe olduğunu bildirərək tələb olunan təzminat və girovları vermişdi. [20,86] Bu yürüşdə Abbas Mirzə Eçmiədzin kilsəsini də cəzalandırmışdı. Şahzadə sursat və vergidən əlavə, buradan 30000 rubl (3000 tümən-E.Q.) məbləğində nəqd pul əldə etmişdi. Eyni zamanda şaha qarşı çıxdıqlarına görə bəzi din xadimləri cəzaya məruz qalmışdı. [3, c.2, səh.455] Lakin bu dəfə də, şah qoşunu yürüşü davam etdirə bilmədi. Fətəli şah Xorasanda baş vermiş üsyanı yatırmaq üçün 1800-cü ilin sentyabrında qoşunu İrəvandan geri çağırmışdı. O, yalnız İrəvan xanından girov almaqla kifayətləndi.

Beləliklə, Fətəli şah qoşunlarını geri çağırması ilə İrəvan xanlığı bu təhlükədən qurtara bildi. Şah qoşunlarının bu yürüşü çoxlu insanın ölümünə və xanlıqdan didərgin düşməsinə səbəb oldu, təsərrüfata külli miqdarda ziyan dəydi. Lakin irəvanlıların mübarizə əzmini qıra bilmədi. Belə ki, əlacsız qalan İrəvan hakimi sonda girov və təzminat versə də, tezliklə şaha tabe olmaqdan boyun qaçırdı.

**ƏDƏBİYYAT**


1. Иванов М.С. Очерки истории Ирана. Москва, Госполитиздат, 1952
2. Цагарели А.А. “Грамоты и другие исторические документы XVIII столетия, относящееся к Грузии”. том II. 1902
3. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г.г. в 3-х т. 1869
4. Григорян В. Ереванское ханство в конце XVIII столетия (1780-1800). Ереван, 1958
5. Хубов Е. Описание достопамятныхъ проишествий в Армении. 1811
6. Соколов А.Е., Мое Путешествие с линии Кавказской в Имеретию, Москва, 1909
7. Записка С.С. Коваленского о Грузии. А.К.А.К., т.1, д.34, стр.118-124.
8. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1996
9. Дубровин Н. История войны и владычества русских на Кавказе., т. III
10. Армяно-русские отношения в XVIII веке, 1760-1800гг. Сборник документов. т. IV. Изда-во АН Арм.ССР, 1990
11. Дубровин Н. Георгий XIII последний царь Грузии и присоединение ее к России. СПб, 1867
12. Дубровин Н. История в ойны и владычества русских на Кавказе., т. II, 1886
13. Отношение С.С. Коваленского к г-л/л-т Кноррингу
14. Писъмо С.С. Коваленскаго к г-л/м-р Лазареву, август, 1800
15. Всеподданнейший рапортъ ген.л Кнорринга, март, 1800
16. Кавказский сборник, т. XXII, Тифлис, 1901
17. Osmanlı devleti ile Azerbaycan türk hanlıqları arasındakı münasibetlere dair arxiv belgeleri (1578-1914), c.I, Ankara, 1992
18. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997
19. Всеподданнейший рапортъ г-л/л-т Кнорринга. июль, 1800


**SUMMARY**
**POLITICAL POSITION OF THE IREVAN KHANATE AT THE END OF THE XVIII CENTURY**

**E.QARAYEV**

Article is devoted to research of political position of the Irevan khanate at the end of the XVIII century. The analysis of sources testifies that release

from arrest of the governor of Yerevan Mohammed khan led to restoration of his rule. It renewed policy of independence of the khanate. The relationship of the Yerevan's ruler with the Hoy's khan, the fight against the Kadjar shah is also in detail described in article.

**РЕЗЮМЕ**
**ПОЛИТИЧЕСКИЕ ПОЛОЖЕНИЕ ИРЕВАНСКОГО ХАНСТВА В КОНЦЕ XVIII СТОЛЕТИЯ**
**Е.ГАРАЕВ**

Статья посвящена исследованию политического положения Иреванского ханства в конце XVIII столетия. Анализ источников свидетельствует о том, что освобождение правителя Иревана Мохаммед-хана от ареста восстановило его власть. Он возобновил борьбу за самостоятельность ханства. В статье также подробно описаны взаимоотношения правителя Иревана с Хойским ханом и борьба против Каджарского шаха.

## XARİCİ ORDULARDA

### GƏLƏCƏYİN NANO SİLAHI

**"Nano texnologiyalar, o cümlədən, yerüstü silahlar sahəsindəki coşqun inkişaf gələcəkdə böyük qabaritli istənilən hədəfi, həmçinin yaylım atəş qurğularını nano-robotlarla "ağıllı məhv etməyə" imkan verəcək"– deyə akademik A.Aleksenko bəyan etmişdir.**

**Rusiyalı bu məşhur alimin bəyanatından belə məlum olmuşdur ki, hərbi nano-texnologiyanın tətbiqi imkanlarından istifadə 2020-ci ildən sonraya təsadüf edəcəkdir. Bu, ehtimal edilən düşmən tanklarının döyüş atımı daşıyan çoxsaylı nano-robotları bir yerə cəmləşdirib partladılması ilə baş tutacaqdır.**

**Simsiz şəbəkələrin köməyi ilə radiusu 1 mm-dən də az layihələşdirilən döyüş mikro və nano-qurğularından istənilən ölçü və atım gücündə istiqamətləndirilmiş nano-robot yığını yaratmaq mümkündür.**

**Mütəxəssislərin fikrincə bir çox ölkələrdə, xüsusilə ABŞ və Rusiyada bu tipli silah üzərində aktiv işlər görülməkdədir.**

# "ERMƏNİ MƏSƏLƏSİ VƏ ERMƏNİ TERRORU": MAHİYYƏTİ, EYNİLİYİ

Siyasi elmlər üzrə fəlsəfə doktoru Qafar ÇAXMAQLI

***Böyük Sovet Ensiklopediyasının 1926-cı il nəşrində "erməni məsələsi"nə belə bir tərif verilib: "Erməni məsələsi Şərq məsələsi adlandırılan məsələnin bir hissəsidir və ona iki nöqteyi-nəzərdən baxılmalıdır: 1. Zahiri mahiyyət. Böyük dövlətlər daha asanlıqla istismar etməkdən ötrü mərkəzdənqaçma qüvvələrini gücləndirməyə, beləliklə, ölkəni zəiflətməyə çalışırdılar. 2. Daxili mahiyyət. Öz burjuaziyasının rəhbərliyi altında ermənilər milli müqqədəratın müstəqil təyin edilməsi uğrunda elə siyasi-iqtisadi amillər əldə etməyə çalışırdılar ki, bu amillərin təsiri altında burjuaziya sərbəst inkişaf edə bilsin"(12) Erməni terroru öz başlanğıcını XIX əsrin sonlarından götürmüşdür. İlk terrorçu qruplar da bu dövrdə Qərbin və Rusiyanın təhriki ilə yaranmışdı. Səbəbi isə məlum idi. Osmanlı imperiyasını bölmək, parçalamaq!***

Ermənilərin toplum halında yaşadıqları ərazilərdə qeyri-sabitliyin hökm sürməsində maraqlı olan Qərb dövlətləri və Rusiya bölgədə fəaliyyətlərini aktivləşdirmək üçün yeni təşkilatların yaranmasına ehtiyacın olduğunu dərk edirdilər. İngiltərənin Van konsulu Çlayton öz ölkəsinə göndərdiyi bir raportda (12 oktyabr 1890) Rusiya Ermənistanından (İrəvan quberniyası nəzərdə tutulur) Türkiyə ermənilərinə silahlar göndərilməsi üçün cəmiyyətlər qurulduğu və bu silahların paylanması üçün casusların olduğunu yazmışdı. Çlayton elə həmin ilin noyabrında göndərdiyi digər bir raportda ermənilərin artıq üsyana hazır olduqlarını qeyd etmişdi, bunu amerikalı bir missionerdən təfsilatı ilə öyrəndiyini qeyd etmişdi. Vanda konsul vəzifəsində çalışmış rus generalı Mayevskinin xatirələrində isə bu fikir yer almışdı ki, 1895-ci ildə Van inqilabçıları Avropanın diqqətini "erməni məsələsi" üzərinə yenidən çəkmək istəyirdilər. Zəngin ermənilərə pul yardımı təhdidləri ilə məktublar göndərirdilər. "Hnçak" qəzeti özünün 1890-cı ilin martında çıxan 9-cu sayında ermənilərin müstəqillik mübarizəsinə kömək etməyənlərin öldürüləcəyini yazmışdı (1). "Hnçak" partiyasının Rusiyanın və Avropanın xalqçı qrupları ilə bağlılığını qeyd edən erməni tədqiqatçısı Meri Koçar qeyd edir ki, erməni milli azadlıq hərəkatına terrorçuluqla nəyəsə nail olmaq ideyası bu təşkilatların tə-

sirindən yaranmışdır və Hnçak öz fəaliyyətində terroru istisna etmirdi. O, qeyd edirdi: "Bir tərəfdən xalqçıların terrorçu fəaliyyəti, bu vasitələrin Ermənistana yayılması və onun türk despotizminə qarşı istifadə edilməsi, digər tərəfdən bu ideologiyanın marksizmin əsaslarına təsir etməsi Hnçak partiyasının ilkin proqramında nəzərdə tutulanlardan idi". [2] 1887-ci ildən çıxan "Hnçak" qəzetində də bu ideyalar yayılmağa, təbliğ edilməyə başlanmışdı. Bütün bunlar özü də sübut edirdi ki, Hnçak terrorçu bir təşkilat kimi ortaya çıxmışdı. Partiyanın qəzetin 1888-ci ildə dərc olunan proqramında da terrorizm mübarizə vasitələrindən biri kimi göstərilirdi. Proqramda nəzərdə tutulurdu ki, "Türkiyədə silahlı üsyanla mövcud quruluşu dəyişdirmək və "Türkiyə Ermənistanını" inqilabi-qeyri-sabit regiona çevirmək" əsas məqsəd idi. Müstəqillik əldə edilmədiyi təqdirdə "Türkiyə Ermənistanının" başqa bir ölkənin "tərkibinə keçməsinə nail olmaq". Əlbəttə, həmin ölkə Rusiya idi və buradan ermənilərə pul və silah yardımı gəlirdi. Meri Koçar özünün "Ermənitürk ictimai-siyasi münasibətləri və erməni məsələsi" adlı kitabında Hnçak partiyasının üç mübarizə üsulundan danışır. Onlardan birincisi – təbliğat, ikincisi – təşviqat və üçüncüsü – terror olduğunu qeyd edən müəllif ona milli azadlıq mübarizəsi donu geyindirmək istəyir. Müəllif danmır ki, partiya insanlığa qarşı cinayət işlətməyi öz proqramında rəsmiləşdirmişdi. Həmin təşkilat praktik fəaliyyətində əsas faktor olan terrora görün necə haqq qazandırır: [2] "Terrorun məqsədi xalqı əzilməkdən qorumaq, onun ruhunu, inqilabi ovqatını aşağı salmaq, qorxu yaratmaq! Bütün bunlara nail olmaq üçün yüksək administrativ postlarda çalışan türk və erməni millətinin nümayəndələrini, bir-birinə barışmaz düşmən etmək lazımdır, satqın və şpionları məhv etmək gərəkdir".[2] Bu, Hnçak partiyasının proqramından gətirilən sitatlardır. Qarşıya belə bir məqsəd qoyan partiyanın necə fəaliyyət göstərəcəyi isə məlum idi. Hnçak partiyası öz proqramında bu sözləri yazmaqla kifayətlənmirdi. Bu məqsədlərin həyata keçirilməsi üçün partiya bunları nəzərdə tuturdu:

– sırf terrorçuluq fəaliyyəti ilə məşğul olan təşkilatın formalaşmasını;

– kəndlilər arasında geniş fəaliyyət imkanı olan inqilabi təşkilatın formalaşmasını;

– fəhlələr arasında inqilabi təşkilatın yaradılmasını;

– həm kəndli, həm də fəhlə təşkilatlarının hərbi-inqilabi təşkilata çevrilməsini.

Daşnaksütyun partiyası barədə dövrün mətbuatında eyni şeylər qeyd edilmişdir. Yenə də bir erməni müəllifindən sitat: "Komitənin (daşnak komitəsi nəzərdə tutulur – Q.Ç.) proqramı üsyan yolu ilə "Türkiyə Ermənistanına" siyasi və iqtisadi azadlıq qazandırmaq idi. Komitənin 1892-ci ildə keçirilən Baş Məc-

lisində qərarlaşdırılan proqramın 8-ci maddəsi- "...hökumət üzvlərini öldürmək, sərvətlərini isə dağıtmaq və talamaq" idi. 1877-1878-ci illər rus- türk müharibəsindən sonra siyasi vəziyyətin ermənilərin xeyrinə dəyişməsi erməni təşkilatlarını fəallaşdırmışdı. Bu müharibədən sonra Türkiyə özünün tarixi ərazisi olan Qars vilayətini bütünlüklə itirdi, Qars 1918-ci ilə qədər Rusiya əsarətində qaldı. Bundan əlavə, Berlin müqaviləsinə (1878) görə Osmanlı dövləti öhdəsinə götürürdü ki, "ermənilərin yaşadıqları vilayətlərdə islahat aparacaq, bu sahədə tədbirlərin həyata keçirilməsinə nəzarət edəcək, böyük dövlətlərə müəyyən olunmuş vaxtlarda məlumat verəcəkdi". O dövr erməni və rus dilli ermənilərə aid mətbuat orqanları bu hadisələri maraqla qarşılayırdılar. 13 iyun-13 iyul 1878-ci il Berlin konfransından ermənilər müstəqillik qərarı gözləyirdilər. Bu baş verməyincə ona nail oldular ki, Osmanlı dövləti öz ərazisində yaşayan xristian toplumla bağlı hesabat vermək məcburiyyətini qəbul etməli oldu. Ermənilər isə müstəqilliyi nə vaxtsa alacaqlarına ümid edərək ölkə içərisində təxribatlar, üsyanlar, xaos yaratmaq işlərini genişləndirdilər. Sonralar Erməni İnqilabi Federasiyasının Daşnaksütyun partiyası San Stefano müqaviləsinin 16-cı paraqrafını və Berlin müqaviləsinin 61-ci maddəsini əsas götürərək "müstəqillik uğrunda mübarizədə haqlı" olduqlarını sübut etmək ideologiyasını genişləndirdi. Ermənicə çıxan daşnaklara aid "Droşak"("Bayraq") adlı qəzetdə Daşnaksütyunun və digər erməni təşkilatlarının terrorçuluq fəaliyyətinə haqq qazandırılırdı. [3] Buradakı 16-cı paraqraf ermənilərin milli hüquqları ilə bağlı idi, bütün dünyaya o zamanlar bəlli idi ki, Osmanlı dövləti azsaylı xalqların hüquqlarını qorumaqda bir çox Avropa ölkələri üçün örnəkdir. Və bunu onlar etiraf da edirdilər. Amma Qərb onları elə şirnikləndirmişdi ki, ermənilər həmişə yaxşılıq görmüş "türk dövlətinə ağ olmaq məcburiyyətində qalmışdılar". [4] "Ports" nəşri yazırdı ki, "bu məsələdə heç bir problem yox idi, problem ermənilərin əvvəlcə muxtariyyət, sonra isə müstəqillik əldə etmək üçün qurduqları planla bağlı idi ki", ona da bir hüquq dövləti olan Osmanlı imkan verə bilməzdi.

XIX əsrin sonlarında 2000-dək məktəbi olan, sərbəst şəkildə erməni dilində çıxan xeyli miqdarda qəzet-jurnala sahib, milli cəmiyyət, təşkilat və partiyaları olan erməni millətini türklərə, Osmanlı dövlətinə qarşı qoyanlar onun düşmənləri idilər. XIX əsrin 60-70-ci illərində Türkiyədə çıxan 24 qəzetdən 9-u erməni dilində idi. Haqlı olaraq erməni alimi E.Gegamyans 1915-ci ildə Bakıda erməni dilində çap etdirdiyi "Ermənilərin azadlıq hərəkatı" ("Hayeri azataqraqan şarjumı") adlı əsərində Türkiyənin milli azlıqlarla, o cümlədən ermənilərlə bağlı öhdəsinə götürdüyü bütün məsələləri həll etdiyini qeyd edir. Daşnaksütyun, Hnçak və digər erməni siyasi təşkilatları bütün bunlarla razılaşmırdılar. Onlar Anadolu ermənilərinə müstəqil bir dövlət yaradılmayana qədər mübarizələrini sürdürəcəklərini bəyan edirdilər və bu fikirlər, bu ideya

o dövrdə çıxan bütün mətbuat orqanlarında ana xətt təşkil edirdi.

I Dünya müharibəsindən öncə 1912-1913-ci illərdə Balkanlarda gedən savaş və bununla bağlı dəyişikliklərin baş verməsi digər ölkə və regionlarda da müəyyən canlanma yaratdı. Balkanlarda da milliyyətçi quldur dəstələr türkləri öldürüb onları öz yer-yurdlarından didərgin salmışdı. Bundan ruhlanan erməni milliyyətçi partiyaları Cənubi Qafqazda erməni dövləti qurmaq planlarını işə salmışdılar, lakin bu bölgə Rusiya ərazisi hesab olunduğundan onlar bu məsələni ehtiyatla gündəmə gətirirdilər. Rusiya öz ərazisində hər hansı milli dövlətin yaranmasına imkan verməzdi. Ermənilər bunu gündəmə gətirməklə Rusiyanı Osmanlı dövləti tərkibində bir erməni dövləti qurmağa kömək etməsinə təhrik edirdilər. Əsasən erməni-daşnak müəlliflərin çoxluq təşkil elədiyi “Bakinski raboçi” qəzetində 1913-1914- cü illərdə çıxan silsilə yazılarda həmin ideya öz əksini tapmışdı. Ermənilər Rusiyanı şantaj edərək onu erməniləri türklərə satmaqda günahlandırırdılar .[5]Ermənilər Osmanlının Avropada başının qarışıq olmasından istifadə etmək istəyirdilər. Osmanlının Avropada nəzarətində olan ərazilərində müsəlmanların çoxluq təşkil etməsi həmin istilaçı xristian dövlətlərini narahat edirdi. 1912-ci ildə başlanan Balkan müharibəsi bu “narahatçılığa” son qoydu. Müsəlmanların sayı 27 faiz azaldı. Ermənilər Şərqi Anadoluda “çoxalmağın” bu Balkan üsulunu mənimsəyib sınaqdan çıxarmaq üçün ayrı-ayrı vilayətlərdə fəaliyyətə keçdilər. Balkanlarda baş tutan məsələ nə üçün Anadoluda gerçəkləşməsin? Məşhur tarixçi Jastin Makkarti özününü “Kim başlatdı?” adlı məqaləsində[11]yazır ki, “Birinci Dünya müharibəsi başlamazdan əvvəl erməni partizan dəstələri, quldur drujinaları təşkilatlanmağa və təlimlər keçməyə başlamışdı və bunlar “yaxşı silahlanmış və təlim görmüş üsyançı birliklər idi. Onların sayı, görkəmli tarixçiyə görə 100 minə qədər idi. Silahların çox hissəsini Rusiya verirdi. Osmanlı məmurları öz raportlarında təkcə Sivas vilayətində 30 min erməni partizanı olduğu barədə yuxarılara məlumat vermişdilər. Bu durum, erməni quldur dəstələrinin yaratdığı təhlükə həm Osmanlı imperiyasının varlığını, həm də Anadoluda yaşayan müsəlman əhalini çox ciddi şəkildə təhdid edirdi.

Ermənilər Türkiyə ərazisində bir erməni dövləti qurmaq üçün erməni əhalisi arasında mətbuat vasitəsilə və şifahi yolla, kilsənin vasitəçiliyi ilə “milli özünüdərkin oyanması”, yəni döyüşkən millətçilik təbliğatı aparırdılar. Bu təbliğat son nəticədə erməni terrorizminin meydana gəlməsinə rəvac verirdi. Bu terrorizm başqa analoji qavramlardan fərqli olaraq təşkilatlanmış terrorizm idi. Ermənilərə aid təşkilatlanmış terrorçu qurumların yaranması Daşnaksütyundan xeyli əvvəl olsa da, ilk döyüşkən millətçi-terrorçu siyasi təşkilat məhz Daşnaksütyun-Erməni İnqilabi Federasiyası oldu. Hnçak Daşnaksütyundan xeyli əvvəl yaransa da, onun da məqsədi türkləri, kürdləri, ümumiyyətlə bü-

tün müsəlmanları fiziki cəhətdən məhv etmək olsa da, fəaliyyəti pərakəndə idi. Daşnaksütyun ona görə daha üstün terror təşkilatı idi ki, onun Proqram və Nizamnaməsində əsas taktika və strategiya siyasi məqsədlərə çatmaq üçün nəinki terroru istisna etmirdi, hətta terroru əsas mübarizə üsulu hesab edirdi. Daşnaksütyun bu taktika və strategiyanı bütün dünyada həyata keçirməyi hədəfləyirdi. Daşnaksütyun partiyasının nizamnaməsində göstərildiyi kimi, onun iki bürosu vardı:

a) Şərq bürosu;

b) Qərb bürosu.

Bu bürolar həm siyasi-diplomatik, həm də hərbi-terrorçuluq fəaliyyəti aparırdılar. Yelizavetpol qubernatoru A.Kaçalov 1907-ci ilin avqustun 7-də öz məktubunda "Daşnaksütyun partiyasının qurduğu zinvorlar" (əsgərlər) ordusu barədə yazırdı: "Daşnaksütyunun Cənubi Qafqaz sərhədləri içərisindən, əsasən Türkiyədən fərarilik etmiş ermənilərdən və yerli başkəsənlərdən təşkil edilmiş, əllərindən adam öldürmək və zor tətbiq etməkdən başqa bir iş gəlməyən, amma partiya büdcəsindən (ən aşağı rütbəli zinvorlar illik 300 rubl) yüksək maaş alan yüz min nəfərlik zinvorlar ordusu vardır". [7] Bir terror təşkilatı olaraq Daşnaksütyun daşnakçı qrupunu quraraq sonralar onu "Erməni inqilab ordusu" adlandırmışdı. Göründüyü kimi, hələ uydurma "erməni soyqırımı"- na, yəni 1915-ci ilə çox vardı, amma daşnaklar törətdikləri qanlı əməllərə haqq qazandırmaq üçün onu gündəmə gətirirdilər, öz təşkilatlarından birinə belə bir ad da vermişdilər: "Erməni soyqırımı ədalət komandaları". Bu təşkilat digər terrorçu qruplardan fərqli olaraq hədəf kimi yalnız türkləri seçmişdi. Daşnak marksist yönümlü Hnçakdan fərqli olaraq onlar kommunistlərsiz bir Ermənistan qurmaq istəyirdilər. Buna görə də hələ 1914-cü ilin payızından başlayaraq Osmanlıya qarşı gələcək müharibəyə girəcək ölkələrin yanında yer almaq qərarını vermişdilər və könüllülər drujinası təşkil etməyə başlamışdılar. Özü də bunu çox böyük hay-küy və enerji ilə edir, həmin dövlətlərin diqqətini cəlb etmək üçün ölkə içində təxribat, terror, ixtişaş və nümayişlərin sayını çoxaldırdılar. Halbuki partiya özünün Ərzurum (oktyabr 1914) qurultayında Türkiyəyə qarşı qanundankənar hərəkətlərə yol verməyəcəyini açıqlamışdı. Bu daşnakların taktikası idi. Bundan bir neçə il əvvəl Gənc Türklərlə saziş bağlayan partiyanın gerçəkləşdirəcəyi çevriliş (1908) baş tutmayınca onlar üzlərini Rusiyaya tutmağa "məcbur olmuşdular (Qurko-Kryajin "Erməni məsələsi" Bakı, "Kommunist" nəşriyyatı, 1990, 35\13). Rusiyaya bu dönəmdə çoxlu erməni milliyətçiləri köç etmişdi. "Rusiya və Türkiyə arasında məskən salmış ermənilər" çox böyük siyasi əhəmiyyət kəsb edirdi. Rus diplomatları erməni burjuaziyası ilə saziş bağlamağa nail olmuşdular ki, Şərqi Anadolu vilayətlərində islahatlar keçirilməsi tələblərini irəli sürəcəklər və bunu artıq irəli sürmüşdülər. Gənc Türklər 1914-cü ildə islahatlar barədə saziş

imzalamağa məcbur olmuşdu. Bu, ermənilәri daha aqressiv hərəkətlərə, siyasi-hərbi gedişlər etməyə sövq etdi, müharibə başlanarkən isə onlar açıq şəkildə Rusiyanın tərəfinə keçdilər (yenə orada). Ermənilər fikirləşirdilər ki, müharibə Osmanlı İmperiyasına son qoyacaq və onlar “Böyük Ermənistan” ideyasını həyata keçirəcəklər. Milliyyətçilərin “Hayrenik” qəzeti yazırdı ki, “biz onu hesablamamışdıq ki, müharibə gedə-gedə o şərait yaranacaq ki, türklər vaxt tapıb “erməniləri Şərqi Anadoludan köçürəcəklər” (“Hayrenik” 10 iyul 1915). Demək ermənilərin Şərqi Anadoludan köçürülməsi də daşnakların planına uyğun olmuşdur, onlar bu hadisədən sonra Rusiyadan Qafqazda erməni dövlətini yaratmağı tələb edə biləcəkdilər. Dövrün erməni mətbuatı Osmanlı dövlətinin köç və yerdəyişmə qanununu ermənilərə vurulan zərbə hesab etsə də, bu hadisənin Cənubi Qafqazda bir erməni dövləti yaranmasına şərait yaradacağına ümid edirdilər. Erməni mətbuatında bu xarakterli yazılar həmin dövrdə çoxluq təşkil edirdi. Elə yazılara da rast gəlinir ki, onların analizini apararkən o nəticəyə gəlmək olur ki, bu hadisə onların ürəyindən olmuşdur (“Hnçak” qəzeti, 1915-ci il, 18 avqust №112). Daşnak liderlərinin biri olan V.Papazyanın da fikirləri dediklərimizi təsdiq edir. O qeyd edirdi ki, 1915-ci ilin ikinci yarısı və bütünlüklə 1916-cı il erməni xalqının matəm ayları sayılmalıdır, “biz hansı siyasi iş və təbliğat aparacağımızı bilmirdik. Artıq gerçəkləşdirmək istədiyimiz Ermənistan xəyallarda qalmışdı. Biz indi erməni xalqını məhv olmaqdan xilas etmək barədə fikirləşməliyik. Bu (yəni erməni köçü) çox yaxşı oldu. Dövlətimizi Qafqazda yaratmaq şansı verdi” Bir başqa daşnakçı lider Camalyan bu hadisələrdə, ermənilərin Şərqi Anadoludan köçə məruz qalmasında Rusiyanı günahlandırırdı: “Onlar bizi aldadıb heç nə vermədilər” (Pirumyan S. G. “Diasporadakı daşnaklar”, İstanbul, Kaynak yayınları, 2007-ci il,176 s. 69). O deyir ki, ruslar ona görə bu köçə göz yumdular ki, işğal etdikləri bu ərazilərə kazakları köçürsünlər. Hətta Knyaz Lobanov Rostovskinin belə bir layihəsi də mövcud idi – “ermənilərsiz Ermənistan”. Başqa bir erməni yazarı hadisələrin bu şəkildə cərəyan etməsini böyük dövlətlərin güddükləri məqsəddə və bölgədəki maraqların toqquşmasında görürdü: Rusiyanın Daşnaksütyunla 6 erməni vilayətini əhatə edən dövlətin yaradılması barədə razılaşması Fransanı narazı salırdı. Onun Kilikiya ilə bağlı planları vardı, Rusiya isə şərt qoyurdu ki, Kilikiya da bu 6 vilayətə birləşdirilməlidir ki, o Aralıq dənizinə çıxış əldə etsin. [8] Fransa bunu istəmirdi, digər müttəfiqi olan İngiltərəni də Rusiyanın bölgədə güclənməsinə qarşı çıxmağa sövq edirdi, cəbhədə gah rusların, gah da türklərin üstünlük qazanması da göstərirdi ki, Rusiya bu ərazilərdə müstəqil bir erməni dövləti deyil, Rusiyaya aid bir neçə quberniya istəyirdi. Ermənilər isə həmişə olduğu kimi onların siyasi maraqlarının aləti olmalıydılar. Rusiya bu bölgələri əldə saxlaya bilsəydi və buraya planda olduğu kimi kazakları köçürə bilsəydi ermənilər

üçün heç nə verməyəcəkdi. Bunu erməni liderlər görürdülər, amma Rusiyadan nəsə qoparmaq üçün siyasi manevrlər edirdilər. Vəziyyət türklərin xeyrinə dəyişincə onlar Cənubi Qafqazda erməni dövləti qurmaq ideyasını reallaşdırmaq üçün fəaliyyətlərini genişləndirdilər. Həm müharibədə, həm də siyasi arenada hələ "sular durulmamışdı". Rusların Körpüköy ətrafından geri çəkilmələri türk ordusunu ruhlandırdı. Türk ordusunun komandanı, hərbi nazir Ənvər paşa rusları Qars və Sarıqamış ətrafında darmadağın etmək istəyirdi. Sarıqamışda mühasirəyə düşən 100 minlik türk əsgərinin 90 mininin soyuqdan donması Osmanlı ordusunun belini qırdı. Sarıqamışdakı uğursuzluqdan sonra türklər özlərinə gələ bilmədilər. Bundan sonra həmişə hərbi uğurlar Rusiyanın tərəfində oldu. Cəbhədəki bu vəziyyət erməni siyasi təşkilatlarını, quldur dəstələrini yenidən fəallaşdırdı. Onlar rusların qələbəsindən sonra bölgədə yenə "Ermənistan dövləti" yaratmağı planlaşdırırdılar. Daşnakların rəsmi mətbu orqanı olan "Droşak" ("Bayraq") o zaman yazırdı:"Madam mən ölməyə, ya da azad olmağa qərar verdim, o halda sən də ya yaşamaqdan əl çək, ya da müstəqil ol" ("Droşak", 1917 may) S. Q. Pirumyan bu çağırışların "gələcək siyasi cinayətlərə" yol açdığını acıyaraq qeyd edir, ermənilərin yeni taktikasının fəlsəfəsi üzərində dayanaraq onun zərərlərini çatdırırdı. (S.Q. Pirumov...yenə orada.)

Tarixi sənədlərin hamısı ermənilərin xəyanət yolu tutduğunu sübut edir. 1914-cü ildə Birinci Dünya müharibəsi başlamazdan öncə ermənilərin siyasi təşkilatları, komitə və cəmiyyətləri, dini qurumları dərhal bir araya gəldilər. Osmanlı dövlətinin bu müharibədə durumuna uyğun olaraq aparacaqları siyasəti müəyyənləşdirmək üçün bir neçə ölkədə açıq və gizli toplantılar keçirdilər. Bu toplantılardan biri İstanbul Qalatadakı Erməni böyük mərkəzi məktəbində olmuşdu. İstanbul katolik kilsəsinin rəhbərlik etdiyi bu yığıncağa Daşnaksütyun və Hnçak da daxil olmaqla nüfuzlu erməni siyasi təşkilatları da dəvət edilmişdi. Daşnak və Hnçak nümayəndələrinin də daxil olduğu Birləşmiş Milli Erməni Konqresi belə bir qərar qəbul etdi ki, müharibə dövründə ermənilər "Osmanlı hökumətinə sadiq qalmalı, xarici xidmətlərini yerinə yetirməli, xarici təsirlərə uymamalıdırlar" (Mim Kamal Öke "Uluslararası boyutlarıyla Anadolu-Kafkasya eksenində Erməni sorunu-1914-1923, İz yayıncılıq – 1996, 390 s.). 1914-cü ilin iyununda isə Ərzurumda bütün Şərqi Anadolu vilayətlərindən, dünyanın müxtəlif yerlərindən gələn nümayəndələrin iştirakı ilə səkkizinci Daşnaksütyun Konqresi toplandı. Bir neçə il əvvəl "İttihat və Tərəqqi" ilə anlaşaraq erməni milləti üçün müəyyən vədlər alan Daşnaksütyun bu konqresdə "İttihad və Tərəqqi"ni hədəf seçdi və açıq-açığına bildirildi ki, erməni xalqı bu müharibədə öz ölkəsini deyil, Osmanlının rəqibini dəstəkləyəcək. Osmanlının Şərqdə Rusiya ilə müharibə etməsi erməni təşkilatlarını ürəkləndirmiş və onların həmin dövrdə çıxan mətbuat orqanlarında ("Dro-

şak", 24 iyun 1914) Rusiyaya açıq simpatiya var idi. Daşnakların mətbuat orqanlarında partiyanın o zaman belə bir təlimatı dərc olunmuşdu: "Rus ordusu sərhədləri keçmişdir, Osmanlı əsgəri geri çəkiləcək. Əlimizdəki vəsaitlərlə qiyam etməliyik. Osmanlı ordusu iki ataş arasında qalacaq". Həmin təlimata uyğun da erməni drujinaları, hərbi "çete" dəstələri hazırlamağa başladı. Rusiyanın özündə ermənilər daha fəal iş aparmağa başladılar. Ölkənin hər tərəfindən erməni könüllüləri rus ordusuna, intiqam alaylarına, erməni hərbi drujinalarına yazılırdılar. Tiflisdə erməni əsilli bələdiyyə başqanı A. Xatisovun rəhbərliyi ilə Erməni Regional Bürosu fəaliyyət göstərirdi. Zaqafqaziya general qubernatoru Vorontsov-Daşkov erməni könüllülərinin hərbi hazırlığına şəxsən özü nəzarət edirdi. Bəhs etdiyimiz təlimata uyğun olaraq erməniləri hərəkətə keçirmək üçün Rusiya ermənilərindən ibarət xeyli miqdarda komitəçinin Şərqi Anadoluya göndərildiyi barədə o dövrdə çıxan mətbuat orqanlarda yazılar getmişdir. "Droşak" qəzeti yazırdı ki, vaxtilə Sibirə sürgün edilmiş daşnak komitəçilərindən təxminən 180 nəfəri dərhal azad edilərək Türkiyəyə göndərildi. Onlara konkret tapşırıqlar verilmişdi. Osmanlı Baş Komandanlığının 3-cü Ordu Komandanlığına 25-26 sentyabr tarixli məlumatında. "Qafqazda Hnçak və Daşnak komitə nümayəndələrinin Osmanlı ermənilərini üsyana sövq etmək üçün Rusiya ilə anlaşdıqları" bildirilirdi (9). Tiflisdə komitəçilərin rəhbərliyi ilə erməni könüllüləri toplanaraq rus ordusunun tərkibinə daxil edilirdilər. Rusların balkanlardakı ordularının içərisində erməni hərbi bilikləri vardı. Bolqar ordusu tərkibindəki bu birliklərdən birinə Andranik Ozanyan başçılıq edirdi. Andranikin rəhbərlik etdiyi birliklərdən biri Şimali İranda rus orduları ilə birləşməyə müvəffəq olmuşdu. Qafqaz cəbhəsində digər erməni hərbi birliyi isə Osmanlı sərhədlərini keçmişdi. Armen Karo adlı keçmiş Osmanlı təbəəsinin kömək elədiyi general Dronun başçılıq elədiyi ikinci alayı İğdıra girməyə hazırlaşırdı. Bu ordu Vanı işğal edəcək hərbi qüvvələrin bel sütunu sayılırdı. Hamazasp ve Kerrinin ("Dayı" deməkdir) başçılığı ilə üçüncü və dördüncü alaylar qərb istiqamətində hərəkət edərək Qarsı işğal edəcəkdilər. Arxa cəbhədə ermənilərin yaşadığı Şərqi Anadolu kənd və şəhərlərində vəziyyət daha ağır idi. Bu bölgədə konsulluq fəaliyyəti göstərən ingilis, fransız və italyan konsulluqları daxildəki erməni təxribatçılarının xarici əlaqələrinə yardım edirdilər. Emniyyət Baş Müdirliyinin Baş Komandanlığa 31 yanvar 1915-ci ildə yazdığı 2086 saylı yazıda "İstanbul Erməni Katolikosluğunun İtaliya səfirliyinin vasitəsilə Eçmiadzin kilsəsinə casusluq" etdiyi bildirirdi. Ermənilər türk ordusuna arxadan zərbə vurmaqda idilər. Osmanlı dövləti bilmirdi müharibə işləri ilə, yoxsa "erməni məsələsi" ilə məşğul olsun. Bu hal mətbuatı məşğul edən məsələlərdən birinə çevrilmişdi. Osmanlı rəsmi mətbu orqanlarında ingilis, fransız, italyan diplomatlarının casusluqla məşğul olduqları qənaəti hasil olur.

Müharibəyə qədərki dövrdə ermənilər Şərqi Anadoluda əməlli-başlı silahlanmışdılar. Rusiyadan İran üzərindən bu bölgələrə silah-sursat daşınmışdı. Hətta terrorçu erməni qrupları bir neçə dəfə, ayrı –ayrı bölgələrdə silahlı üsyanlar təşkil etmişdilər. 1903-cü ilin sonlarında Andranikin rəhbərliyi ilə Siirt vilayətinin Sasun bölgəsində nəzarəti də ələ keçirmişdilər. Osmanlı hökuməti 1904-cü ilin aprelində terrorçuları məhv etmək üçün hərbi hissələrdən istifadə etmişdi. Ermənilər ayrı-ayrı dəstələrə bölünərək müqavimət göstərmişdilər. Hadisələr böyüyüb qiyama çevrilmişdi. Daşnak partiyasının üzvlərindən olan V.Kudulyan "Andranikin müharibəsi" kitabında [10] yazırdı: "...Sasunda baş tutan toqquşma bütün Muşdan başlamış bütün Van vilayətinə yayıldı. Xarici ölkələrin konsulları Andranikə təklif etdilər ki, bu rayonu tərk etsin. Qafqazda və İranda güclü şəbəkə qurmuş daşnaklar bizə hər cür kömək edirdilər, onlar bizi silah və hərbi sursatla təmin edirdilər. Səhra komandirləri özlərinə rəhbər Andraniki seçmişdilər. Biz minə qədər düşməni məhv etmişdik." Andranik həmin vaxtlar duruş gətirə bilməyib Qafqaza qaçmışdı, özü ilə həmin quldur dəstələrini də gətirmişdi. I Dünya müharibəsi başlayan kimi Osmanlı dövlətinə qarşı rusların tərəfində vuruşmağa başladı və minlərlə dinc sakini vəhşicəsinə qətlə yetirməyə başladı.

1914-cü ilin sonlarına doğru artıq ermənilər hər ehtimala qarşı İngiltərəyə də "qarmaq atırdılar". 12 noyabr 1914-cü ildə ermənilər Qahirədəki ingilis səlahiyyətlilərinə belə bir təklif vermişdilər: "Klikiya erməniləri Mersin, İsgəndərun və ya Adanaya atılacaq hərbi desantlara hər cür yardım etməyi öz üzərlərinə götürür. Biz könüllü olaraq ingilislərə dağ şəraitində də kömək edəcəyik". Bunları nəzərə alan rus səfiri 24 fevral 1915-ci ildə öz ölkəsinin rəhbərliyindən "ermənilərin türklərə qarşı istifadə edəcəkləri silahların İsgəndəruna, fransız və ingilislərə verilməsini və Fransa və İngiltərənin ermənilərlə birgə hərəkət etməsini məqsədəuyğun hesab edirdi, üstəlik bu ölkələrdən ermənilərə yardımda bulunmağı da rica edirdi". Bu dövlətlər də bilirdilər ki, ermənilər türklərə qarşı müharibədə onlara yardım edəcək ən yaxşı vasitədir...

**ƏDƏBİYYAT**

1. "Hnçak" qəzeti, N 9, 1890

2. Кочар Мери «Армяно-туретские овшественно-ролитическое отношения и армянский вопрос. Ереван, 1988

3. "Droşak" qəzeti, N 8. 1899,

4. "Ports" ("Sınaq") jurnalı, N 7-8. 1879

5. "Bakinski raboçi", N 8, 1913

6. Пирумов С. Г. (Пирумян) «Дашнаки за рубежом». Издание научной Ассоциации Востоковедения, Тифлис, 1934

7. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 841, ..7, iş 290
8. Gnkur. ATAŞE Arşiv belgeleri
9. Kudulyan V. "Andraniki baderazmı" Beyrut, 1929
10. "Армянская проблема в контексте Мирового баланса сил". Издание TRT, Анкара, 2007
11. Jastin Makkarti "Kim başlatdı?" məqaləsi, "Erməni soyqırımı iddiaları". Cedit nəşriyyat-Ankara, 2006
12. «Большая Советская Энциклопедия». Том Третий. Акционерное общество «Советская энциклопедия». Москва 1926

## X A R İ C İ   O R D U L A R D A

### YENİ LAZER TOPU

**2011-ci ilin iyul ayının 25-də ABŞ-ın Boing şirkəti ilə İngiltərənin BAE Systems şirkəti arasında ABŞ hərbi-dəniz qüvvələri üçün yeni silah yaradılması ilə bağlı müqavilə imzalanmışdı. Söhbət yeni silah-döyüş lazeri ilə avtomatik topun kombinə edilməsindən gedir. O vaxt ekspertlər bu məsələyə skeptik yanaşmışdılar. Lakin ideya müəlliflərinin fikrincə, bu iki silahın birləşdirilməsi çox da böyük olmayan yerüstü və suüstü (kater, qayıq, PUA və s.) hədəfləri dəqiq məhvetmə gücünün artırılmasına xidmət etdiyindən, maraqlı, çətin və gərgin zəhmət bahasına əmələ gələ bilən bir layihədir.**

**Hər iki şirkət hal-hazırda inkişaf etməkdə olan və donanmada tətbiq edilən taktiki lazer sistemi – Mk38 Mod 2 qurğusu ilə 25 mm çaplı M242 Bushmaster avtomatik topunu bir sistemdə birləşdirməyə çalışırlar.**

**BAE sistem şirkəti kombinə edilmiş belə bir sistemi nümayiş etdirmək üçün nümunə qurğusunun hazırlanmasına ABŞ donanmasından 2,8 mln. dollar həcmində maliyyə vəsaiti almışdır. Nəticədə bir blokda birləşdirilən Mk38Mod 2 Tactical Laser System hibrid qurğusu ərsəyə gələcəkdir. Qurğuda ümumi tuşlanma sistemindən istifadə olunacağı güman edilir. Ən maraqlısı isə gəminin komandasının təsir vasitəsini (şüa və ya mərmi) seçmək, hədəfdən və atış şəraitindən asılı olaraq lazerin gücünü artırmaq imkanının olmasıdır. Bu yaxınlarda aparılan sınaqlar nəticəsində belə şüanın real dəniz şəraitində (havadakı nəmişlik, ləpələnmə və s.) yanğın törədə biləcəyi kiçik bir kater üzərində sübut olundu.**

# GÜNƏŞ YANIQLARI, GÜNVURMALAR, QAR KORLUĞU, İSTİLİKVURMALAR

**Polkovnik-leytenant Rəfail ƏHMƏDOV**
**SİLAHLI QÜVVƏLƏRİN BAŞ KLİNİK HOSPİTALI**

**GÜNƏŞ YANIQLARI**

Günəş şüalarının atmosferdə temperaturunun +30-35$^0$ C-dən yuxarı olması nəticəsində açıq dəri səthində günəş yanıqları əmələ gəlir və mərkəzi sinir sistemində termorequlyasiya pozulduğundan günvurma, istilikvurma baş verir. Günəş yanıqları sırf hərbi-səhra zədələnmələrinə aid olmasa da isti mövsümdə, xüsusilə çöl şəraitində əsgərlər arasında daha çox müşahidə olunur. Bu, sığınacaqların olmadığı bir şəraitdə, gün altında keçirilən hərbi təlimlər, sıra hazırlığı, fiziki hazırlıqlar və s. zamanı günəş şüasının birbaşa təsiri nəticəsində açıq havada baş verir. Günəş yanıqları bir sıra hallarda günvurmalarla birlikdə müşahidə olunur. Günəş şüasının baş beyinə birbaşa təsiri daha qorxuludur. Ağır hallarda huşun itməsi və ölüm halları da baş verə bilər. Günəş şüası spektrinə daxil olan ultrabənövşəyi şüalar dəri səthinə, gözün buynuz qişası və konyuktivalarına, infraqırmızı şüalar isə daha dərin toxumalara təsir qabiliyyətinə malikdir. Birinci halda dərinin açıq yerlərində, gözün buynuz qişası və konyuktivalarında termiki yanıqlar, ikinci halda isə daha dərinliklərdə, məsələn, beyin toxumasında qızma və bir sıra funksional pozğunluqlar baş verir. Bəzi hallarda xüsusilə, rütubətli şəraitdə orqanizmin istiliyi xaric edə bilməməsi nəticəsində də istivurma halları baş verir. Yaşlı şəxslər, uşaq və qadınlar günvurmalara daha həssas olurlar. Xüsusilə, ürək xəstəliyi, hipertoniya, şəkərli diabeti olan şəxslər günvurmanı çətin keçirirlər.

Günəş şüasının birbaşa baş beyinə təsiri nəticəsində günvurma əmələ gəlir, özünü ümumi və yerli əlamətlərlə göstərir. Ümumi əlamətlərə bədən hərarətinin yüksəlməsi, ümumi zəiflik, baş ağrıları, ürəkbulanma və qusma hallarının olması, bir sıra hallarda bayılma və s. aiddir. Ürək döyüntüsünün sayı artır, tənəffüs tezləşir, arterial təzyiqin qısa müddətli yüksəlmə-enmə halları müşahidə olunur. Xəstələrin dərisi quru, hiperemiyalaşmış olur. Bədənin açıq hissələrində termiki yanıq əlamətləri olaraq hiperemiya və suluqlanmalar

müşahidə edilir. Dəri səthinin daxilində şəffaf, sarımtıl maye ilə dolu olan qabarcıqlar əmələ gəlir. [1. 68]

Belə xəstələrin ağırlıq dərəcəsi dörd kateqoriya üzrə müəyyənləşir:

**I dərəcəli günvurmalar**. Xəstələrin ümumi vəziyyəti qənaətbəxş olur. Dəri və görünən selikli qişası hiperemiləşmiş və quru olur, tənəffüsü tezləşmiş, dəqiqədə nəfəs alıb-vermə sayı 20-25-ə çatır. Zəif ləngimə əlamətləri müşahidə edilir. Nəbzin sayı dəqiqədə 90-95, arterial təzyiq 100-110/60 mm civə sütunu, (bəzən bir qədər yüksək) huş aydın olur. Bədən hərarəti normal və ya bir qədər yuxarı vəziyyətə düşür.

**II dərəcəli günvurmalar**. Xəstələrin dəri və görünən selikli qişası hiperemiləşmiş və quru olur. Onlar ümumi zəiflik və baş ağrılarından şikayət edirlər. Bir sıra hallarda öyümə və qusma əlamətləri müşahidə olunur. Tənəffüs zamanı nəfəs alıb-vermə sayı dəqiqədə 25-30-a çatır. Huşun ləngiməsi, stupor (bəzi ruhi xəstəliklər zamanı xəstənin hərəkət və danışıq qabiliyyətini tamamilə itirdiyi hal) vəziyyəti, bəzi hallarda isə oyanıcılıq halları müşahidə olunur. Nəbzin sayı dəqiqədə 110-120, arterial təzyiq 90-80/50-40 mm civə sütununa enir, bədən hərarəti yüksəlmiş olur.

**III dərəcəli günvurmalar**. Xəstələrin dərisi və görünən selikli qişası quru, hiperemiyalı və sianozlu olur. Müəyyən hallarda hiperemiyalı sahələrdə içərisi şəffaf maye ilə dolu olan dəri qabarcıqları olur və bədən hərarəti yüksəlir, təngnəfəslik müşahidə edilir. Tənəffüs tezliyi dəqiqədə 35-40-a çatır. Nəbzin sayı dəqiqədə 130-160, zəif və sapvari olur, bəzən isə nəbzi saymaq mümkün olmur. Arterial təzyiq kritik səviyyədən aşağı -75-50/40-30 mm civə sütunu olur. Xəstənin huşunda kəskin tormozlanma qeyd edilir və xəstə huşunu itirir. Vaxtında yardım göstərilməzsə belə hallarda ölüm baş verə bilər.

**IV dərəcəli günvurmalar**. Xəstə kritik-ağır vəziyyətdə olur. Dəridə piqmentasiya fonunda sianoz, tənəffüs səthi və tezləşmiş olur. Biot, yaxud Çeyn-Stoks tipli tənəffüs aşkar edilir. Arterial təzyiqin maksumal həddi 40 mm civə sütunundan aşağı olur. Dövr edən qan həcminin azalması və miokardın işləmə qabiliyyətində pozğunluq halları aşkarlanır. Nəbz aritmik və zəif olur, bəzən isə itir. Xəstənin vəziyyəti son dərəcə ağır olur. Bir sıra hallarda göstərilən yardım lazımi səmərə vermir, aqonal, preaqonal vəziyyət və kliniki ölüm baş verir.

### GÜNVURMALAR ZAMANI TİBBİ YARDIMIN HƏYATA KEÇİRİLMƏ QAYDALARI

İlk növbədə xəstə təhlükəli zonadan kənar edilməli, onun başına soyuq kompress, yaxud dəsmala bükülmüş buz qoyulmalıdır. Xəstənin huşu özündədirsə və qusma əlamətləri yoxdursa, ona soyuq içkilər verilməli, tənəffüs pozğunluğu və ürək çatışmazlığı hallarında xəstəyə tənəffüs və ürək-damar fəaliyyə-

tini stimullaşdıran dərmanlar vurulmalı, ağır hallarda isə infuzion terapiyadan istifadə edilməlidir. Huşunu itirmiş və qusma əlaməti olan xəstələrin mədəsinə zond yeridilməli, oksigen inhalyasiyası tətbiq edilməli və hemodinamikaya nəzarət olunmalıdır. Yanıq səthlərinin sarınması məsləhət görülmür. Günəş yanıqlarında açıq üsulla müalicəyə daha çox üstünlük verilməlidir. Yerli dərmanlardan dəri regenerasiyasını artıran "Kalendul", "Aloy-propolis" geli, yanıq kremləri "Sulfargin", "Argedin", "Nestosil" və s. istifadə olunur.

Günəş yanıqları səthi yanıqlara aid olduğundan yanıq sahələri izsiz sağalır, bəzən isə yanıq sahələrində müəyyən müddət davam edən piqmentasiya müşahidə oluna bilər. Günəş yanıqları və günvurmalar zamanı vaxtında görülən tədbirlər nəticəsində xəstələrin vəziyyəti qısa müddət ərzində yaxşılaşır və hospitalizasiyaya ehtiyac qalmır. Ağır hallarda tənəffüs sistemində, ürəkdə və qan dövranında, böyrəklərdə, mədə-bağırsaq sistemində, nevroloji və s. yönümlü dəyişiklik olan şəxslərin, xüsusilə hipertoniya və şəkərli diabeti olan, yaxud miokard infarktı keçirmiş şəxslərin hospitalizasiyası məsləhət görülür.

**QAR KORLUĞU VƏ YA OFTALMİYA**

Qar korluğu və ya oftalmiya ultrabənövşəyi günəş şüalarının bərkimiş qar səthindən əks olunub gözün buynuz qişası və konyuktivasındakı toxumalarında əmələ gətirdiyi yanıqlardır. Belə yanıqlar, adətən yaz fəslində qar səthində günəş şüalarının parlaqlığının artması dövründə baş verir və xəstəlik zamanı immunitet yaranmır.

**Qar korluğu** olduqda 10-20%-li "Albusid" və 1%-li "Protorqal" məhlulundan hər iki gözə 2-3 damcı damızdırılır. Şərait üzündən dərman maddələri tapılmayıbsa, zərərçəkəni 2-3 gün müddətinə qaranlıq otaqda yatızdırmaq lazımdır.

**İstivurma**. Xarici mühitdə temperaturun yüksəlməsi nəticəsində orqanizmin termorequlyasiya mexanizmlərinin, orqan və sistemlərin funksiyasının pozulması və bədən hərarətinin yüksəlməsi ilə müşayiət olunan patoloji hal istivurma adlanır.

Normal şəraitdə insan orqanizmində bədən hərarətinin sabitliyi istilik hasilolması və istilik ayrılması prosesləri arasında baş verən mürəkkəb termorequlyasiya mexanizmləri hesabına təmin olunur. Dəri örtüyü orqanizmdə bədən hərarətinin tənzimlənməsi və stabil saxlanılmasında başlıca rol oynayır. Bu funksiya dəri səthindən tərləmə və buxarlanma vasitəsilə yerinə yetirilir. Orqanizmdə hərarətin əmələ gəlməsi, adətən toxuma və orqanlarda baş verən maddələr mübadiləsi – yağ, karbohidrat və zülalların parçalanması hesabına yaranır. İstilik hasilində başlıca rolu əzələlər və qaraciyər oynayır. Sakit halda bədənin daxili hərarətinin normal saxlanılması üçün 2000 kkal enerji sərf

olunur. Fiziki iş zamanı isə enerji sərfi dəfələrlə artır. İstilik itkisi ətraf mühitin temperaturundan, rütubət və hava cərəyanının hərəkətindən asılıdır.
Orqanizmin ifrat dərəcədə qızmasına səbəb olan amillər 2 qrupa bölünür: [2.3-40]

**I. İstilik hasilini gücləndirən amillər:**
1. Fiziki iş və hərbi təlimlər.
2. Ətraf mühitin yüksək hərarəti.
3. Metabolizm mübadiləsinin yüksəlməsi.
4. Normadan artıq qidalanma (xüsusən də zülal tərkibli).
5. Spirtli içkilərin qəbulu.
6. Piylənmə.
7. Pirogen maddələrin orqanizmdə sintez olunması.

**II. İstilik ötürülməsi və itirilməsinə mane olan amillər:**
1. Çox isti və hava keçirməyən hərbi geyimlər.
2. Ətraf mühitin yüksək rütubətliliyi.
3. Hava təmizləyici sistemi zəif olan otaq və kazarmalar.
4. Hava cərəyanının olmaması.
5. İsti havada içməli sudan az istifadə olunması.
6. Tər ifrazının pozulması.

İstilik tənzimi sinir-humoral yolla həyata keçirilir. İstilik tənziminin əsas mərkəzləri beyin qabığında, III mədəciyin dibində, hipotalamus və uzunsov beyində yerləşir. İstiliyin tənzimlənməsində endokrin sistemin, qalxanabənzər, hipofiz və böyrəküstü vəzlərin əhəmiyyəti vardır.

İnsan uzun müddət yüksək temperatur şəraitində fiziki işlə məşğul olduqda orqanizm daha çox qızır. İstilik tənziminin kompensator mexanizmləri bədən hərarətini müəyyən həddə qədər sabit saxlaya bilər. Daha sonra kompensator mexanizmlərin qırılması bədən hərarətinin yüksəlməsinə, bu da öz növbəsində maddələr mübadiləsinin güclənməsi və anticismlərin sintezinə səbəb olur. Belə halda simpatik sinir dəstələri qıcıqlanaraq periferik damarların spazmına gətirib çıxarır və nəticədə istilikvermə prosesi zəifləyir. Hərarət yüksəldikdə istilik tənzimi dayanmır, ancaq xarakteri təhrif olunaraq dəyişir.

Orqanizmdə yüksək hərarət şəraitində maddələr mübadiləsinin yüksəlməsi ilə bərabər bir çox fizioloji funksiyalar pozulur. Bunlardan daha tez nəzərə çarpanı tər vasitəsi ilə itirilən su və mineral maddələr hesabına su-duz balansının pozulmasıdır. Mineral maddələrdən ən çox Cl, Na, K, Ca, Mg ionları itirilir. Orqanizmə daxil və xaric olan maye və mineralların miqdarı bir-birinə uyğun gəlmir, nəticədə turşu-qələvi balansı pozulur ki, bu da orqanizmdə daha ağır patoloji halların əmələ gəlməsinə səbəb olur.

**Hipertermiya** şəraitində tər vəzləri simpatik sinirlərlə qıcıqlanaraq asetil-

xolinin artmasına səbəb olur. Bunun da nəticəsində tər vəzlərinin fəaliyyəti güclənir və profuz tər ifrazı baş verir. Mayenin çox itirilməsi dövr edən qanı qatılaşdıraraq onun özüllüyünü artırır, qanın hərəkət sürəti azalır, arterial təzyiq normadan aşağı düşür və böyrək yumaqcıqlarında mikrosirkulyasiya pozulduğuna görə filtrasiya azalır ki, bu da oliqoanuriyaya səbəb olur. Zülal tərkibli maddələrin parçalanması hesabına qanda kreatinin, sidik cövhəri və qalıq azotun miqdarı artır. Mübadilə prosesi sürətləndiyindən aralıq məhsulların əmələ gəlməsi artır və nəticədə qaraciyərin ferment göstəriciləri (AST, ALT) yüksəlir. Hərarətin yüksəlməsi həm də, beyin qan dövranının pozulmasına, hipoksiya və beyin ödeminə səbəb olur, huşun tormozlanması baş verir. Ağız suyu ifrazı azalır, selikli qişalar quruyur, sekretlərin qatılaşması, hətta tüpürcək vəzləri axarlarının tutulması baş verir, bağırsaqların peristaltikası pozulur. İştaha itir, qida maddələrinin qəbulu pisləşir, meteorizm, ishal və ya qəbizlik əlamətləri özünü göstərir.

Ağırlıq dərəcəsindən asılı olaraq istivurmaların 3 forması ayırd edilir [3]:

1. Yüngül.
2. Orta-ağır.
3. Ağır.

**Yüngül formalı** istivurmalar bədən hərarətinin 37,5-38$^0$C-yə qədər yüksəlişi, susuzluq, ağızda quruluq, ümumi zəiflik, qulaqlarda uğultu, dispeptik əlamətlər, öyümə, qusma, yuxuya meyillilik kimi əlamətlərlə özünü göstərir. Belə xəstələrə vaxtında yardım göstərildikdə və xarici mühit hərarətinin təsiri aradan qaldırıldıqda xəstəlik qısa müddətə müalicə olunur.

**Orta-ağır** dərəcəli formada bədən hərarəti 39-40$^0$C-yə qədər yüksəlir, kəskin susuzluq, ümumi zəiflik, başağrısı, qusma, hərəkət koordinasiyasının pozulması kimi hallar qeyd olunur. Huş dumanlanır, əzələ tonusu və arterial təzyiq aşağı düşür. Qanda kreatinin miqdarı yüksəlir və soporoz vəziyyət yaranır.

**Ağır formalı** istivurma zamanı xəstə huşunu itirir, hallusinasiyalar, psixomotor oyanıqlıq, qeyri-adekvat hərəkətlər qeyd olunur, xəstə komaya düşür. Tonik və klonik qıcolmalar, qeyri-iradi sidik ifrazı və defekasiya aktı baş verir. Dəri quruyur, bədən hərarəti 41-42$^0$C-yə yüksəlir. Bəbəklər genişlənir, işığa reaksiya zəifləyir və itir. Göz dibində durğunluq qeyd olunur. Nəbz sapvari olub tezləşmiş olur, tənəffüs pozulur. Bu zaman Çeyn-Stoks tipli tənəffüs və ağciyər ödemi yarana bilər. Qanda qatılaşma qeyd olunur, hipoxloremiya, hiponatriemiya, kəskin kreatinemiya, anuriya əlamətləri baş verir. Xəstəyə təcili tibbi yardım göstərilməli və orqanizmin həddən artıq qızmasının qarşısının alınması üçün tədbirlər görülməlidir, əks halda xəstə ölə bilər. [3]

**Diaqnoz** xəstənin şikayətləri, anamnezi, obyektiv əlamətlərə, lobarator və rentgenaloji müayinələrə əsasən qoyulur. [5.80-83]

## İLK TİBBİ YARDIM

**Tibbi yardımı aşağıdakı qaydada həyata keçirmək məqsədəuyğundur:**

**1) Yüngül dərəcəli istivurmalarda:**

1. Xəstəni ətraf mühitin yüksək hərarətinin təsirindən təcrid etməli.
2. Xəstəni sərin yerdə yerləşdirməli.
3. Dərini soyuq su ilə isladıb silməli.
4. Baş, boyun və qasıq nahiyyələrinə buz qoymalı.
5. Soyuq halda çoxlu maye və şirələr içirtməli.
6. Tibb taborlarında sərin su vannası və ya duş qəbul etməli.

**2) Orta-ağır dərəcəli istivurmalarda:**

1. Su-elektrolit balansını tənzimləmək.
2. Həyatı vacib üzvlərin funksiyasını bərpa etmək.
3. Vena daxilinə duz məhlulları köçürtmək (“Ringer-laktat”, 0,9%-li “Natrium-xlorid”, “Disol”, “Trisol”, 100-200 ml 10%-li “Kalium-xlorid” məhlulları və kompleks vitaminlər).
4. Mikrosirkulyasiyanı yaxşılaşdıran məhlullar və dərmanlar (“Reopoliqlukin”, “Reomakrodeks”, “Reosorbilakt”, “Reoqulman”, “Kurantil”, “Trental” və s.).
5. Hərarətsalıcı dərmanlar.

**3) Ağır dərəcəli istivurmalarda:**

1. Xəstəni təcili təxirəsalınmaz terapiya və reanimasiya bölmələrində yerləşdirməklə intensiv infuziyon konservativ terapiya və reanimasion tədbirlər görülür.
2. Kollaps, ürək-damar çatışmazlığı, nevroloji əlamətlər əmələ gələrsə ürək-damar stimulyatorları (“Kofein”, “Mezaton”, “Noradernalin”, “Kordiamin” və s.) steroid preparatlar (“Prednizalon”, “Deksametazon”) nevroloji preparatlar (“Diazepam”, “Seduksen”, “Relanium” və s.) tətbiq edilir. [4.3]
3. Ağciyər ödemi əmələ gələrsə təcili müvafiq tədbirlər görülür.
4. Yoluxucu xəstəliklərin əmələ gəlməsinin qarşısını almaq üçün antibiotiklərdən istifadə olunur.

**Günəş yanıqları, günvurmalar və istivurmalar zamanı həyata keçirilən profilaktik tədbirlər:**

– ilin isti aylarında hərbi qulluqçuların geyim formalarını mövsümə uyğunlaşdırmaq;
– içməli su üçün şəxsi heyəti fərdi qablarla təmin etmək;
– qida rasionuna gündəlik normadan artıq duz və vitaminlər əlavə etmək;
– mühafizə geyimlərində təlim məşqlərini normativlərə uyğun olaraq qısa

müddətli aparmaq;

– sıra hazırlığı təlimləri günün sərin vaxtlarında və qısa müddətli fasilələrlə aparılmalıdır;

– kazarma, sinif və digər məşğulluq otaqlarında havanı vaxtaşırı dəyişmək, imkan daxilində hava təmizləyici qurğulardan istifadə etmək lazımdır;

– təlim məşqlərindən sonra şəxsi heyətin sərinləşdirici duş qəbul etməsi üçün şərait yaratmaq;

– gənc əsgərlərin hərbi şəraitə və ətraf mühitin yüksək hərarətinə hazır olmadığını nəzərə alaraq onlara xüsusi adaptasiya rejimi təyin etmək;

– təlim məşqləri zamanı şəxsi heyətin günəş şüalarının birbaşa təsirindən maksimum qorunması üçün tədbirlər görmək. [2.3-40]

Xəstələrin hospitalizasiyası klinik əlamətlərinə görə və patologiyaya uyğun olaraq müvafiq profilli bölmələrdə (intensiv terapiya, kardiologiya, nevrologiya, qastroenterologiya və s. bölmələrində) yerləşdirilir.

## NƏTİCƏ

Məqalədə günəş şüalarının orqanizmin açıq nahiyələrinə birbaşa təsirindən əmələ gələn yerli yanıqların, ultrabənövşəyi şüaların təsirindən yaranan günvurmaların, infraqırmızı şüaların təsirindən örtülü yerlərdə yaranan istilikvurmaların patogenezi, klinikası, müalicəsi, diaqnostika və profilaktikasından söhbət açılır.

İsti havalarda orqanizmin daxili hərarəti ilə xarici mühit hərarəti arasında yaranan fərq nəticəsində termorequlyasiyanın pozulması baş verir. Bu da öz növbəsində su, duz və mübadilə balansının çatışmazlıqlarını yaradır. Nəticədə ağır fəsadlaşmaları olan xəstəliklər əmələ gəlir.

Hərbi qulluqçular arasında az da olsa rast gəlinən belə zədələnmələrin qarşısını almaq üçün hərbi həkim və komandirlərin şəxsi heyətin qorunması istiqamətində yazılanları öyrənmələri faydalı olar.

## ƏDƏBİYYAT

1. Əhmədov R. Azərbaycan Respublikası Silahlı Qüvvələrində Termiki zədələnmələrin diaqnostika, müalicə, profilaktika, təxliyyə qaydaları haqqında “METODİK TÖVSİYƏLƏR” kitabı (cərrahlar üçün). Bakı, 2009

2. Mərkəzi Hərbi Klinik Hospitalın 2003-cü il yekununa həsr olunmuş elmi konfransının materialları. Bakı, 2004

3. Братусь В. Интенсивная тералия в неотложной хирургии, Москва. «Медицина», 1989

4. Гембицкий Е. Военно-полевая терапия. Москва. «Медицина» , 1983

5. Quliyev R. Orqanizmin kəskin qızması. Hərbi səhra terapiyası. Bakı, 1998

**РЕЗЮМЕ**
**СОЛНЕЧНЫЕ ОЖОГИ, СОЛНЕЧНЫЙ УДАР, СНЕЖНАЯ СЛЕПОТА, ТЕПЛОВОЙ УДАР**
**Р. АХМЕДОВ**

В статье опубликованы солнечные ожоги тела, которые образуются от прямых действий солнечных лучей, солнечный удар, который образуется от действия ультрафиолетового облучения солнца и тепловой удар, который образуется от действия в закрытом помещении от инфракрасных лучей.

В результате разницы внутренней температуры тела с теплой окружающей средой нарушается терморегуляция организма. В итоге появляется дисбаланс электролитов ( Ка, Na, Мг, Са и др.) и нарушение обмена веществ организма. Все эти патогенетические изменения приводят к тяжелым последствиям организма, даже к смерти.

Для сохранения здоровья личного состава военнослужащих читать эту статью командиром и врачом войсковой части будет очень полезно.



**SUMMARY**
**THE SOLAR BURNS, SOLAR BLOW, THE SNOW BLINDNESS, THE HEATSTROKE**
**R. AHMADOV**

In this article we tried to show the effect of sunburn to the body of human being which is formed directly by the effect of sunbeam, sunstroke and in its turn it form under the influence ultraviolet irradiation of sun and heat stroke and happens to our epinion by the acton of infra-red beam in closed lodginq or room.

In the result differences between inner temperature of body and surroundinqs regulation of orqanizm is broken(disturbed). At the end there happens disbalance electrolyte of (Ka, Na, Ma, Ca, etc) and disturbance exchange of inatter of orqanizm. All there pathogenetical changes brings at last serious conseguencer or even to death.

In order to keep healthy (safe and sound) personnel serviceman it is necessary (it is advisable) to reat this article and it will be very usepul for everyone.

# İRANIN ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN NİZAMLANMASI PROSESİNDƏ SİYASƏTİ

**Mayor Ramiz ƏMRAHOV**
**SİLAHLI QÜVVƏLƏRİN HƏRBİ AKADEMİYASI**

**Açar sözlər:** sanitar kordonu, geosiyasi rəqabət, ikili standart siyasəti, qüvvələr balansı, vasitəçilik missiyası.

**Ключевые слова:** санитарный кордон, геополитическая конкуренция, политика двойных стандартов, баланс силы, посредническая миссия.

**Keywords:** sanitarian cordon, geopolitical competition, double standard policy, balance of forces, the mission of mediation.

Hazırda Cənubi Qafqaz İranın müasir Avrasiya strategiyasında prioritet istiqamətlərdən birini tutur. Heç şübhəsiz, bu regionda İran Azərbaycanla əlaqələrinə xüsusi önəm verir. İran Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il 25 dekabrda tanımışdır. 1992-ci ilin 12 martında iki dövlət arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycan öz müstəqilliyinə ağır şəraitdə - Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün artdığı dövrdə qovuşdu. Təbii ki, hadisələrin İranın qonşuluğunda cərəyan etməsi onu bu prosesdən kənarda qoya bilməzdi.

Rəsmi Tehran Cənubi Qafqaz siyasətində, ilk növbədə isə Azərbaycan-Ermənistan münaqişəsində öz geosiyasi maraqlarını sığortalamaq siyasəti yeridir. Bunu dərk etmək çətin deyil. Azərbaycanla İranı mədəni və dini identiklik birləşdirir. Belə ki, İran İslam Respublikasının Konstitutsiyasında Tehran ümummüsəlman həmrəyliyinin banisi hesab edilir.

Buradan belə bir qənaətə gəlmək mümkündür ki, Tehranın Ermənistan - Azərbaycan münaqişəsinə vasitəçi qismində diplomatik müdaxiləsi nəhəng azərbaycan diasporu ilə sıx bağlıdır. Bu addımı atmaqla, İran dövləti özünü iri azərbaycan icmasının narazılığından sığortalamaq istəyib. Çünki iranlı azərbaycanlılar hökumətin Dağlıq Qarabağ siyasətinə yetərli təsir göstərmək imkanına malikdir.

İran bu gün Ermənsitanla ticarət və hərbi sahələrdə əməkdaşlıq edir. Xalq istehlak mallarının daha çox hissəsini və yanacağı Ermənistan İrandan alır. Əgər İran sərhədləri bağlasa, Ermənistanı fəlakət bürüyər.

1992-ci ilin əvvəllərində İranın Ermənsitan-Azərbaycan münaqişəsində vasitəçilik mandatına yiyələnmək cəhdlərini daha iki əlavə amillə bağlamaq olardı. Birincisi, İran öz sərhədləri yaxınlığında gedən Ermənistan-Azərbaycan münaqişəsinin eskalasiyasını öz milli təhlükəsizliyinə və ərazi bütövlüyünə təhdid kimi

qiymətləndirirdi. İkincisi, İran geostrateji dövlət kimi yeni təhlükə və çağırışların qarşısını almaq iqtidarında olmasını nümayiş etdirmək istəyirdi.

Müstəqilliyin ilk illərində Azərbaycana münasibətdə Tehranın geosiyasi maraqlarını belə təxmin etmək olardı:

– Azərbaycan Respublikasının timsalında satış bazarı əldə etmək;

– Şimali Qafqaz, Orta Asiya və Volqaboyu müsəlmanlarına təsir üçün plazdarm əldə etmək.

Bu subyektiv strateji vəzifələrin gerçəkləşməsi üçün Tehran 1992-ci ilin əvvəllərindən etibarən Ermənistan-Azərbaycan qarşıdurmasında vasitəçilik missiyasını həyata keçirməyə nail oldu.

Belə bir missiyanın İran diplomatiyasına verilməsini münaqişə iştirakçılarının geosiyasi mövqelərinin üst-üstə düşməsi ilə əlaqələndirmək olardı. İranın «ərazi bütövlüyü prinsipini vacib sayması» Azərbaycanı tam qane edirdi. Ermənistanın isə Türkiyə vasitəçiliyindən daha çox İrana üstünlük verməsi təbii idi. Məlum münaqişədə Ermənistan üçün alternativsiz vasitəçi Rusiya hesab edilsə də, Azərbaycan Moskvanın Dağlıq Qarabağ münaqişəsində «ədalətli dəllal» rolu oynayacağına ümid bəsləmirdi. Qarşıduran tərəflərin Türkiyə və Rusiyaya etimadsızlığı, dərhal İran vasitəçiliyinə reallaşmasına yol açmış oldu. Dağlıq Qarabağ münaqişəsində vasitəçiliyə özünün Şimal-Qərbi Asiya strategiyasının tərkib hissəsi kimi baxan İran tanınmış beynəlxalq sərhədlərin toxunulmazlığını vacib sayır. O, tarixi arqumentlərə əsaslanmış ərazi iddialarının qanuniliyini tanımır. Çünki belə iddialar və arqumentlər regionda əbədi münaqişələrə gətirib çıxara bilər».

İran 1992-ci ilin martında münaqişə iştirakçılarını Tehran görüşünə dəvət etdi. Görüşdə atəşin müvəqqəti dayandırılması, əsirlərin və tələf olmuşların cəsədlərinin mübadiləsi, müşahidəçi qüvvələrin yerləşdirilməsi və s. məsələlər müzakirə edilmişdir. Həmin ilin 15 martında Tehranda nümayəndələr münaqişənin nizamlanması haqqında bəyannamə imzaladılar. 19 martda BMT-nin Baş katibi Butros-Qali İranın münaqişədə vasitəçilik təşəbbüsünü yüksək qiymətləndirərək, İran XİN-nə məktub göndərdi. Lakin bu bəyannamə atəşi dayandırmadı, mayın 9-da Tehranda danışıqların yeni mərhələsi başlayarkən, erməni qoşunları Şuşanı ələ keçirməklə Dağlıq Qarabağın işğalını başa çatdırdı.

Hərbi əməliyyatların genişlənməsi, faktiki olaraq, İran vasitəçiliyinin səmərəli olacağını şübhə altına alırdı. Döyüş bölgəsində hərbi əməliyyatların sonrakı gedişi bunu bir daha təsdiq etdi. Həmin hadisələrlə bağlı İranın gündəlik qəzeti «Salam» yazırdı: «Ermənilər sübut etdilər ki, onlar heç bir vədə riayət etmir və silahlanmaq üçün bütün imkanlardan istifadə edirlər». Qəzet İran XİN-ni kəskin tənqid edərək yazırdı ki, rəsmi Tehran üçün Ermənistan və beynəlxalq təşkilatlar ilə qarşılıqlı anlaşma, azərbaycanlı şiə əhali üzərində fəlakətdən daha vacibdir».

İran diplomatiyasının vasitəçilik səylərinin iflasa uğraması onun məlum münaqişəyə gələcək «müdaxiləsini» minimuma endirdi. Birincisi, İran diplomatiyasının səmərəsiz fəaliyyəti Azərbaycanda ona qarşı inamsızlığı daha da artırmışdı. İkincisi, regionda özünün geosiyasi maraqlarını axtaran Qərb dövlətləri münaqişədə İranın vasitəçiliyinə heç vəchlə razı deyildilər. Onların fikrincə «İran daha çox neqativ rol oynayacaq və Azərbaycanın perspektivlərinə əlverişsiz təsir göstərəcək».

İranın vasitəçilik missiyasında düçar olduğu uğursuzluq onu münaqişənin gələcək nizamlanması prosesindən kənarlaşdırmaqla yanaşı, neft oyunlarında fəal iştirak etməkdən də kənarlaşdırdı. Qərb İranın qlobal terrorizmin dayağı adlandıraraq, onun regional geosiyasi proseslərdən təcrid olunmasını müvəffəqiyyətlə başa çatdıra bildi. Etiraf etmək lazımdır ki, ilk dəfə İranı münaqişənin həlli prosesindən uzaqlaşdıran Rusiya olmuşdur. Məhz rəsmi Tehran danışıqları zamanı Şuşanın işğalı prosesində Rusiyanın hərbi birləşmələri fəal rol oynamışdır. «Bununla da Rusiya İrana öz yerini göstərdi və onun Qafqazda nüfuzunun artmasına dözməyəcəyini nümayiş etdirdi». Bundan sonra İran Rusiyanın xeyrinə münaqişəyə müdaxilə etməkdən imtina etdi. Qərbdən fərqli olaraq Rusiyanın münaqişə bölgəsində strateji üstünlüyü əlində saxlaması İran üçün bir o qədər də təhlükə doğurmur.

Bunun üçün rəsmi Tehran region ölkələrinə 3+2 formulunu (3 Cənubi Qafqaz respublikası + Rusiya və İran) təklif edib. Bu sistem təhlükəsizlik və xarici siyasət sahəsində adıçəkilən ölkələrin səylərini birləşdirməsini, birgə əməkdaşlığını nəzərdə tuturdu. Maraqlıdır ki, 3+2 formulunu təklif etməklə regiondakı əsas geosiyasi oyunçulardan biri olan Türkiyəni bu sistemdən kənarda qoymağı düşünən İran yalnız öz tarixi rəqibini deyil, həm də Ankaranın üzvü olduğu NATO-nu və müttəfiqi olduğu ABŞ-ı proseslərə təsir göstərmək imkanından məhrum etmək niyyətini gizlətmirdi. Lakin İranın bu təklifi region ölkələri tərəfindən birmənalı qarşılanmadığından, o yeni təkliflə çıxış etməli oldu. Bundan sonra İran rəhbərliyi regional təhlükəsizlik sisteminə dair formula – 3+3 sxemini irəli sürdü. Burada artıq söhbət 3 Cənubi Qafqaz Respublikası + Rusiya, İran, Türkiyə formulundan gedirdi. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün, İran hətta Vaşinqtonun ən güclü müttəfiqi və Tehranın əsrlər boyu regiondakı rəqibi olan Türkiyə ilə də əməkdaşlığa hazır olduğunu nümayiş etdirdi.

XXI əsrdə İran-Azərbaycan münasibətləri praqmatik ruhda inkişaf etməkdədir və iqtisadi, ticarət, energetika və nəqliyyat sahəsində əməkdaşlıq genişlənməkdədir. Hərbi və təhlükəsizlik sahəsində də əməkdaşlıq normal səviyyədədir. Hərbi və təhlükəsizlik sahəsində nəzərə çarpan əməkdaşlıq regiona yaxın bölgələrdə cərəyan edən hadisələrdən qaynaqlanıb. ABŞ-ın hərbi müdaxiləsi təhlükəsindən ehtiyatlanan İran Azərbaycanla hərbi-təhlükəsizlik sahəsində əməkdaşlığa xüsusi önəm verir. Hazırda yeganə problem Xəzərin hüquqi statusu məsələsidir.

Ötən illər ərzində iki ölkə arasında əsaslı hüquq-müqavilə bazası yaradılmış və müxtəlif sahələri əhatə edən 100-ə yaxın sənəd imzalanmışdır. Onlardan biri kimi "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və

əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında müqavilə"ni qeyd etmək olar. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində İranın beynəlxalq hüquq normalarına, dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiq qalaraq BMT və İKT təşkilatları çərçivəsində Azərbaycanı dəstəkləmişdir. Azərbaycan və İran Parlamentlərarası münasibətlərinin daha da inkişaf etdirilməsi məqsədilə 1995-ci ilin noyabr ayından Azərbaycan və İran Parlamentlərarası dostluq qrupu yaradılmışdır.

## NƏTİCƏ

Azərbaycan-İran münasibətlərinin dinamikası belə nəticəyə gəlməyə əsas verir: a) Azərbaycan İrana qarşı daima həssas olmalı və balanslı siyasət yeritməlidir; b) İran-Ermənistan əlaqələrinin daha da genişlənəcəyi istisna olunmur.

## ƏDƏBİYYAT


1. Фейгин М. Закафказский узел, 1998
2. Дугин А. Основы геополитики. Геополитические будушее России. Москва, 1997
3. Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Bakı, 2000
4. Бзежински З. Великая шахматная доска. Москва, 1998
5. Спорные границы на Кавказе. Москва, 1996


## РЕЗЮМЕ

### ПОЛИТИКА ИРАНА В ПРОЦЕССЕ УРЕГУЛИРОВАНИЕ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО КОНФЛИКТА

Р. АМРАХОВ

Статья посвящена анализу внешней политике Ирана в процессе урегулирование Армяно-Азербайджанского конфликта. Рассматриваются различные факторы, определяющие причины успехов и неудачи Иранской дипломатии в данной конфликте. Подчеркивается, что несмотря на игнорирование роль Ирана в данной конфликте, официальный Тегеран до сих пор проводит двойного стандарта в политике по урегулированию конфликта.

## SUMMARY

### İRAN'S POLICY TOWARDS THE ARMENIAN-AZERBAIJAN CONFLICT

R. AMRAHOV

The article is devoted to analysis Iran's foreign policy towards Armenian-Azerbaijan conflict. Different factors which determine the success and failure of Iran's policy in the regulation of Armenian-Azerbaijan conflict. It is stressed that despite of Iran was removed from this conflict Tegeran is pursuing now double standard policy in regulation of this problem.

# MƏLUMAT

## ELMİ MƏQALƏNİN TƏRTİBATI ÜÇÜN İRƏLİ SÜRÜLƏN TƏLƏBLƏR

***Elmi məqalə MS Word mətn redaktorunda (97, 98, 2003, 2007) Azərbaycan dilində, Times New Roman şrifti ilə yığılmalıdır. Məqaləyə cədvəllər, qrafiklər, diaqramlar, fotolar daxil edilə bilər. Mətn şriftinin ölçüsü 12, sətirarası məsafə 1,5 olmalıdır. Səhifə, cədvəl, diaqram, şəkil və qrafiklər nömrələnməli, istinad mənbələri göstərilməlidir.***

Məqalə 6-8 səhifədən az olmamalı, axırda yazıldığı dildən başqa 40-50 sözdən ibarət rus və ingilis dillərində nəticə (резюме, summary) yazılmalıdır. Məqalənin əvvəlində müəllifin işlədiyi müəssisə, onun ünvanı, e-mail ünvanı, 4-5 sözdən ibarət açar sözlər, axırda istifadə edilən ədəbiyyat siyahısı olmalıdır. Elmi mənbələrə edilən istinadlar məqalənin içində, sitat gətirilən cümlənin sonunda, nömrəsi və səhifəsi dördkünc mötərizənin içərisində verilməlidir: [1] və ya [1.119]. Məqalənin başqa bir yerində təkrar istinad olarsa, həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir. Məqalənin sonunda yazılan ədəbiyyat sırasında kitabın müəllifi, adı, çap edildiyi şəhər və nəşriyyat, çap tarixi göstərilməlidir. İstifadə edilən ədəbiyyat siyahısında son 5-10 ildə çap olunmuş elmi məqalə, monoqrafiya və yeni elmi-texniki mənbələrə üstünlük verilməlidir.

Müəlliflərin sayı üçdən çox olan hallarda birinci üç müəllifin adı göstərilməli və mötərizə içində kollektiv müəlliflər qrupunun olması öz əksini tapmalıdır. Rus, ingilis və ya digər dillərdə olan ədəbiyyat elə həmin dildə göstərilməlidir. Elmi məqalə müəllifləri kafedra və ya təşkilatın iclas protokolundan çıxarış, məqalənin elmiliyi və dövrün tələblərinə cavab verməsi, toxunulan məsələnin aktuallığı ilə bağlı iki rəy təqdim etməlidirlər.

**NÜMUNƏ:**

1. Петухов С.И., Степанов А.Н. Еффективность ракетных стрельб. Москва, 1976
2. Sadıqova S.Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. Bakı, 2005

Səhifənin ölçüləri: vərəqin formatı – A4, sağ tərəfdən məsafə – 20 mm, sol tərəfdən məsafə – 30 mm, yuxarıdan və aşağıdan məsafə – 20 mm. Səhifələrin nömrəsi aşağıda və sağ tərəfdə qoyulmalıdır.

Məqalənin əvvəlində aşağıdakılar göstərilməlidir:

– məqalənin sərlövhəsi (qara şrift, ölçüsü – 14);
– müəllifin adı, rütbəsi, vəzifəsi, elmi dərəcəsi (şrift – 14);
– təşkilatın adı, şəhər, ölkə, e-mail (şrift – 14);
– açar sözlər (üç dildə).

Şəkil, foto, qrafik və diaqramlar ağ-qara rəngli olmalı, mətnin daxilində yerləşdirilməlidir. Qrafik, cədvəl və şəkillər*.jpg formatında verilməli, mətnin çap variantı ilə birlikdə elektron variantı diskdə təqdim edilməlidir. Məqalənin sonunda məqalə müəllifi əlaqə saxlamaq üçün işlədiyi yeri, telefon və e-mail ünvanını göstərməlidir.

**Lisenziya: № 002559**
**Yığılmağa verilmişdir: 08.06.2014**
**Çapa imzalanmışdır: 20.07.2014**
**Şərti çap vərəqi: 9,8**
**Fiziki çap vərəqi: 7+0,125**
**Kağız formatı: 70x108 1/16**
**İndeksi: 0317**
**Tirajı: 3873**
**Sifariş: 244**

**Jurnal Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatında ofset üsulu ilə çap edilib.**
**Lisenziya: № 022042**
**Verilmə tarixi: 04.06.1999**

**KORREKTOR:** ***Nəzrin ƏSƏDZADƏ***

**SİLAHLI QÜVVƏLƏRİN ALİ HƏRBİ MƏKTƏBLƏRİNİN və AKADEMİYA MƏZUNLARININ BURAXILIŞ MƏRASİMİNDƏN**
**(24 İYUN 2014-cü il)**







# TƏLİM DƏQİQƏLƏRİNDƏ














Polkovnik-leytenant Şirin Vəli oğlu Mirzəyev

05.01.1947- 18.06.1992

Əslən Şuşanın Mirzələr kəndindən olan Şirin Mirzəyev 1947-ci il yanvar ayının 5-də Xankəndində dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra o həyat yolunu belə cızdı: hərbi xidmət, daxili qoşunlar alayında müvəqqəti qulluq, Leninqrad (indiki Sankt-Peterburq) Ali Hərbi Siyasi Məktəbində təhsil. O, 1971-ci ildə hərbi təhsilini müvəffəqiyyətlə başa vurub Ermənistanda yerləşən Sovet qoşunlarına aid hərbi hissələrin birində xidmətə başlamışdır. Beş il orada xidmət və daha 15 il zabit peşəsini şərəfləndirmə. Azərbaycanda ictimai-siyasi vəziyyət gərginləşən zamanlar hər bir vətənpərvər oğlun ürəyi dözmədiyi kimi onun da qəlbi el-oba naminə sızıldadı. 1991-ci ildə qəlbində alovlanan Vətən məhəbbəti, vətənə xidmət arzusu onu Ağdama çəkib gətirdi. Özü də elə bir vaxtda ki, onun kimi peşəkar hərbçilərə xalqımızın böyük ehtiyacı var idi. Heç fikirləşmədən döyüşlərə atılan cəngavər oğul zabitlik bacarığı, təşkilatçılıq məharəti ilə tanındı. Ş.Mirzəyev Ağdam rayonunun həm hərbi komissarı, həm də alay komandiri kimi məsul vəzifələri çox bacarıqla yerinə yetirirdi. Bütün maneələrə və təqiblərə baxmayaraq polkovnik-leytenant Şirin Mirzəyev respublikamızda ilk nizami özünümüdafiə taborunu min-bir əziyyətlə yaratdı, beləcə Şirin Mirzəyevin və onun köməkdarlarının səyi nəticəsində respublikada 1-ci olan tabor yaradıldı və ürəyi Vətən sevgisilə çırpınan polkovnik-leytenant Şirin Vəli oğlu Mirzəyev Ağdam rayon ərazi özünümüdafiə taborunun komandiri seçildi. Bu, o dövr üçün çox zəruri bir addım idi. 1992-ci ilin may ayında onun rəhbərliyi ilə üç tabordan ibarət alay yaradıldı. Ş.Mirzəyevin döyüş yolu respublikada örnək ola biləcək bir yoldur. Onun sərkərdəlik qabiliyyəti nəticəsində Fərrux, Pircamal, Qazançı, Ballıqaya, Qaraşlar, Bəşirli, Sirxavənd, Ağbulaq, Dəhraz, Naxçıvanik kəndləri erməni quldurlarından azad edildi. Vətən oğlunun başçılığı altında Ağdam rayonunun 120 km-lik ərazisi müdafiə edilirdi. Əsl komandir olan Ş.Mirzəyev həmişə ön xəttə olurdu. Komandirlərinin bu keyfiyyəti alayın bütün üzvlərini cəsarətləndirirdi. Könüllülük prinsipi ilə xidmətə gələn döyüşçülər bir qədər təcrübəsiz idilər. Ş.Mirzəyevin özünün şəxsi nümunəsi, hərbi qanunlara ciddi riayət etməsi, hər bir əsgərə fərdi qayğısı və tələbkarlığı sayəsində bütün nöqsanlar aradan qaldırıldı.

Şirin Mirzəyev 18 iyun 1992-ci ildə Sırxavənd istiqamətində aparılan döyüş əməliyyatı zamanı minaya düşərək şəhid olub. Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Qiyməti 1 manat 20 qəpik

İndeks 0317

"HƏRBİ BİLİK"
AZƏRBAYCAN RESPUBLİKASI
MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI
İKİ AYDA BİR DƏFƏ ÇIXIR

Ünvanımız: "Qızıl Şərq" hərbi şəhərciyi 13, tel: 440-99-71



## YENİ PUA

Horizon Fuel Cell Technoligies şirkətinin "Aeropak" hidrogen yanacaq elementləri ilə təchiz olunmuş enerji təminat sistemi ilk dəfə olaraq "Boomerang" adı verilən BlueBird Aero System PUA-nın enerji təminatında tətbiqini tapdı. Boomerang 9 kq çəkisi olan kiçik qabaritli PUA-dır. PUA 2 kq çəkisi olan və 900 Vt elektrik enerjisi yaradan "Aeropak" enerji təminatı sisteminin hesabına aramsız olaraq 9 saat havada qala bilir.

Boomerang dünyada ilk dəfə hidrogen yanacaq elementlərindən istifadə edilən PUA-dır. Hidrogenlə işlədiyinə görə o praktiki olaraq səs salmır, isti buraxmır və ona görə də kəşfiyyat, müşahidə və patrul xidmətləri üçün ideal maşındır. Dövlət sərhədlərində patrul xidmətlərini yerinə yetirmək üçün İsrail ordusu tərəfindən sifariş edilmişdir.